بسم الله الرحمن الرحيم

# *QURANLA DƏRMAN*

Məhəmməd Rza Kərimi Bəxtiyari

Kitabın adı: ............................................"Quranla dərman"
Müəllif: ......................... Məhəmməd Rza Kərimi Bəxtiyari
Mütərcim: ............................................................ Ə. Qasımzadə
Naşir: ........................................................................"Əsre rəhayi"
Tiraj: ..................................................................................5000
Çap növbəsi:.........................................................................Birinci
ISBN:….......................................................................964-2760-11-x

# ***Əl-quranu əhdullahi ila xəlqihi***

## Giriş:

Bağışlayan və mehriban Allahın adı ilə .

Əziz oxucu bu kitab vasitəsi ilə sizinlə əlaqə yaratdığıma görə xoşbəxtəm. İndi isə sizin dərdlərinizi (xəstəliklərinizi) bütün dərdlərin dərmanı olan Quranla müalicə edib, onun qarşısında sizin reaksiyanızı görüb eşitmək istəyirəm. Cavanlığın ilk anlarında bu müqqəddəs kitabın (Quranın) güclü təsirini hiss etdiyim halda, səni onda olan sirrlərdən agah etməməyimə heyfim gəlir. Cavanlıqda Quranla bir müddət ünsiyyət tapmışdım, Lakin onun surələrini savab üçün oxuyardım, nəhayət bir hədis mənim yadıma düşdü ki, (əl-quranu dəvaun) Yəni Quran dərdlərə dərmandır. Məhz elə buna xatir, Quranı dərdlərimin dərmanı üçün oxumağa başladım, və onun gözəl nəticələrini müşahidə etdim.

Bəli: Allaha qovuşmaqlıq yolunda maraqlı müsibətlər doludur. Bu yolda (arif) Allahın istəyi ilə bütün fikrini ona tərəf yönəldərək, ona yaxınlaşmaqda çalışır, və onun yolunda qərq olur. Amma tez ötüb keçəsi deyil, bəlkə onun böyük əzəməti haqqında fikirləşmək, onu dərmansız (müalicəsiz) dərdə giriftar edər ki, onun əlacını bu kitabda tapacaqdır. İnşa-Allah.

Bu xəstəliyin əlamətlərini deyəcəyəm: ki, ona mübtəla olan fərd onu (bu kitabı) oxumağı özünə lazımlı bilsin. Gözlər çuxura düşübdür, və yanaqları isladan təkcə göz yaşlarıdır. sanki elə bil xəstənin bədəni quruyub, və gözləri bir nöqtəyə dikilmişdir. Bu əməl diqiqələrlə davam edir. Çox ağlayır.

Necəki Pərvərdigarından xəbər gətirirlər, təbəssüm edir. Bəziləri çox şiddətlə ağlayırlar. (Nəfəs sinədə həbs olub, ya Allah deyəndə ah çəkir). Bu dəqiqələr insanın ömrünün ən şirin dəqiqələridir. Başqalarınının şadlığında qəmgindir, ancaq bu qəmginliyini gizlədib, təbəssüm edir. Bütün bədən üzvüləri süstləşib, və yuxusuzluqdan əziyyət çəkir. (Bədən) yorulub ancaq onun ağılı bu dəqiqələri sevir, və həqiqətən bu anlar ən şirin anlardır ki; "Gecə yarısının razu-niyazı yüz dərdə dəvadır." Sabit qiyafəsi yoxdur, və hər saniyə qiyafəsi dəyişməkdədir. Bu Allahı arzulayan şəxs üçün adi bir işdir. Çünki özünün ən əzəmətli (Allahın) müqabilində dayandığını dərk edir. Pərvərdigarının adını deyəndə, onu başqa işə məcbur etməyin. Çünki, bu zaman onun nəbzi (ürəyi) dayana bilər. Allahı arzulayan dostunuz bu dəqiqələrdə qorxulu bir vəziyyətdə qərar tapmışdır. Bu anlar onun xaric olmaq vaxtına yaxındır. Necəki, İlahinin adını ona pıçıldadınız, xəstəliyi şiddətlənəcəkdir. Dostunuzun vidalaşmağı istəmirsinizsə, (metod) Allahın çoxlu adlarını deyin, və onun İlahini onların arasında yerləşdirin. Bunları deməkdən məqsəd budur ki, onu eşitməyə hazırlayın, qəflətən onun İlahinin adını ona deməyin. Biz bu dərmanlardan istifadə etmişik, və onlardan çoxlu faydalar almışıq. Sizidə bu dərmanlardan istifadə etməyə dəvət edirik ki, özünüz onun ali nəticələrini görəsiniz. Allahı arzulayan çox əzgindir, və bu hal onda güclənir. Necədə ali bir dərddir. O (Allahı arzulayan) çox gücsüzdür. Çünki, zəif bir fərd qüdrətli Pərvərdigarın qarşısında dayanmışdır. Allah aşiqini çox zəif və cılız halda müşahidə etdim. Lakin, ölümündən sonra onu yuxuda Behiştin ən tanınmış fərdlərindən biri olduğunu yuxuda gördüm. Bu dərmansız dərdin müalicəsi Qurandır və yenədə Qurandır Quran.

***Üslub:*** Əgər Allaha tərəf getmək istəsən ağsaqqal və yaşlı Allah aşiqləri ilə məşvərət (məsləhət) et. Çünki dünya görmüş Allah aşiqləri, "İlahini" bizə lazımınca tanıtdırırlar. Bu işdə yaşlı qadınları seçin. Çünki onlar daha yaxşı bələdçidirlər.

Çoxlu Quran oxumaq və həmişə salam vermək, Allah aşiqi üçün ən gözəl üslubdur. O vaxt ölüm asanlaşar. İndi isə sizi Quranla birlikdə tərk edirəm, ondan faydalanacağınıza ümidvaram. Çünki bu işdə bir an təfəkkür etmək, yüz illik peşimanlıq gətirər. Ey kaş mənim qara bəxtim üçün Quran oxumaq neçə yüz bərabər olaydı. Amin.

Nəbiyyi-Əkrəm (s.ə.v.v.) adına dini və İslamı təhqiqat mərkəzi.

Kərimi Bəxtiyari.

## ***Quran oxumağın savabı***

1-"***Qurandan bacardığınız qədər oxuyun.***" (Müzzəmmil surəsi-20-ci ayə)

2-Quran oxumaq və ona əməl etmək, dərdlərə dərmandır.

(hər bir dərdin özünə münasib nüsxəsi vardır. Bu nüsxə min dərdə dərmandır).

3-Quran müəllimləri və gecələr oyaq qalanlar, mənim ümmətimin ən şərafətlisidirlər.

4-Quran oxumaq mənim ümmətimin ən şərafətli əməllərindən sayılır.

5-Quran oxumaqla öz evlərinizi işıqlandırın. Yəhudi və Nəsranilər kimi onları gorda saxlamayın, ki, Kilsə və məbədlərdə namaz qılıb, öz evlərində isə vaxtlarını batil keçirirdilər. Çünki, Quran oxunan evdə xeyir-bərəkət artar. O evin əhlinin ruzisi bol olar. Quran oxumaq o mənzilə nuraniyyət bağışlayar. Səma, ulduzları dünya əhlinin işıqlandırdığı kimi, səma əhlini nuranilәşdirər.

6-Keçmişin və gələcəyin xəbərləri, və sizin aranızda baş verən, həqiqətlərin hamısı Allahın kitabındadır.

Bu elə bir kitabdır ki, haqq ilə batinin arasında fərq qoyandır, bihudə və ləğvin yox. Onu oxumaqla, xalq batil şeylərə meyllənməz, və dünya alimləri, onun mərifət dəryasından doymazlar. Çünki bu asimani kitab, həqiqətlərin sərçeşməsi və hidayətin mənbəyidir. Çoxlu və təkrar-təkrar oxumaqla köhnəlməz, və onun möcüzələri tükənməzdir. Bu elə bir kitabdır ki, hər bir sitəmkar əgər onu tərk etsə, Allah onu məhv edər. Hər kəs Qurandan azca hidayət tapmağa çalışsa Pərvərdigar onu öz başına buraxar, O, (Quran) Allahın möhkəm ipi və düzgün yoludur. Hər kəs ona əməl etsə, dəyərini alıb, əbədi savaba nail olacaqdır. Hər kəs onunla (Quranla) hökm

etsə, ədalətlə davranmışdır, və hər kəs xalqı bu kitaba tərəf çağırsa, düzgün yola dəvət etmişdir.

7-Hər kəsin danışığı Quran və evi məscid olsa, Allah-taala Behiştdə onun üçün bir bina qərar verər.

8-Allahla danışmaq istəyən Quran oxusun.

9-İmanlı şəxs cavanlıqda Quran oxuyursa, Quran onun əti və qanı ilə qarışar.

## ***Quranı oxumazdan əvvəl oxunan dua***

İlahi Quranı haqq və düzgünlüklə nazil etdin.

Ey İlahi! mənim meyl və rəğbətimi Qurana nisbət çoxalt. onu mənim gözümün nuru, qəlbimin şifası, qəm və qüssəmi aparan qərar ver. İlahi! dilimi Quran oxumaqla zinətləndir. Onun səbəbi ilə sifətimə nuraniyyət bəxş et. Bədənimi onun itaət yolunda güclü et. Ondan faydalanmaqla mənim elmimi artır. Gecə və gündüz Quran oxuyub, sənə itaət etməkdə məni müvəffəq et, və məni Peyğəmbərin Həzrət Məhəmmədlə (s.ə.v.v.) və onun seçilmiş əhli-beyti ilə məhşur et.

Həzrət İmam Rzadan (ə) nəql olunan hədisdə həzrət buyurur: Hər kəs Bismillah kələməsini deyə, bu, gözün qarasından ağına yaxın olan kimi İsm Əzəmə çox yaxındır. İbn Əbbasdan belə nəql olunub. Müəllim uşağa deyəndə ki, de Bismillahir-rəhmanir-rəhim və o desə, Allah o uşağın özü ata-anası və müəllimi üçün Cəhənnəm odundan amanda olmaqlarını yazır. İbn Məsud deyir: Hər kəs istəyirsə, Allah onu Cəhənnəmin on doqquz cür odundan nicat versin, Bismillahir-rəhmanir-rəhim desin. Çünki, bu cümlə də on doqquz hərifdən ibarətdir. Allah hər bir hərfi bir odun şöləsinə sipər qərar verəcəkdir.

İmam Sadiqdən (ə) nəql olunan hədisdə Həzrət buyurub: Allah bunları öldürsün, axı necə Quranın böyük ayələrini

oxumağı bidət surəsi (dində qondarma) hesab edirlər? Yəni "Bismallihir-rəhmanir-rəhim"i.

****

## ***"Fatihətul-kitab" surəsi***

***(Səbul məsani, sual, şifa və nur)***

1-İbn Həmzə Bətaini rəvayət edir ki, İmam Cəfər Sadiq (ə) buyurub: Allahın İsm-əzəmi (müqddəs adları) Fatihətul-kitabda yerləşdirilmişdir. ("Səvabul-əəmal", Şeyx Səduq səhifə 94., "Təfsir Əyyaşi" 1-ci cild səhifə 25.)

2-Nəbiyyi-Əkrəm (s.ə.v.v.) buyurub: Hər kəs Fatihətul kitab surəsini oxusa, ona Quranın üçdə ikisinin ⅔ oxunmasının savabını verərlər. Elə bil ki, hər mömin və möminəyə sədəqə vermişdir. Yenədə bu məzmunda ayrı bir rəvayətdə az fərqlə nəql olunub. Elə bil ki, o Quranın hamısını oxumuşdur. Übəyy ibn Kəb deyir: Mən Fatihətul-kitabı Rəsuli-Əkrəm [s.ə.v.v.]-ə oxudum. Həzrət buyurdu: And olsun Allaha ki, Mənim canım onun əlindədir, Tövratda, İncildə, Zəburda, və hətta Quranın özündə bunun kimi surə yoxdur. Bu surə Ummul-kitabdır (kitabın anası) və səbu-məsanidir (yeddi ayədən ibarətdir) .Bu surə Allah və bəndə arasında bölüşdürülmüşdür və bəndə istədiyini ala bilir. Məhəmməd ibn Məsud Əyyaşi nəql edir ki, Nəbiyyi-Əkrəm [s.ə.v.v.] Cabirə buyurdu: Ey Cabir, istəyirsənmi Allah öz kitabında nazil etdiyi yaxşı surəni sənə öyrədim? Cabir dedi: Bəli atam-anam səna fəda olsun Ya Rəsuləllah öyrət mənə. Sonra Rəsuli-Əkrəm [s.ə.v.v.] Həmd surəsi ki "Ummul-kitab" adlanır, ona öyrətdi. Sonra isə Həzrət buyurdu: Ey Cabir onun fəziləti haqqında bilmək istəyirsənmi? Dedi: Bəli atam-anam sənə qurban. Həzrət buyurdu: Bu surə ölümdən başqa hər bir dərdə şifadır. (xərçəng, iflic, həsəd...].

İmam Sadiqdən [ə] nəql olunub ki, əgər bir kəs Həmd surəsindən şifa ala bilməsə, heç bir şey onu sağaltmaz.

Əmirəlmöminin Əli [ə] Nəbiyy-Əkrəmdən [s.ə.v.v.] nəql edir ki, Allah mənə buyurdu: *"Vələqəd atəyna səbən minəl-məsani vəl-quranil-əzim "*. Ey Məhəmməd biz yeddi ayəni ki, iki dəfə sənə nazil olub, göndərdik. (Hicr surəsi 87-ci ayə.)

Həzrəti Məhəmməd [s.ə.v.v.] buyurur: Allah Həmd surəsini bütün Quranın bərabərində qərar verdi, və xüsusilə onu nazil edəndə mənə minnət qoyub buyurdu ki, Fatihətul-kitab Ərş xəzinəsinin ən qiymətli surəsidir. Allah-taala bu surəni Məhəmmədə [s.ə.v.v.] məxsus edib, ona şərafət bəxş etdi, və Həzrət Süleymandan [ə] başqalarını bunda şərik etmədi. Ancaq Süleyman Peyğəmbərə bu surədən Bismillahir-rəhmanir-rəhim nazil edildi. Necəki Quran Bilqeysin dilindən belə hekayət edir: Süleyman [ə] tərəfindən mənə bir məktub verdilər ki, Bağışlayan və mehriban Allahın adı ilə başlanır. Həzrət sonra buyurdu: Hər kəs onu (həmd surəsini) oxusa, Məhəmməd [s.ə.v.v.] və onun əhli-beytilə zahirdə və batində dost və onlara iman gətirib, fərmanlarına itaət etmiş olar. Allah-taala hər bir hərfin müqabilində ona savab verər ki, onun hər biri dünyadan və onun xeyirlərindən üstün olar. Əgər bir kəs bu surə oxunanda ona qulaq versə, oxunuşun və onu üçdə birisinin ⅓ savabını alacaqdır. Bunları qənimət sayıb, çoxaldın, vaxtı ötüb keçməsin ki, sonra onun həsrəti qəlbinizdə qalar.

Bu surəni qırx dəfə qabdakı suya oxuyub, sonra onu xəstəyə içirin, və sədəqə də verin. Sədəqə verilən şəxsə deyin ki, (filan) xəstənin sağalması üçün dua et.

Cümə axşamı mühüm şeylərin hasil olması üçün Həmd surəsini 1011-dəfə oxuyun .(təcrübə olunub).

Əhəmiyyətli şeylərin hasil olması, bəlanın və düşmənin dəf olması üçün bu surəni xətm edin.

Şənbə günü (altıncı gün) 70-dəfə, yekşənbə günü (bazar günü) 60-dəfə, duşənbə günü (birinci gün) 50-dəfə, se şənbə günü (ikinci gün) 40-dəfə, çahar şənbə günü (üçüncü gün) 30-

dəfə, pənc şənbə günü (dördüncü gün) 20-dəfə, cümə günü (beşinci gün) isə 10 dəfə Fatihə surəsini oxuyun. (təcrübə olunmuşdur).

Cümə günündən başlayıb, qırx gün, və hər gündə 41-dəfə həmd surəsini oxusun və hər dəfə oxuyandan sonra 13-dəfə desin.

*Ya mufəttihu fəttih. Ya mufərricu fərric. Ya musəbbibu səbbib. Ya musəyyiru yəssir. Ya musəhhilu səhhil. Ya mutəmmimu təmmim. Və husubullahu və neməl vəkil.*

Hər kəs xalis niyyətlə bu xətmi oxusa, o qədər var-dövlətə malik olar ki, yığıb-yığışdıra bilməz. ("Minhac" səhifə 432).

Miybədinin "Kəşfül-əsrar" kitabında yazılıb ki, hər kəs bu surəni aşağıdakı tərzdə oxusa, inşaallah öz məqsədinə nail olar. Bir həftə ərzində hər gündə 111-dəfə və 111 salavat göndərməklə xətm etsin. Əlbəttə bir şərti də budur ki, yeddi gün ərzində heyvan əti yeməsin. Sonra öz məqsədinə çatmaqdan ötrü desin; "*Bismillahir-rəhmanir-rəhim Əlhəmdu lillahi Rəbbil aləmin. Ərrəhmanir-rəhim. Maliki yəvmiddin . İyyakə nəbudu, və iyyakə nəstəin.*- sonra *Tovhid (Qul huvəllah) surəsini* üç dəfə oxusun . Onun davamında "*Allahummə kəma cəmətə bəynə sifatikə və əsmaikə və əfalikə, fəcməə bəyni və bəynə hacəti, bihəqqi Muhəmmədin vəalihi əcməin*" duasını oxusun. Sonra isə Həmd surəsinin qalanını yəni *İhdinəs-siratəl mustəqim Siratəlləzinə ənəmtə ələyhim ğəyril məğzubi ələyhim, vələzzallin* " oxusun.

Müqəddəs Ərdəbilidən nəql olunub ki, hər kəs *Həmd surəsini* bu iki ayə ilə on gün ərzində, gündə on bir dəfə, hamısı birlikdə 110-dəfə olmaqla hər bir böyük yaxud kiçik hacət və mətləbinin olmasından asılı olmayaraq, oxusun. Bu üslub da təcrübə olunmuşdur və hacətə çatmaq üçün daha əlverişlidir.

Deyirlər ki, qüdrətli olmaqla bərabər onu yerinə yetirməkdə acizlik qarşıya çıxar. (göz dəyməsin) *Üç cümə axşamı hər gecəsində bir rükət namaz qılsın, və hər rükətdə on dəfə Həmd*

*surəsini və on bir dəfə Tovhid surəsini oxusun . Salamdan sonra (yüz) 100 dəfə salavat göndərsin.*

Bir nəfər özünün yoxsulluğundan Peyğəmbərə [s.ə.v.v.] şikayət etdi. Həzrət buyurdu: *Öz evinə daxil olanda salam ver və bir dəfə Həmd surəsini oxu.* O kişi həzrətin buyurduğu kimi etdi; Allah-taala onun, özünün və qonşularının ruzisinə bərəkət verdi.

Əbu Süleyman nəql edir ki, Allahın Rəsulu [s.ə.v.v.] ilə kafirlərə qarşı müharibəyə getmişdim, aramızda bir kişi sər "Epilepsie" (bir növ əsəb xəstəliyidir) xəstəliyinə tutulmuşdu. Səhabələrdən birisi Fatihə surəsini onun qulağına oxudu, o ayağa qalxıb tamamilə şifa tapdı. Bu hekayəti kainatın ağası Rəsuləllaha çatdırdılar. Həzrət buyurdu: *"Hiyə ummul kitab və hiyə şifaun min kulli dain". Yəni o (Fatihə surəsi) ummul kitabdır (Quranın anasıdır) və hər dərdə şifadır.*

Həmd surəsini yetmiş dəfə oxumaq hər bir dərd üçün faydalıdır.

Müqəddəs Ərdəbilidən nəql olunub ki, hər kəs həmd surəsini bu iki ayə ilə on gün və hər gündə on bir dəfə oxusun, (hamısı bir yerdə 110 dəfə olur). Bütün kiçik, böyük hacət və mətləbi olmuş olsa, belə bunları oxusa hacətinin müstəcab olmağını yaxınlaşdırar. (təcrübə olunub).

1-"*Ənzələ ələykum min bədil ğəmmi əmənətən nuasən yəğşa taifətən minkum və taifətun qəd əhəmməthum ənfusuhum yəzunnunə billahi ğəyrəl həqqi zənnəl cəhiliyyəti. Yəqulunə həl-ləna minəl əmri min şəyin. Qul innəl əmrə kulləhu lillahi, yuxfunə fiənfusi-him mala-yubdunə ləkə yəqulunə ləv kanə ləna minəl-əmri şəyun maqutilna hahuna. Qul ləv kuntum fibuyutikum ləbərəzəlləzinə kutibə ələyhimul qətlu ila məzaciihim vəliyəbtəliyəllahu mafisudurikum vəliyuməhhisə mafiqulubikum. Vallahu əlimun bizatis-sudur"*. (Ali-İmran surəsi 154)

2-"*Muhəmmədun Rəsulullahi vəlləzinə məəhu əşiddau ələl kuffari ruhəmau bəynəhum tərahum rukkəən succədən*

*yəbtəğunə fəzlən minəllahi və rizvanən simahum fivucuhihim min əsəris-sucudi. Zalikə məsəluhum fittovrati. Və məsəluhum fil-İncil kəzərin əxrəcə şətəhu fəazarəhu fəstəğləzə fəstəva əla suqihi yucibuz-zərraə liyəğizə bihimul kuffaru vəədəllahul-ləzinə amənu və əmilus-salihati minhum məğfirətən və əcrən əzimən".* (Fəth surəsi 29)

## ***"Bəqərə" surəsi***

### *(Fustatul Quran)*

Ayətəl kürsi.

1-Əli ibn Ubəyy Həmzə Əlbətaini Hüseyn ibn Ubəyy Əlaidən və oda Ubəyy Bəsirdən, o isə imam Cəfər Sadiqdən (ə) nəql edir. Həzrət buyurdu: Hər kəs Bəqərə və Ali-İmran surəsini oxusa, Qiyamət günü bu iki surə, iki bulud və yaxud iki əba (çuxa), ya da iki gölgə kimi onun üçün kölgə salacaqdır.

2-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v.) nəql edir ki, Həzrət belə buyurdu: Hər kəs bu surəni (Bəqərə) oxusa Alllahın rəhmət və salamı olsun. Ona Allah yolunda fədakarcasına keşik çəkən sərhədçilərin savabını verərlər. (İbn Kəb) yenədə deyir: Peyğəmbər (s.ə.v.v) mənə buyurdu: Ey Ubəyy müsəlmanlara de Bəqərə surəsini oxusunlar. Çünki, onu oxuyub öyrətmək bərəkətin nazil olmasına, və onu (oxumağı) tərk etmək həsrətə səbəb olar. Sehrkarların onu batil etməyə qüdrəti çatmaz. Səhl ib Səəd deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: hər kəs bir şey üçün qala vardır, Quranın qalası isə Bəqərə surəsidir. Bu surə gündüz hər bir evdə oxunsa, şeytan üç gün o evə daxil olmaz. Əgər onu gecələr oxusa, üç gecə o ev şeytanın oraya daxil olmasından amanda qalar. Rəvayət olunub ki, günlərin birində Rəsuli-Əkrəm (s.ə.v.v) bir dəstəni müəyyən olunmuş yerə göndərdi. Sonra isə özü onların arxasında getdi. Qurandan nə qədər əzbər etdiklərini onlardan birbə-bir soruşdu. Axırda növbə hamıdan azyaşlı olan bir cavana gəlib çatdı. O

Rəsuli-Əkrəmin (s.ə.v.v) sualının cavabında Quranın bir hissəsini və Bəqərə surəsini əzbər etdiyini bildirdi. Sonra Həzrət üzünü cəmiyyətə tutub dedi: İndi isə gedin və bu cavan sizin Əmrinizdir (başçınız). Onlar dedilər: Ya Rəsuləllah, o bizim hamımızdan uşaqdır! Həzrət buyurdu: Bəli elədir, lakin o Bəqərə surəsini əzbər bilir. Onlar yenədə Rəsuli-Əkrəmdən (s.ə.v.v) soruşdular. Quranın hansı surəsi o biri surələrdən əfzəldir? Həzrət buyurdu: Bəqərə surəsi.

3-İmam Səccad (ə) (Zeynul Abidin) Rəsuli-Əkrəmdən (s.ə.v.v) belə nəql edərək buyurmuşdur: Hər kəs Bəqərə surəsindən Ayətəl kürsünü və onun davamında iki ayəni və həmçinin Bəqərə surəsinin başqa yerindən üç ayəni oxusa, nə ona bir pislik yetişməz və nədə ki, Şeytan ona yaxınlaşa bilməz. ***"Allahu la ilahə illa huvəl həyyul qəyyum. La təxuzuhu sinətun vəla nəvm: Ləhu mafisissəmavati və maa fil-ərz. Mənzəlləzi yəşfəu indəhu illa biiznih. Yəələmu Mabəynə əydihim və ma xəlfəhum, vəla yuhitunə bişəyin min elmihi illa bimaşaə Vəsiə Kursiyyuhus-səmavati vələrz. Vəla yəuduhu hifzuhuma və huvəl Əliyyul Əzim 255 La ikrahə fiddini qəd təbəyyənərruşdu minəl ğəyy. Fəmən yəkfur bittağuti və yumin billahi fəqədistəmsəkə bilurvətil vusqa lən fisamə ləha, vəllahu Səmiun Əlim. 256. Allahu vəliyyulləzinə amənu yuxricuhum minəz-zulumati ilənnur. Vəlləzinə kəfəru əvliyauhumut-tağutu yuxricuhum mənən-nuri iləz-zulumat. Ulaikə Əshabun-narihum fiha xalidun. 257.***

4-İbrahim ibn Məhzum deyir bir kişi belə dedi: İmam Rzadan (ə) eşitdim ki, buyurdu: Hər kəs yatan zaman Bəqərə surəsini oxusa, Allahın iradəsi ilə o iflic xəstəliyinə giriftar olmaz. Əgər onu hər namazdan sonra bir kəs oxusa, heç bir ziyanverici ona ziyan vurmaz.

5-Əli ibn Hüseyn (ə) Allahın Rəsulundan (s.ə.v.v) hədis rəvayət edərək buyurdu: Hər kəs Bəqərə surəsindən dörd ayəni, “Ayətəl-kürsü”nü və onun ardınca iki ayəni və ondan sonra həmin surənin sonundan üç ayəni oxusa, o öz canında və

malında heç bir narahatlıq görməz, div ona yaxınlaşmaz, və Quranı unutmaz.

İmam Sadiq (ə) buyurdu: Əgər bir kəs bu *"Və iz cəllən bəytə məsabətən linnasi və əmənən vəttəxizu min məqami İbrahimə musəlla. Vəəhidina ila İbrahimə və İsmailə ən təhhirə bəyti littaifinə vəl akifinə və rukkəis-sucud.* (125) ayəni yatan zaman oxuya və Allahdan müəyyən bir vaxtda oyanmasını istəyə, bu əməl hasil olacaqdır.

Təcrübə yolu ilə sabit olmuşdur ki, hər kəs aşağıdakı ayəni üç dəfə oxusa, və onun əvvəlində və axırında Peyğəmbərə salavat göndərsə, ruzinin çoxalmasına və kilidlərin (düyünlərin) açılmasına səbəb olar. Ayə-"*Vəmən yəttəqillahə yəcəl ləhu məxrəcən. Və yərzuqhu min həysu la yəhtəsibu. Və mən yətəvəkkəl ələllahu Fəhuvə həsbuhu. İnnəllahə baliğu əmrihi qəd cəələllahu likulli şəyin qədrən.*" –Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bəqərə surəsini öyrənin! Çünki oxumaqlıq bərəkət, tərk etmək isə həsrət gətirər. Sehrkarlar bu surəyə yol tapa bilməzlər. Sonra Həzrət yenə buyurdu: Bu surəni oxuyan şəxsə Allahın rəhmət və salamı olsun.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Ya Əli (ə) bu ayə (ayələr) oxunan evin yanına ləənətlənmiş iblis üç gün yaxın gələ bilməz. Və yaxud qırx gecə-gündüz heç bir cadu o evə daxil olmaz. Sonra Həzrət yenə buyurdu: Ey Əli (ə) bu ayəni (Ayətəl kürsünü) övladlarına və qonşularına öyrət. Çünki bundan üstün ayə nazil olmamışdır.

Hər kəs ayəni ("Ayətəl-kürsü"nü) yatan zaman oxusa, Allah-taala onun ailəsini və ətrafında olan bir neçə qonşularını şeytanın şərrindən amanda saxlayar.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bir kəs evindən çıxanda bu ayəni ("Ayətəl-kürsü"nü) oxusa, evinə qayıdıb gələnə qədər onun bağışlanması üçün Allah-taala yetmiş min Mələyi məmur edər. Evinə gəlib çatdıqda isə, fəqirliyi ondan uzaqlaşdırar.

Əmr ibn Ubəy Əlmiqdam deyir: İmam Məhəmməd Baqirdən (ə) eşitdim belə buyurdu: "Ayətəl-kürsü"nü oxumaq

min ədəd dünyəvi pislikləri (çətinlikləri) və min ədəd üxrəvi (axirətdə) çətinlikləri aradan aparar ki, ən çətin şey dünyada fəqirlik, (kasıblıq) axirətdə ən dözülməz şey isə sıxıntısıdır.

Əbdullah Ubəyy Cəfər deyir: Mən elə bir dərdə mübtəla oldum ki, təbiblər onu əlac etməkdən aciz qaldılar. Bir gecə incik halda bu haqda fikirləşirdim ki, iki kişi mənim qarşımda dayanıb deyirlər: Bu kişi elə bir ayəni oxudu ki, onda üç yüz altımış beş (365) rəhmət vardır. İndi bu rəhmətdən biri o kişiyə şamil oldu. Mən yuxudan oyandım və özümün o dərddən nicat tapdığımı gördüm.

İsbəğ ibn Nəbatə bir hədisdə Əlidən (ə) belə nəql edir. Bir kişi o cənabın xidmətinə təşrif gətirdi (gəldi) və dedi: Mənim qarnıma sarı su yığılıb, görəsən mənim dərdimə şifa var? Həzrət buyurdu: Bəli dinar və dirhəm xərcləmədən. Söylədi axı necə? Həzrət buyurdu: "Ayətəl-kürsü"nü qarnına yaz, sonra onu yuyub suyunu iç. Allahın izni ilə şifa tapacaqsan.

Bu ayəni ("Ayətəl-kürsü"nü) on dəfə (14) xəstə adama oxusanız, inşa Allah şifa tapacaqdır.

Hər kəs günəş qurub edən (batanda) vaxt bu ayəni ("Ayətəl-kürsü"nü) qırx bir dəfə oxusa onun hacəti rəva olar (verərlər).

Özünüzün və nəslinizin bəlalardan sağ-salamat qalması üçün bu ayəni qırx (40) dəfə Əliyyul Əzimə kimi oxuyun (təcrübə olunub).

Böyük şəxsiyyətlərin yanında izzətli və hörmətli olmaqdan ötrü Ayətəl kürsünü üç dəfə oxuyub, əllərinin içinə pilə və üzünə çək.

Gözün nuru olmasından ötrü hər namazdan sonra əllərini gözlərinə qoyub, bir dəfə həmd surəsini və "Ayətəl-kürsü"nü oxusun. Sonra bu duanı desin. *"Uizu nurə bəsəri binurillahilləzi la yətfa."*

Bu surə və ayələrdə İsm Əzzəm (Allahın əzəmətli adları) çox gözə çarpır. O cümlədən, həmd, Tövhid, "Ayətəl-kürsü", Şəhidəllah, Qul allahummə, amənərrəsul, həşr surəsinin sonu və Bismillahir-rəhman-nirrəhim, onlardandır.

Deyirlər, Qurdların və çəyirtkələrin ziyan vurmasından ötrü "Ayətəl-kürsü"nü yazıb bağın dörd guşəsində basdırın.

Deyirlər ki, "Ayətəl-kürsü"nü üç dəfə suya oxusun, sonra üzünü o su ilə yusun, və iki rükət namaz qılsın. Hər rükətdə bir dəfə həmd surəsini və "Ayətəl-kürsü"nü oxusun. Hər mətləbi olmuş olsa, inşaallah hasil olar.

Deyirlər ki, hər kəs "Ayətəl-kürsü"nü oxuyub öz qoluna bağlasa hara getsə əziz və hörmətli olar.

Deyirlər ki, hər kəs "Ayətəl-kürsü"nü oxuyub şirin nara üfürüb, dörd aydan sonra onu hamilə qadına versəniz, onun uşağı oğlan olacaqdır.

Salman Farsi Allahın Rəsulundan (s.ə.v.v) bir hədisdə nəql edir ki, Həzrət belə buyurdu: Hər kəs "Ayətəl-kürsü"nü zəfəranla sağ əlinin içinə yazıb onun suyunu dili ilə yalasa, və bu işi yeddi dəfə təkrar etsə, heç vaxt bir şeyi unutmaz. Mələklərdə onun bağışlanmasını istəyərlər.

Deyirlər ki, müşkil və böyük çətinliklər üz verəndə, "Ayətəl-kürsü"nü on iki dəfə oxumaq faydalıdır.

-Allah-taala bir kəsə təzə paltar əta etsə (olsa), dəstəmaz alsın, iki rükət namazı həmd və "Ayətəl-kürsü", Qulhuvəllah və inna ənzəlna ilə oxusun. Sonra Allaha onun övrətini örtməsinə və xalq arasında onu zinətləndirdiyə xatir şükr etsin. Və bu sözləri, *"La həvlə və la quvvətə illa billahil Əliyyil əzim."* çoxlu təkrar etsin ki, günaha düçar olmasın. Onun bu əməlinə xatir hər sapın sayı qədər Mələk onun bağışlanmasını və rəhmətə şamil olmasını tələb edib, onun üçün həmd-səna edərlər.

Hər zaman bir kəsin gözü ağrısa, "Ayətəl-kürsü"nü düzgün etiqadla oxusun. İnşallah şifa tapar.

(Amənər-Rəsul):

1-Bəqərə surəsinin sonundakı ayələr həm Qurandır, həm dua və həmdə ki, Allahın razılığı. Bir hədisdə vardır ki, günlərin birində Allahın Rəsuluna (s.ə.v.v) dedilər: Sabit ibn Qeys Şəmasın evindən nur kimi bir çıraq (işıq) saçır. Həzrət buyurdu: O Bəqərə surəsini oxuyur. Ona (Sabitə) dedilər:

Gecələr sən sarayında (otaqında) nə oxuyursan? O dedi: Bəqərə surəsinin sonunu (Amənər-Rəsulu).

2-Hər kəs işa namazından sonra Bəqərə surəsinin sonundan iki ayəni (Amənər-rəsulu surənin sonuna kimi) oxusa, elə bil ki, bütün gecəni ehya saxlamışdır.

3-Hər kəs (Bəqərə surəsinin sonundan) iki ayəni oxusa, Şeytan üç gecə onun evinə yaxın gəlməz.

4-Deyirlər ki, əgər bir kəs Amənər-rəsul ayəsini pak bir qaba yaza, və onu şirin çayla yuya, sonra onu acqarına içsə, hafizəsi çox güclənəcəkdir.

## ***“Ali İmran” surəsi***

Ayrı bir nüsxədə: Übəyy ibn Kəb Peyğəmbərdən (s ə v v) nəql etmişdir ki, Həzrət buyurdu: Hər kəs Ali İmran surəsini oxusa, Allah-taala bu surənin hər ayəsinin müqabilində Cəhənnəm körpüsündən keçmək üçün amannamə (keçid vərəqəsi) əta edəcək.

İbn Abbas deyir: Rəsuli-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Ali-İmran surəsini cümə günü gün batançağına qədər oxusa, Allah və Mələkləri onun üçün salam göndərərlər. Burəydə deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Bəqərə və Ali-İmran surəsini öyrənin Çünki onların ikisi bir nurdur. Qiyamət günü onları bilən şəxs üçün bu surələr iki bulud, iki pərdə, yaxud iki cərgədən ibarət quşlar kimi kölgə salacaqdır.

Yuxudan oyandıqda öz ətrafınıza baxın və Ali-İmran surəsinin sonunu *"İnnə fi xəlqissəmavati-dən La təxliful miada kimi oxusanız çox faydalıdır."* (Ali-İmaran 190-194)

Əgər bu ayəni ağrıyan yerə (üzvə) oxusanız şifa tapar:

*-Bismillahir-rəhmanir-rəhim. "Rəbbəna la tuziğ qulubəna bəədə izhədəytəna və həblənа minlədunkə rəhmətən. İnnəkə əntəl vəhhab."*

İbn Məsud deyir: Allahın rəsulundan (s.ə.v.v) eşitdim ki, belə buyurdu: Hər kəs (aşağıdakı) bu ayəni oxusa, Allah

Qiyamət günündə ona buyurar: Ey bəndəm, mənim əhdimə vəfa etdin və əmanətimi yerinə yetirdin ki, o yeganəlik və tövhiddən ibarətdir, və məndə öz əhdinə vəfa edənlərin ən ləyaqətlisiyəm. Bəs ey mənim Mələklərim Behiştin qapılarını açın ki, o hansı qapıdan istəyirsə, daxil olsun. Ayə *"Şəhidəllahu ənnəhu la ilahə illa huvə vəlməlaikətu və ulul-elmi Ğaimən bilqisti-dən və tərzuqu məntəşau biğəyri hisab"-a kimi* (Ali İmran 18-27) .

Bir kəs evdən xaric olanda (çıxanda) Ali-İmran surəsinin axırıncı ayələrini, Qədr, həmd və "Ayətəl-kürsü"nü oxusa, dünyada və axirətdə hacətləri qəbul olunacaq.

Allah buyurur: *"Rəbbəna və atina ma və ədtəna"* surənin axırı kimi (194-cü ayədən 200-ci ayəyə qədər) Çünki Allah-taaladan vədə xilaf çıxmaq caiz deyil. Beləliklə *"Atina ma və ədtəna"*-dan məqsəd Allahın dərgahına zarıldayıb ağlamaq və Allahdan başqasından rabitəni kəsməkdir. Allahın buyurduğu bunun kimidir, *"Rəbbihkum bilhəqqi"* (Ənbiya-112)

Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət olunub ki, Allah hər bir kəsə savab vədəsi versə, əlbəttə ona vəfa edəcək, və hər kəsə əzab vədəsi versə, əgər istəsə, əzab verəcək, və əgər istəməsə əzab verməyəcək bu iş onun öz ixtiyarındadır. Həqiqətən Nəbiyyi-Əkrəm (s.ə.v.v) həmişə buyurardı: Hər kəs gecə bu ayələri (Ali İmran surəsinin axırını) oxusa, elə bilki, bütün gecəni ibadət etmişdir. Həzrəti Sadiqdən (ə) nəql olunub ki, hər kim üçün çətinlik qarşıya çıxsa, beş dəfə "rəbbəna" desin, haqq-taala onun müşkülünü həll edər. O həzrətdən soruşdurlar: Yəbnə Rəsullah bunun mənbəyi nədir? (haradandır.) Buyurdu ki, Allah-taala bu beş kələmənin (Ali İmran 194) *"Rəbbəna və atina, ma vəədtəna əla rusulik"* bərəkətinə görə mömінin duasını icabət (qəbul) edib buyurdu: *"Fəstəcabə ləhum rəbbuhum"* (Ali İmran 195)

Ali İmran surəsinin 25-ci ayəsində Allah-taala buyurur: *"Qulillahummə malikəl-mulki tutil mulkə mən təşau biğəyri hisab"*a qədər.

Yəni: "De İlahi! Ey hökumət maliki, hər kimə istəsən hökumət verirsən, və hər kimdən istəsən hökuməti alırsan və hər kəsə istəsən izzət verərsən, və hər kimi istəsən zəlil və xar edərsən, bütün yaxşılıqlar sənin əlindədir. Sən hər şeyə qadirsən"

İşlərin açılması və dövlətli olmaq üçün bu ayəni 350 dəfə oxusun. *"Qul innəl fəzlə biyədillahi yutihi mən yəşau, vəllahu vasiun əlim."* (Ali-İmran-73).

Allahın Rəsulundan (s.ə.v.v) rəvayət olunub ki, hər kəs cümə axşamı Ali İmran surəsini oxusa, Qiyamətdə ona iki qanad verərlər ki, ildırım surəti ilə sirat körpüsündən keçər.

İbn Abbas Həzrəti Rəsuldan (s.ə.v.v) rəvayət edir ki: Hər kəs cümə günü Ali-İmran surəsini oxusa, haqq-taala və Mələklər günəş batana qədər ona səlavat göndərərlər.

Həzrəti-Rəsul (s.ə.v.v) buyurub: Bəqərə və Ali-İmran surəsini öyrənin ki, işıq saçandırlar. Yəni bu iki surə nur verən və işıqlandırandırlar. Bu iki bulud parçası kimi başının üstündə kölgə salacaqlar.

Həzrət-Rəsuldan (s.ə.v.v) ayrı bir rəvayətdə nəql olunur ki, hər kəs cümə axşamı Ali-İmran surəsini oxusa, Qiyamət günü ona iki qanad verərlər ki, onun vasitəsilə sirat körpüsündən ildırım sürəti ilə keçər.

Başqa bir rəvayətdə nəql olunub ki, Məad Cəbəl rəvayət edir ki, tələbkarların borcunu tələb etməsinə görə bir cümə namazında iştirak edə bilmədim. Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyrurdu: Ey Məad! hansı şey səni cümə namazından saxladı? Dedim: Ey Rəsuləllah (s.ə.v.v) Yuhənna Yəhudinin neçə vəqyə (kilo) (rətlin on ikidə biri) buğdası mənim boyunumda qalmışdı və məni namaza gəlməyə qoymadı. Buyurdu: *"Qulillahummə malikəl mulkə tutil mulkəni biğəyri hisab"* ayəsinə qədər oxu və de: *"Ya rəhmanud-dunya vəl axirəti və rəhməhuma naqizun ənni dinni."*

Hər kəs bu ayəni qeyd olunan dua ilə oxusa, əgər onun yer kürəsi qədər borcu olmuş olsa, haqq-taala onu əta edər. (***La həvla və la qüvvətə illa billah***).

## *“Nisa” surəsi*

1-Zərr ibn Cəbiş deyir: Əmirəlmöminin (ə) buyurdu: Hər kəs Cümə günləri Nisa surəsini oxusa qəbir sıxıntısından amanda qalacaqdır?

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən nəql edib ki, o Həzrət buyurdu: Hər kəs bu surəni (Nisa surəsini) oxusa, elə bil ki, özündən sonra gələn hər bir mömünə miras sədəqə vermişdir, və onun əcri bir bəndəni (qulu) alıb azad edən şəxsin əcri qədərdir. O şirkdən uzaq olar, və Allahın nəzərində xətasına göz yumulmuş kəslərdəndir.

Ömər ibn Xəttabdan (Raşidin xəlifələrindən rəvayət olunub. O deyib: Bəqərə, Maidə, Həcc, Nur, surələrini öyrənin çünki fərizələr və vacibatlar bu surələrdədir. Əyyaşi (qabaqkı hədisi) Əmirəlmöminindən də nəql edib.

Əgər bir şəxs bir şəhərdə yaxud kənddə ürəyi sıxıla və darıxa, və o məhəllədən çıxmağı bacarmaya, o dərəcədə ki, heç cür oradan çıxa bilməsə, bu ayəni oxusa, əlbəttə bu ayə onun tezliklə o məhəllədən xaric olmasına səbəb olar. *"Rəbbəna əxricna min hazihil qəryətiz-zalimi əhluha, vəcəl-ləna minlədunkə vəliyyən, vəcəl-ləna min lədunkə nəsirən."* (Nisa surəsi 75).

Hər zaman müəyyən məkanda bir şey itə, bu ayəni yazıb, yağış suyu ilə yusun, və sudan həmin yerə səpsin, əgər Allah istəsə o şey tapılar. *"İnnallahə yəmurukum ən tuəddul-əmanati ila əhliha. Və iza həkəmtum bəynən-nasi ən təhkumu bilədl. İnnəllahə kanə səmiən bəsirən"* (Nisa surəsi-58)

Çox danışanın sakitləşməsinə xatir, bu ayəni yazıb, ona bağlasanız, az danışar. *"La yuhibbullahul cəhrə bissui, minəl*

*qəvli illa mən zulimə, və kanəllahu səmiiən əlimmən"*. (Nisa surəsi 148).

Allah-taala buyurur: *"La yuhibbul-lahil cəhrə bissui minəl qəvli illa mən zulimə və kanəllahu səmiiən əliimən"*. Yəni "Allah bir kəsin öz sözləri ilə başqasının pisliklərinin izhar olunmasını (açıqlanmasını) sevmir, məgər ki, o kəs zülmə məruz qalmış ola Allah eşidən və biləndir."

Bu ayəni çox danışan, xudbin və təkəbbürlü, öz danışığı ilə məğrur olan adamın müqabilində, (göz qabağında) yazmaq lazımdır. Əgər onun sakitləşməsini istəsən, bunu oxusan, az danışacaqdır. Və əgər bir kəs bu ayəni ceyran dərisinə yazsa, və özü ilə saxlasa, zalım yaxud Cabbar hakimin yanına getsə, ondan qorxarlar. Bu ayəni təkrar-təkrar oxusan cabbar (təkəbürlü) hakimin şərrindən amanda qalar, və ona heç bir zərər dəyməz.

Əgər bu ayəni müşk, zəfəran, və gülabla yazıb yağış suyu ilə yuyub, onu hakimin üstünə səpsən, ədaləti rəayət edib, doğuruluğa hökm edər.

Bu ayəni, paltarın bir parçasına (yaxasına), yazsınlar, o paltarı cümə axşamı kəsmək, və sonra onu acı dil arvadın evinin astanasında basdırmaq lazımdır. İnşaallah onun dili qısalar.

****

## ***“Maidə” surəsi***

### *(Uqudul munizə)*

1-Əbul Carud Həzrət Bağırdən (ə) nəql edir ki, imam buyurdu: Hər kəs Maidə surəsini cümə axşamı oxusa, imanı zülmlə qarışmaz və heç vaxt Allaha şərik qərar verməz.

2-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, hər kəs Maidə surəsini oxusa, Allah-taala yer üzünündəki bütün xiristianlar və yəhudilərin sayı qədər, ona muzd verər. Onun üçün on həsənə (savab) yazırlar, nameyi-əməlindən on

günahı məhv olar, və on dərəcə yüksəyə qalxar. Əyyaşi öz mənbəsinə əsaslanaraq Əlidən (ə) nəql edib ki, Quranın bəzi ayələri bəzilərini nəsx (batil) edirdi. Onun icrası Peyğəmbərin əmri ilə idi, o vaxta qədər ki, Maidə surəsi nazil oldu və qabaqkı hökmlə bağlı olan ayələri nəsx etdi ancaq onun özündən bir şey nəsx olmadı. Bu surə nazil olan zaman Peyğəmbər bir qatıra minmişdi. Vəhyin ağırlığı o dərəcədə idi ki, qatırı hərəkət etməkdən saxladı və çox çəkmədi ki, onu yerə çökdürdü. Peyğəmbər elə bir hala düşdü ki, əlini Şeybət ibn Vəhəbin başına qoydu özünə gələnədən sonra Maidə surəsini bizə oxudu və biz hamımız ona əməl etdik.

Həmçinin əbi Həmzə Sumalidən nəql olunub ki, Maidə surəsi bütövlükdə, kamil surətdə nazil olunub, və onunla Maidə surəsi ilə birlikdə yetmiş min mələk yerə gəldilər.

Hər kəs sübh vaxtı bir söz danışmamışdan qabaq bu ayəni üç dəfə oxusa, həmin gün güman etmədiyi qədər ruzisi çoxalar. *"Bismillahir-rəhmanir-rəhim. Rəbbəna ənzil ələyna Maidətən Minnəs-səmai, təkunu ləna iydən liəvvəlina və axirina və ayətən minkə. Vərzuqna və əntə xəyrurraziqin. "* (Maidə surəsi-114)

-Birinci gün sübh namazını qıldıqdan sonra dəstəmazlı halda iki rükət hacət namazı qılsın. Bu əməli qırx gün üzünü qibləyə tutub yüz dəfə salavat göndərsin və aşağıdakı ayəni (Maidə surəsi-114) əlli dəfə oxusun. Bu ayəni oxuduğu müddətdə heç kəslə danışmasın, işlərin fəth olunmasında bunun çoxlu təsiri vardır və təcrübə olunmuşdur. Amma ayənin məzmunu: *"Rəbbəna ənzil ələyna Maidətən minəs-səmai, təkunu ləna iydən liəvvəlina və axirina və ayətən minkə. Vərzuqna və əntə xəyrurraziqin"* (Maidə-114)

-Hər kəs sübh yuxusundan ayıldıqdan, və heç bir söz danışmamışdan əvvəl aşağıdakı ayəni üç dəfə oxusa, o gündə onun ruzisi güman etmədiyi yerdən gələr. Ayə: *"Bismillahir-rəhmanir-rəhim. Rəbbəna ənzil ələyna Maidətən minəs-səmai,*

*təkunu ləna iydən liəvvəlina və axirina və ayətən minkə. Vərzuqna və əntə xəyrur-raziqin."*

****

## *“Ənam” surəsi.*

-1-İbn Abbas deyir: Ənam surəsini hər gecə oxuyan kəs Qiyamət günündə amanda olanlardan olacaq. Heç vaxt Cəhənnəm odunu öz gözləri ilə görməyəcək. Həzrət Sadiq (ə) buyurub: Ənam surəsi bütövlükdə yetmiş min Mələyin müşayiəti ilə bir dəfədə Məhəmmədə (s.ə.v.v) nazil oldu. Bu surədə Allahın əzəmətli adları yetmiş yerdə gəldiyi üçün onu böyük sanıb, ehtiram edin.

-Xalq bu surələrdə olan faydaları bilsəydilər, onu oxumağı tərk etməzdilər.

-2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət etmişdir. Həzrət buyurdu: Ənam surəsi bütövlükdə mənə nazil oldu. Yetmiş min Mələk həmd və təsbih səsləri ilə onu müşayiət edirdilər. Hər kəs bu surəni oxusa, həmin yetmiş min mələk bir gecə-gündüz ərzində surədəki ayələrin sayı qədər ona salavat göndərərlər.

-Həmçinin Cabir ibn Ənsari Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, o Həzrət belə buyurdu: Hər kəs Ənam surəsinin əvvəldəki üç ayəsini *"Bismillahir-rəhmanir-rəhim. Əlhəmdu lillahil-ləzi xələqəs-səmavati vəl-ərzə, və cəələz-zulumati vən-nurə, summəl-ləzinə kəfəru birəbbihim yədilun. Huvəl-ləzi xələqəkum min tinin, summə Qəza əcələn və əcəlun musəmmən indəhu, summə əntum təmtərun. Vəhuvəllahu fissəmavati və filərzi yəələmu sirrəkum və cəhrəkum, və yələmu ma təksibun."* (Ənam-3) oxusa, Allah qırx min mələyi Qiyamət gününə qədər onun üçün vəkil edər ki, bu əməlini də ibadəti kimi yazsınlar. Sonra göyün yeddinci təbəqəsindən əlində dəmir əsalı bir mələk nazil olar, hər zaman Şeytan onun qəlbində vəsvəsə icad

etmək istəsə, (törətsə) əlindəki əsa ilə onun kəlləsinə zərbə endirər.

Əyyaşi öz sənədlərinə əsaslanaraq Əbi Bəsirdən rəvayət edir ki, imam Sadiq (ə) belə buyurdu: Ənam surəsi bütövlükdə bir dəfədə nazil oldu. Allahın mübarək adı bu surədə yetmiş dəfə zikr olunduğu üçün yetmiş min Mələk böyük ehtiramla onu müşayiət edirdilər. Əgər insanlar onun oxunmasında nə qədər fəzilət olduğunu bilsəydilər, onu tərk etməzdilər. Həzrət sonra buyurdu: Hər kəs Allaha hacəti varsa, və onun qəbul olunmasını istəyirsə, dörd rükət namaz fatihə və Ənam surəsi ilə oxusun. Namazı qılıb qurtardıqdan sonra, bu duanı oxusun. *"Ya kərimu ya kərimu ya kərim. Ya əzimu ya əzimu ya əzim ya əzimu min kulli Əzim. Ya səmiud-dua. Ya mən la tuğəyyiruhul-ləyali vəl-əyyam. Səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərhəm zəfi və fəqri və fəqati və məskənəti. Ya mən rəhiməsi-şəyxəy-Yəqub hinə rüddə ələyhi Yusifə qurrətə əynihi. Ya mən rəhimə Əyyubə bəədə tuli bəlaihi. Ya mən rəhimə Muhəmmədən və minəl yətimi avahu və nəsruhu əla cəbabirətə Qurəyşin və təvağitiha və əmkənəhu minhum. Ya muğis ya muğis ya muğis"* And olsun Allaha! Əgər bu duanı oxusan və Allahdan bütün hacətlərini istəsən, sənə əta edəcək. Əli ibn İbrahimdən nəql olunub ki, Həzrət Rza (ə) belə buyurdu: Ənam surəsi bütövlükdə nazil oldu və onu yetmiş min mələk təsbih, (sübhənəllah) təhlim (la ilahə illəllah) təkbir (Allahu əkbər) səsləri ilə müşayiət etdilər. Hər kəs bu surəni oxusa, Qiyamət gününə kimi mələklər ona təsbih deyərlər. Əbu Saleh nəql edib ki, ibn Abbas belə deyirdi: Hər gecə Ənam surəsini oxuyan kəs, Qiyamətdə amanda qalmış insanlardandır və heç vaxt (Cəhənnəm) odunu öz gözü ilə görməyəcəkdir.

-Cabir ibn Ənsari nəql edir ki, Allahın Rəsulu (s.ə.v.v) belə buyurdu: Hər kəs bu surəni *"Və yəələmu ma təksibun"* üçüncü ayəyə qədər oxusa, Allah-taala min mələyi onu (surəni) oxuyanı qorumaq üçün vəkil (məmur) edər ki, Qiyamət gününə kimi onun əməllərini yazsınlar.

-Hər kəs bu surəni yazıb onu yuyub yeddi gün ardıcıl suyunu içsə, Allah ona rəhm edər.

-Bütün xəstəliklərdən şifa tapmaq məqsədilə bu surəni yazıb özünüzdə saxlayın.

-Əlin və böyrün ağrısını sakitləşdiməkdən ötrü bu ayəni yazıb özünüzdə saxlayın. *"Və inyəmsəskəllahu bizurrin fəla kaşifə əla kulli şəyin qədir. Və huvəl Qahiru fəvqə ibadihi. və huvəl həkimul xəbir."* (Ənam-18)

-Təcrübə olunmuş və çox təsirli bir xətmdir: Cümə axşamı ya cümə günü (gecə yaxud gündüz) üzünü qibləyə tutub Fatihə surəsini, və sonra Ənam surəsini. *"Mislə ma utiyə rusulullah"* 124-cü ayəyə qədər oxusun. Sonra qalxıb iki rükət (hacət) namazı qılsın. Hər rükətdə yeddi dəfə "Ayətəl-kürsü"nü və yeddi dəfə Kövsər surəsini oxusun. Namazı qılıb qurtardıqdan Ənam surəsinin 124-ci ayəsindən başlayıb *"Allahu ələmu həysu yəcəlu risalətəhu"* surənin sonuna qədər oxusun. Sonra başını səcdəyə qoyub yetmiş dəfə ***"La ilahə illəllah. Muhəmmədun Rəsullah."*** Yalvarmaqla Allah-taaladan öz hacətini istəsin ki, hacətin qayıtması qeyri mümkündür.

Yaşadığımız müddətdə bu xətmi bir dəfə oxuyun.

-Deyirlər ki, bu ayəni qalay vərəqə yazıb öz dükan ya mənzilinizin qapısından asın, çoxlu xeyir və bərəkət gətirər. Ayə: *"Və indəhu məfatihul ğəybi layəələmuha illa huvə. Və yəələmu ma filbərri vəlbəhri. Və-ma təqsutu min vərəqin illa yəələmuha, və la həbbətin və yabisin illa fikitabin mubin."* (Ənam –59)

-Deyirlər ki, hafizəni gücləndirmək üçün bu ayəni yumurtaya yazıb onu yeyin. Ayə: *"Və huvəl Qahiru fəvqə ibadihi və yursilu ələykum həfəzətən hətta iza caə əhədukumul məvtu təvəffəthu rusuluna vəhum la yufərritun."* (Ənam 61)

-Deyirlər ki, barışmaq üçün bu ayəni o kəsin sifətinə üç dəfə oxusun, əlbəttə barışar, və üzr də istəyər. Ayə: *"Və təmmət kəlimətu rəbbikə sidqən və ədlən, la mubəddilə likəlimatihi, Və huvəs-səmiul əlim."* (Ənam-115)

-Deyirlər ki, əgər bir kəs bu ayəni qadınlar üçün yazsa, və qadın onu yağla yesə, itaət edən, sözə qulaq asan olar.

Ayə: *"Və minəl ənami humulətən və fərşən kulu mimma rəzəqəkumullahu vəla təttəbiu xutuvatiş-şeytani innəhu ləkum əduvvun mubin."* (Ənam).

-Əli əliyhissalamdan olunan rəvayətə görə 115-ci ayədir: *"Və təmmət kəlimətu rəbbikə sidqən və ədlən, la mubəddilə likəlimatihi, Və huvəs-səmiul əlim."*

-Bu ayənin çoxlu xususiyyəti vardır. Onlardan biri də budur ki; ayəni muqəttəə hərifləri ilə (hərif-hərif) yazsın və onu elə büksün ki, ağ tərəfi içəri, yazıları üzərində qalsın. Sonra onu mumyalayıb, ağzına qoysun. Hər kəslə danışsa, sözündən çıxmaz və istədiyi hasil olar.

-Deyirlər ki, bu ayəni yatan zaman oxusan, və Allahdan gecənin müəyyən vaxtında oyanmağını istəsə oyanar.

Ayə: *"Və iz cəəlnəl bəytə məsabətən linnasi və əmnən vəttəxizu min məqami İbrahimə musəlla, və əhidina ila İbrahimə və İsmailə ən təhhirə bəyti littaifinə vəlakifinə vərrukkəis-sucud.* (Bəqərə-125).

-Deyirlər ki, hər kəs çərşənbə günü bu ayəni yetmiş dəfə oxusa, elm ə qələm əhlini ötüb keçər və onun üçün qələbələr hasil hacətləri qəbul olar.

Ayə: *"Huvəllahul-ləzi la ilahə illa huvə, alimil ğəybi və şşəhadəti huvər-rəhmanur-rəhim."* (Həşr-22).

## ***“Əraf” surəsi***

***(əl-Məss)***

-1-Əbi Bəsirdən rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurub: Əraf surəsini hər ayda bir dəfə oxuyan şəxs, Qiyamətdə o kəslərdən olacaqdır ki, Allah-taala buyurur: Onlar qorxmazdır və qəmli olmazlar. Bu surəni həftədə bir dəfə oxusa, hesab kitabı asan tutulan insanlarla bir yerdə olacaqdır. Həmçinin möhkəmatın (aşkar dəlalət edən, başqa mənada

olmayan ayələr) biri bu sərədədir. Belə isə onu oxumağı tərk etməyin. Çünki, Qiyamət günündə onu oxuyan şəxsə şəhadət verəcəkdir.

-2-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən rəvayət etmişdir ki, Allah-taala Əraf surəsini oxuyan şəxmlə-şeytan arasında bir pərdə qərar verər və Qiyamət günündə Həzrəti Adəm (ə) ona şəfaətçi olar.

-Hər kəs bu surəni yazıb özündə saxlasa düşməndən amanda qalar və heç vaxt gümrah (yolunu azmaz) olmaz.

-Hər kəs aşağıdakı ayəni oxuyub, az yatmasını Allahdan istəyə həqiqətən istədiyinə nail olar., və həmçinin Şeytandan qorxanda bu ayələri oxuyun.

Ayə: *"İnnə rəbbukumullahul-ləzi xələqəsəmavati vələrzə fi sittəti əyyamin sümməstəva ələl ərşi yuğşilləylən-nəharə yətlubuhu həsisən vəşşəmsə vəlqəmərə vənnucumə müsəxxəratin biəmrihi, əla ləhul xəlqu vələmru təbarəkəllahu rəbbul aləmin (54) Udu rəbbəkum təzərruən və xufyətən, İnnəhu la yuhibbul mutədin (54). Vəla tufsidu fil-ərzi bəədə islahiha vəduhu xəvfən vətəməən, İnnə rəhmətəllahi qəribun minəl muhsinin"* (Əraf 56).

[Bu ayələr səxrə ayələri adı ilə də tanınmışdır].

Yuxu sənə qələbə etməsiş deyə, bu ayəni suya oxu və sonra bəninini onunla yu: Ayə: *"Vələmma caə Musa limiqatina və kəlləməhu rəbbuhu qalə rəbbi ərini ənzur iləykə. Qalə lən tərani vəlakinin zur iləl cəbəli cəələhu dəkkən və xərrə Musa səiqən. Fələmma əfaqə Qalə subhanəkə tubtu iləykə və ənə əvvəlul muminin.* (Əraf-143)

********

## ***“Ənfal” və “Tövbə” surələri***

***(Fazihə, əzabul cus və………)***

-1-Əbi Bəsir rəvayət edir ki, İmam Sadiq (ə) belə buyurur: Ənfal və tövbə surəsini ayda bir dəfə oxuyan şəxsin qəlbində nifaq olmaz və o Əmirəlmöminin Əlinin(ə) şiələrindən olar.

-2-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edir ki: Hər kəs Ənfal və Bəraət (Tövbə) surəsini oxusa, Qiyamət günündə ona şəfaət, şəhadət verərəm. O nifaqdan uzaqdır. Dünyadakı münafiqlərin sayı qədər ona həsənə (savab) verilər. Onun on günahı götürülər (silinər) on dərəcə onun dərəcələrinə artırılar.

Ərş və rəşi həml edənlər yaşadığı müddətdə onun üçün rəhmət tələb edərlər. Qiyamət günü xalqın hesabı qurtarana kimi Behişt süfrələrindən (yeməklərindən) yeyər.

3-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, Həzrət belə buyurdu: Ənfal və Bəraət surəsini oxuyan şəxsə şəfaətçi olacağam…. Hədisin sonuna qədər ki, onu Ənfal surəsinin başlanğıcında qeyd etdik. İmam Sadiq (ə) buyurdu: Ənfal və Bəraət ikisi bir surədir. Bu mətləb həmçinin Səid ibn Musəyybdən də rəvayət olunub. Səələbi özünün söylədiyi sənədlər (hədislərə) əsalanaraq Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, Həzrət belə buyurdu: Quran ayə-ayə hərif-hərif nazil oldu, amma Bəraət və Qulhuvəllahu əhəd surəsi yetmiş cərgə mələklərlə bütövlükdə mənə nazil oldu. Onların (surələrin) hər biri deyirdilər: Ey Muhəmməd (s.ə.v.v) Allaha yaxınlaşmaq barəsində yaxşılığa sifariş et.

Aşağıda zikr edilən ayədə yeddi xüsusiyyət vardır: 1-İzzət; 2-Rəfət (ucalıq); 3-Vüsət; (bolluq), 4-Nemət və hikmət (böyüklük), 5-Məəhəbbət, 6-Qüvvət, 7-Qüdrət. Onu 66-dəfə ya 48-dəfə təkrar edin. Ayə: *"Həsbuyəllahu la ilahə illa huvə ələyhi təvəkkəltu və huvə rəbbul ərşil-əzim."*(Tövbə-129)

Vəsvəsəni, narahatlığı, və pis güman (sui zənn) rəf etmək (uzaqlaşdırmaq) üçün bu ayələri oxuyub özündə saxla.

Ayə: *"Və iza Qərəatəl Quranə cəəlna bəynəkə və bəynəl-ləzinə la yuminunə bilaxirəti hicabən məsturən. (45) Vəcəəlna*

*əla qulubihim vəqrən, və iza zəkrətə rəbbəkə fil Qurani vəhdəhu vəlləvə əla ədbarihim nufurən"* (İsra-46)

*"Fəin təvəlləv fəqul həsbiyəllahu la ilahə illa huvə ələyhi təvəkkəltu və huvə rəbbul ərşim əzim.* (Tövbə-129)."

## ***“Yunus” surəsi***

1-Fəzl ibn Rəssan nəql edib ki, imam Sadiq (ə) belə buyurub: Yunus surəsini hər iki ya üç ayda bir dəfə oxuyan şəxsin cahil və nadan olmasından qorxusu olmaz. O Qiyamətdə Allahın dərgahına yaxın şəxslərdən olacaqdır.

2-Ubəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, Həzrət belə buyurdu: Hər kəs bu surəni oxusa, Allah-taala ona, Yunusu (ə) təsdiq edənlərin, və yaxud onu təkzib edənlərin, və Fironla birlikdə qərq olanların boğulan sayı qədər on həsənə (savab) əta edər.

*****

## ***“Hud” surəsi***

1-Fərvə Aciri Həzrət Baqirdən (ə) rəvayət edir ki, Həzrət buyurdu: Hər kəs həftədə bir dəfə Hud surəsini oxusa, Allah-taala Qiyamətdə onu Peyğəmbərlərlə birlikdə gətirər. O gün dünyada aludə olduğu günahları onun üçün yazmazlar.

2-Ubəyy ibn Kəb Allahın Rəsulundan (s.ə.v.v) rəvayət edib ki, Həzrət belə buyurdu: Hər kəs bu surəni oxusa, Həzrəti Nuha, Huda, Salehə, Şüeybə, Luta, İbrahimə və Musaya iman gətirənlərin yaxud onları təkzib edənlərin sayı qədər, ona on həsənə (savab) əta olunar. Qiyamət günü xoşbəxtlərdən olacaq. Səələbi öz sənədinə əsaslanaraq əbi Cuhəyfədən hədis nəql edib ki, Allahın Rəsuluna (s.ə.v.v) belə müraciət etdik. Qocalıq sizdə təsir qoymuşdur? Həzrət buyurdu: Bəli Hud və onun kimi surələr məni qocaltdı. Başqa bir rəvayətdə Əbubəkr də bu sözü Həzrətdən soruşmuşdu. Həzrət isə onun cavabında

buyurmuşdu: Hud və onun kimi surələr, yəni "haqqə", "Vəqiə", "Əmmə yətəsaəlun" və "həl ətakə hədisul caşiyə" məni qocaltdı.

İmam Muhəmməd Baqir (ə) buyurdu: Hər kəs cümə günü bu surəni oxusa, Allah-taala onu Qiyamətdə Peyğəmbərlərlə məhşur edər, və onun hesabını asan edər ki, bir kəs onun günahından xəbərdar olmaz.

Hər kəs hacət üçün Hud surəsini on üç dəfə oxu.

Aşağıdakı ayəni yazıb maşına bağlasan, hər cür xətər və təhlükədən qorunarsan. Ayə: "Və qalərkəbu fiha bismillahi məcraha və mursaha innə rəbbi ləğəfurun rəhim" (Hud-41)

## ***“Yusif” surəsi***

***(Əhsənul qəsəs)***

1-Əbi Bəsirdən nəql olunub ki, imam Sadiq (ə) belə buyurdu: Yusif surəsini hər gündə yaxud hər gecədə bir dəfə oxuyan şəxsi, Allah-taala Qiyamətdə Qari (qiraətçi, (Quranı gözəl səslə oxuyan ) kimi gətirəcək. Cəmala gözəlliyi Yusifin (ə) cəmal və gözəlliyi kimi, o gün (Qiyamətdə) qorxu onu bürüməz, Allahın doğru-düzgün bəndəlrindən olar. Sonra Həzrət yenə də buyurdu: Bu surə tövratda da zikr olunub.Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Öz qullarınıza Yusif surəsini öyrədin. Çünki hər bir müsələman bu surəni oxusa, ailəsinə və qullarına öyrətsə, Allah-taala ölümün çətinliklərini onun üçün asanlaşdırar, və ona elə qüvvə verər ki, heç bir müsəlmana qarşı həsəd etməz.

2-İsmail ibn Ziyad imam Sadiqdən (ə) o da, atalarından və Allahın Rəsulundan (s.ə.v.v) rəvayət edib ki, Həzrət belə buyurdu: Həyat yoldaşlarınıza yuxarı təbəqədə otaq verməyin və həmçinin Yusif surəsini yazmağı onlara öyrətməyin. Əvəzində onlara toxuculuq və nur surəsini yazıb, üç gün evdə

saxlayıb sonra onu evin kənarında dəfn etsə, məmləkətin padşahının yanında əziz olar.

## ***“Rəd” surəsi***

1-Hüseyn ibn Əbil Əladan rəvayət olunub ki, imam Sadiq (ə) buyurdu: Hər kəs Rəd surəsini çox oxusa, hərçənd Əhli-beytin düşmənlərindən olsa belə Allah onu dünyada ildırım vurmaqla həlak etməz. Əgər şiə qarilərindən (Quran oxuyanları) olsa, Allah onu hesab-kitabsız Behiştə daxil edər, ailəsinin mömin qardaşlarının və dostlarının barəsində etdiyi şəfaəti qəbul olunar.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, hər kəs Rəd surəsini oxusa ona on savab əta olunar ki, xilqətin (yaranışın) əvvələrindən Qiyamət gününə kimi yaranan buludlarla eyni səviyyədə olar. Qiyamət günündə o kəslərdəndirlər ki, onlar öz əhdlərinə vəfa etmişlər.

Şeyx Bəhaidən nəql olunub ki, qadınların hamilə olması üçün bu ayəni *"Vələv ənnə Quranən suyyirətbihil cibalu, əv quttiət bihil ərzu, əv kullimə bihil məvta, bəllillahil əmru cəmiən."* (Rəd 31).

Muqəttəə hərifləri ilə yazıb (vav, lam, vav, əlif, nun, qaf, ra, əlif, nun, əyn…) həyat yoldaşının böyrünə bağlasan, hamilə olar. (O dedi: bunu 900 qadına bu nüsxəni yazdım hamısı hamilə oldular).

## ***“İbrahim” və “Hicr” surələri***

1-Ənbə ibn Məsəbdən rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: hər kəs Həftədə bir dəfə namazının birinci və ikinci rükətində İbrahim və hicr surəsini oxusa, yoxsul ehtiyaclı dəli olmayıb, başqa bəlalara da giriftar olmaz.

2-İbn Əbi Kəb deyir ki, Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs İbrahim və hicr surəsini oxusa, bütləri sitayiş edənlərin və sitayiş etməyənlərin sayı qədər ona on savab verilər.

3-Übəyy ibn Kəb başqa bir rəvayətdə Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) belə nəql edib. Hər kəs Hicr surəsini oxusa Allah ona mühacir və Ənsarın və Məhəmmədi (s.ə.v.v) məsxərə edənlərin sayı qədər on həsənə (savab) verəcək

Deyirlər ki, hafizənin güclənməsinə xatir aşağıdakı ayəni qırx bir dəfə quru incilə oxuyub, gündə neçə ədəd ondan yesin. Ayə: *"İnna nəhnu nəzzəlnəz-zikr və inna ləhu ləhafizun."* (Hicr-9)

## *“Nəhl” surəsi*

1-Məhəmməd ibn Müslümdən rəvayət olunub ki, imam Baqir (ə) belə buyurdu: Hər kəs ayda bir dəfə Nəhl surəsini oxusa, dünyada mal-dövlətinə ziyan dəyməz, və həmçinin yetmiş cür bəladan ki, onların ən yüngülü dəlilik, cozam, pisixdən amanda qalar. Axirət onun məskəni (mənzili) ədn Behiştin ortasıdır.

2-Həzrəti Rəsul (s.ə.v.v) buyurdu: Hər kəs Nəhl surəsini oxusa, uca məqamlı Allah ona verdiyi nemətlərini hesab etməz ölüb özündən sonra vəsiyyət etmiş şəxsin əcrini alar, əgər o həmin gün vəfat etsə, ölən zaman yaxşı şeylərə vəsiyyət etmiş kəsdən neçə bərabər çox olar

Əgər bir qadın südünün çoxalmasını istəyirsə, bu ayəni yazıb suyunu içsə, südü çoxalar.

Ayə: *"Və innə ləkum filənami ləibrətən nusqikum mimma fibutunihi min bəyni fərsin və dəmin ləbənən xalisən saicən lişşaribin."* (Nəhl-66)

Bir kəsin hafizəsi zəif olsa, və hər şeyi eşidib tez bir zamanda öyrənib, yaddan çıxmamasını istəyirsə, duşənbə (birinci gün) günündən başlayıb, bu ayələri yeddi tikə quru çörəyə yazsın və gündə birini yesin.

Birinci gün: Duşənbə: *"Fətaalal-lahul məlikul həqqul mubin."*

İkinci gün: Seşənbə: *"Rəbbi zidni ilmən."* (Taha 114)

Üçünci gün: Cahar şənbə: *"Sənuqriukə fəla tənsa."* (Əla-6)

Dördüncü gün: Pəncənşəbə: *"İnnəhu yəələmul cəhrə vəma yəxfa." (*Əla-7)

Beşinci gün: Cümə: *"La tuhərrik bihi lisanəkə litəcələ bihi."* (Qiyamət-16)

Altıncı gün: Şənbə: *"İnnə ələyna cəməhu və Quranəhu."* (Qiyamət-17)

Yeddinci gün: Yekşənbə: *"Fəiza Qərənahu fəttəbi Quranəhu."* (Qiyamət-18)

## ***"İsra" surəsi***

**(Bəni İsrail)**

1-Hüseyn ibn Əbil Əladan rəvayət olunub ki, imam Cəfər (ə) belə buyurdu: Bir kəs Bəni İsrail surəsini hər cümə axşamı oxusa imam Zamanın dövrünü dərk etməmiş ölməz, və o Həzrətin dostlarından olar.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, Həzrət belə buyurdu: Bəni İsrail surəsini oxuyarkən ata və ana barəsində olan ayəni oxuyan kəsin ürəyi yumşalsa, Behiştdə ona 2400 peymanə (qab) bərabərində əcr veriləcəkdir ki, hər bir peymanə bütün dünya nemətlərindən üstündür. Ayə: *"Və Qəza rəbbukə əlla təəbudu illa iyyahu vəbil validəyni ihsanən, imma yəbluğənnə indəkəl kibərə əhəduhuma əv kilahuma fəla təqulləhuma uffin, vəla tənhərhuma və qul-ləhuma qəvlən kərimən."* (İsra-23)

Hər bir çətinliyi olan kəs bu ayəni yeddi dəfə ardıcıl oxusa, müşkülü həll olar.

Uşaq gec dil danışanda, bu surəni müşk və zəfərənla yazıb yuyun. Sonra onu uşağa içirsəniz, dili açılar.

******

## ***“Kəhf” surəsi***

1-Əhməd ibn Hilal, İsa ibn Əbdullahdan, o da atasından, o isə Əmirəlmöminindən (ə) rəvayət edir ki, Həzrət belə buyurdu: "Bu ayəni *"Qul innəma ənə bəşərun mislikum yuha iləyyə innəma ilahukum ilahun vahidun, Fəmən kanə yərcu liqasə rəbbihi fəlyəməl əmələn salihən vəla yuşrik biibadəti rəbbihi əhədən."* (Kəhf-110) Oxuyan şəxs üçün öz evindən Kəbə evinə qədər və əgər hərəm əhlindən (Məkkəli) olmuş olsa, onun üçün Beytül Müqəddəsə qədər məsafədə nur çəkilər.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, bu surəni oxuyan kəs səkkiz gün bütün fitnələrdən asudə (rahat) olar. Əgər bu səkkiz gün ərzində Dəccal belə zühur etsə Allah yenə də onu onun fitnəsindən qoruyacaqdır. Hər kəs yatağına girən zaman bu ayəni (Kəhf-110) *"Qul innəma ənə bəşərun mislukum"…* oxusa, onun yatağından Kəbəyə tərəf nur saçar, və onun ətrafındakı Mələklər Allahın dərgahından onun üçün yuxudan oyana qədər rəhmət tələb edərlər. Əgər Məkkəli bir kəs bu ayəni oxusa, onun yatağından Beytul-Məmura (göyün dördüncü təbəqəsində məscid) nur saçar və yuxudan oyana kimi mələklər Allahın dərgahından onun üçün rəhmət tələb edərlər. Əgər Məkkəli bir kəs bu ayəni oxusa, onun yatağından Beytul-məmura (göyün dördüncü təbəqəsində məscid) nur saçar və yuxudan oyanana qədər mələklər Allahın dərgahından onun üçün rəhmət tələb edərlər.

Səmrət ibn Condəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, hər kəs Kəhf surəsindən on ayə əzbərləsə, Dəccalın fitnəsi ona zərər yetirməz. Əgər bir kəs Kəhf surəsinin hamısını oxusa, Behiştə daxil olar. Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Sizə nazil olanda yetmiş min mələklə müşayiət edilən, əzəməti yeri və asimanı əhatə etmiş, surəni göstərməyimmi? Dedilər bəli göstərin. Həzrət buyurdu: O Əshabi Kəhf surəsidir. Hər

kəs cümə günü bu surəni oxusa, Allah onu üç gün qarşıdakı cümədən sonraya qədər bağışlayar, və ona elə bir nur əta edər ki, asimana çatar, özüdə Dəccalın fitnəsindən amanda qalar. Vaqidi öz sənədinə əsasən Əbul dərdadan, o da Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edir ki, hər kəs Kəhf surəsinin əvvəlindən on ayə əzbərləsə, Qiyamət günündə onunla bir nur birlikdə olacaqdır. Yenədə Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət olunub ki, bir kəs cümə günü Kəhf surəsini oxusa altı gün bütün fitnələrdən asudə olar, və hətta əgər Dəccal zühur etsə də onun şərrindən amanda olar. Əyyaşi öz sənədinə əsasən İmam Sadiqdən (ə) rəvayət edib ki, hər kəs cümə axşamı Kəhf surəsini oxusa, şəhid kimi dünyadan gedər, Allah onu şəhidlərlə birlikdə qaldırar, və Qiyamətdə şəhidlər sırasında dayanar. Borcunu vermək niyyəti ilə bu surəni oxu, inşaallah borcunu ödəyərsən.

Təfsirçilər məsumlardan rəvayət ediblər ki, hər kəs bu surənin 110-cu ayəsini oxusa istədiyi vaxt yuxudan oyana bilər. Ayə: Qul innəma ənə bəşərun misluku-ayənin sonuna qədər.

Bu surənin 18-ci ayəsində deyilir: *"Və kəlbuhum basitun ziraəyhi bilvəsid."* Hər kəs bu ayəni yazıb həmişə özündə saxlasa itdən ona bir ziyan dəyməz.

Səələbi öz təfsirində yazıb ki, Hər kəs gecə-gündüz ərzində Həzrət Nuh (ə)-a bu tərzdə salam göndərsə, *"Əssəlamu əla Nuhin filaləmin"*, bu dünyada əqrəbdən qorunar və o dünyada ona bir zərər dəyməz. İmam Sadiq (ə) atalarından nəql olunmuş rəvayətə əsasən buyurur: Mənim Quran olan evdən xoşum gəlir, çünki Allah lənətlənmiş divi (şeytan) onun (Quranın) səbəbinə o evdən qovar.

İmam Sadiq (ə) buyurdu: Hər kəs Quranı çətinliklə öyrənsə, o iki əcrə sahib olacaq. Amma onu asanlıqla öyrənən kəs, yaxşı insanlarla birlikdə olacaqdır.

Əgər bir kəs bir işi yerinə yetirmək istəsə və yaxud istəməsə bu ayəni oxusun: *"Əfəhəsibəlləzinə Kəfəru ən yəttəxizu ibadi min duni əvliyai inna əətədna cəhənnəmə lil kafirinə nuzulən"*

(Kəhf-102). Sonra desin: *"Allahumə səlli əla Muhəmmədin və ali Muhəmməd və ərini bəyazən və humrən."* və yuxulasın. Əgər yuxuda ağ bir şey görsə, o işi yerinə yetirin, amma əgər yuxuda qırmızı və yaxud qara şey görsə, o işi etməsin.

Qızdırması olan bir kəs yatan zaman aşağıdakı ayəni yazıb yastığının altına qoysa, qızdırması azalar. *"Əm həsibtə ənnə əshabəl kəhfi vərrəqimi kanu min ayatina əcəbən iza əval fitnətu iləl kəhfi fəqalu rəbbəna atina minlədukkə rəhmətən və həyyi ləna min əmrina rəşədən."* (Kəhf 8-9)

## *“Məryəm” surəsi*

1-Əban ibn Osmandan nəql olunub ki, Həzrət Sadiq (ə) belə buyurudu: Hər kəs Məryəm surəsini oxumağı davam etdirsə, bu surə onu istədiyi şeylərdən, (candan, maldan, övladdan) ehtiyacsız etməyincə ölməz. Həmçinin axirətdə İsa ibn Məryəmin (ə) dostlarından olar, və o gün Həzrət Süleymanın (ə) dünyadakı səltənəti kimi səltənətəsahib olar.

2-Übəyy ibn Kəb İslamın əziz Peyğəmbərindən (s.ə.v.v) nəql edib ki, bu surəni oxuyan kəsə Zəkəriyyaya, Yəhyanı, Məryəmi (ə), İsanı (ə), Musanı (ə), Haruna (ə), İbrahimi (ə), İsahaqı (ə), Yəqubı (ə), İsmaili (ə) təsdiq və yaxud təkzib edənlərdən və həmçinin Allahdan övlad istəyib yaxud istəməyənlərin sayı qədər Allah on həsənə (savab) verər.

Hər kim bu surəni yazıb evidə saxlasa o evin xeyir-bərəkəti çoxalar. Bir kəs bu surəni yazıb suyunu içsə, heç vaxt qorxmaz.

Əgər bu surəni yazıb onu yuyub suyunu bir qızın üstünə töksələr, onun üçün həyat yoldaşı tapılar.

Məryəm və Fəth surəsini: Baş ağrısı və [miqren) üçün yazın.

Aşaağıdakı ayələri yazıb başınıza bağlasanız inşaallah ağrısı keçib gedər.

*"Bismillahir-rəhmanir-rəhim. Kaf ha, ya, əyn, sad, zikru rəhməti rəbbikə Əbdəhu Zəkəriyya. İz nada rəbbəhu nidaən xəfiyyən. Qalə rəbbi inni vəhənəl əzmu minni vəştəələrrəsu şəybən və ləm əkum biduaikə rəbbi şəqiyyən."* (Məryəm 1-4)

*"Muhəmmədun rəsulullahi vəlləzinə məəu əşiddau ələl kuffari ruhəmau bəynəhum tərahum rukkəən succədən yəbtətunə fəzlən minəllahi və rizvanən, simahum fitvucuhihim min əsəris-sucudi zalikə məsəluhum fittovratı və məsəluhum fil incili kəzərin əxrəcə şətəhu fəazərəhu fəstəğləzə fəstəva əla sutihi yucibuz zurraə liyəcizə bihimul kuffarə, vəədəllahul-ləzinə amənu və əmilussalihati minhum məğfirətən və əcrən əzimən."* (Fəth-29)

2-İmam Əliyyən Nəqidən (ə) rəvayət olunub ki, baş ağrısı üçün bu ayəni qabdakı suya oxuyub içsin.

*"Əvələm yərəlləzinə kəfəru innəs-səmavati vəl ərzə kanəta rətqən fəfətəqnahuma və cəəlna minəlmai kullə şəyin həyyin əfəla yuminun".* (Ənbiya-30)

3-Bir rəvayətdə nəql olunub ki, bir şəxs Mərv (Xorasan) əhlindən imam Hadinin (ə) xidmətinə başağrısından şikayət etdi. Həzrət onu yanına çağırıb əlini onun başına sürtüb bu ayəni oxudu: *"İnnəllahə yumşkus-səmavati vələrzə ən təzula, vələin zaləta in əmsəkəhuma min əhədin min bəədihi innəhu kanə həlimən ğəfurən."* (Fatir-41)

4-İmam Məhəmməd Baqirdən (ə) nəql olunub ki, başağrısını müalicəsi aşağıdakı ayəni yazıb başınıza bağlasananız inşallah şifa taparsınız.

*"Və kəlbuhum basitun ziraəyhi blvəsidi ləvittələtə ələyhim ləvəlləytə minhum firarən vələmuliət minhum rubən."* (Kəhf-18).

5-Məkarimul-əxlaqda (kitabında) yazılıb ki, şəqiqənin (gicgahın) ağrısı üçün ibam (baş barmaq) və səbabə (işarə barmağı) barmağınla gicgahını möhkəm sıxıb bu ayələri oxu: *"Fəmən kanə minkum mərizən əv bihi əzən min min rəsihi fəfidyətun min siyamin əv sədəqətin, və nusukin."* (Bəqərə-196)

*"Yədullahi fəvqə əydihim fəmən nəkəsə fəinnəma yənkusu əla nəfsihi və mən əvfa bima ahədə ələyhullahə fəsəyutihi əcrən əzimən"* (Fəth-10) *İskin səkəntukə ya vəcəəş-şəqiqəti billəzi səkənə ləhu ma filləyli vənnahari və huvəs-səmiul əlim."*

6-Bu ayəni başınıza bağlayın: *"Bismillahir-rəhmanir-rəhim. Rəbbəna la tuzii qulubəna bəədə izhədəytəna vəhəb lana minlədunkə rəhmətən innəkə əntəl vəhhab."* (Ali-İmran-8)

7-Bu ayəni yazıb özündə saxla: *"Ələm tərə ila rəbikə kəyfə məddəzzillə vələv şaə ləcəələhu sakinən summə cəəlnaş-şəmsə ələyhi dəlilən summə qəbəznahu iləyna qəbzən yəsirən."* (Furqan-45-46)

## ***<u>"Taha" surəsi</u>***

1-İshaq ibn Əmmardan rəvayət olunub ki, oxumağı tərk etməyin, çünki Allah bir surəni, və onu oxuyanı sevir. Hər kəs bu surəni oxumağı davam etdirsə, Allah Qiyamət günündə onun əməllərini sağ əlinə verər. onun İslam dinindəki buyurulan əməllərindən çətin hesab çəkməz, və ona o qədər savab əta edər ki, axırda sevinər.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s) nəql edib ki, hər kəs bu surəni oxusa, Qiyamət günündə mühacir və Ənsarın savabı ona verilər.

Əbu hurəyrə deyir. Allahın Peyğəmbəri deyir. Allahın Peyğəmbəri buyurdu: Allah-taala Taha və Yasin surəsini Adəmin xilqətindən iki min ilə qabaq oxudu, Mələklər Quranın avazını eşidib dedilər: Quran onlara nazil olan ümmət, Quranı həml edən sinələr, Quranla danışan dillər xoşbəxtdirlər. Həsən deyir: Allahın Peyğəmbəri buyurdu: Beheşt əhli Yasin və Taha surəsindən başqa Quranın surələrini tilavət etməzlər (oxumazlar).

Günəş çıxanda bu surəni oxumaqla ona təzə ruzi kəramət olunar. Bir kəs bu surəni yazıb özündə saxlasa, hər hacəti

ardınca getsə, qəbul olunar, və hər kimdən elçilik etsə müsbət cavab verərlər.

Hər kim iki nəfərin arasında sülh etmək istəsə, bu surəni oxusun, sözünü hər iki tərəf qəbul edər.

Ağızda hər cür ağrıya görə bu ayələri yazıb özündə saxlasın.

*"Bismillahir-rəhmanir-rəhim Ta-ha ma ənzəlna ələykəl Quranə litəşqa. illa təzkirətən limən yəxşa. Tənzilən mimmən xələqəl ərzə vəssəmavatil ula. Ərrəhmanu ələl ərşistəva"* (Taha-1-5)

Sinə ağrısı üçün ayəni üç dəfə qabdakı suya oxuyub içsin və bir qədər də sinəsinə sürtsün.

*"Rəbbişrəhli sədri və yəssir li əmri vəhlul uqdətən min lisani yəfqəhu qəvli."* (Taha-25-28)

Bu ayəni torpağa oxusun, yaranın üzərinə töksün, və sonra yaraya oxuyub piləsin, inşaallah sağalar.

*"Minha xələqnakum və fiha nuidukum və minha nuxricukum tarrətən uxra"* (Taha-55)

Zigili və keçəlliyi dəf edib onu müalicə etmək barəsində Əli ibn Nomandan belə nəql olunub. Bir gün imam Rzanın (ə) xidmətinə gedib dedim ki, bədənimdə çoxlu zigil var və elə buna gör qəmginəm.

Həzrət buyurdu: Hər bir zigil üçün yeddi buğda götür və buğdanın hər birinə Vaqiə surəsinin başlanğından yeddi dəfə oxu *"İza vəqəətil vaqiəti. Ləysə livəətiha Kazibətun Xafizətun rafiətun. İza ruccətil ərzu rəccən. Və bussətil cibalu bəssən. Fəkanət həbəən munbəsən* (Vaqiə-1-6) *Sonra onun ardınca aşağıdakı ayəni yeddi dəfə "Və yəsəlunəkə ənil cibali fəqul yənsifuha rəbbi nəfsən fəyəzəruha qaən səfsəfən latəra fiha ivəcən vəla əmtən."* (Taha 105-107)

İflicin müalicəsi üçün aşağıdakı ayəni yazıb özünüzdə saxlayın və ayəni bir dəfə iflic olan üzvə oxuyun.

"Bismillahir-rəhmanir-rəhim. Yəmhullahə ma yəşau və yubitu və indəhu ummul kitab (Rəd-39)

*"Əlhəmdu lillahi fatiri s-səmavati vələrzi cailil məlaikəti rusulən ulii əcnihətən məsna və sulasə, və rubaə."* (Fatir-1) bağladım (filan ibn filan) xəstənin adı və anasının adı.

## ***“Ənbiya” surəsi***

1-Fəzl ibn Rəssandan rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs Ənbiya surəsini həvəslə oxusa, əbədi Behiştdə Peyğəmbərlərlə birlikdə olacaq. yaşadığı müddətdə xalqın nəzərində hörmətli və əzəmətli olar.

2-Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Allah Ənbiya surəsini oxuyan kəsdən asanlıqla hesab çəkər, onu bağışlayıb və Quranda adı olan Peyğəmbərlər ona salam deyərlər.

Hər cür xəstəlik və yaxud fikrin pərişanlıq yaxud da yuxusuzluq üçün bu ay əni yazıb özündə saxlayın: *"Vəzənnuni iz zəhəbə mucazibən fəzənnə ən lən nəqdirə ələyhi fənada fizzulumati ən la ilahə illa əntə subhanəkə inni kuntu minəz-zalimin."* (Ənbiya-87).

Qızdırmanı müalicə etmək üçün bu ayələri yazıb özündə saxlasın.

*"Ya naru kuni bərdən və sələmən əla İbrahimə və əradu bihi kəydən fəcəəlnahumul əxsərin."* (Ənbiya-69-70)

Taha və Ənbiya: Xora (cozan) xəstəliyinin müalicəsi üçün bu ayələri yazıb özündə saxlayın.

*"İnnəhu mən yəti rəbbuhu mucrimən fəinnə ləhu cəhənnəmə layəmutu fiha və la yəhya. Və mən yətihi muminən qəd əmiləs-salihati fəulaikə ləhumud-dərəcatul-ulya".* (Taha-74-75) *"Kullu nəfsin zaiqətul məvti və nəblukum bişşərri vəlxəyri fitnətən və iləyna turcəun".* (Ənbiya-35)

## *“Həcc” surəsi*

1-Surət ibn Kuləybin atasından rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Bir kəs hər üç gündə həcc surəsini oxusa, bir il keçməz ki, Allahın evinin (Kəbə) ziyarəti ona nəsib olar, və Həccə yola düşər. Əgər bu səfərdə dünyadan getsə, (vəfat etsə) onu birbaşa Behiştə apararlar. Ravi (rəvayət edən) deyir: Söylədim əgər bu kişi müxalifətlərdən olsa, onunla nə edəcəklər? Həzrət buyurdu: Əzabını yüngülləşdirəcəklər.

2-Allahın Peyğəmbəri (s.ə.v.v) buyurdu: Hər kəs Həcc surəsini oxusa, bütün Həcc və ömrə edənlərin, keçmişdə və gələcəkdə ömrə ziyarəti edənlərin, savabı ona veriləcək.

İşlərin sonundan xəbərdar olmaq üçün bu ayəni 201-dəfə oxusun və yatsın.

*"Ələm təələm ənnəllahə yəələmu ma fissəmai vələrzi innə zalikə fikitabin innə zalikə ələllahi yəsirun"* (Həcc-70)

## *“Möminun” surəsi*

1-Hüseyn ibn Übəyyil Əla rəvayət olunub ki, imam Cəfər Sadiq (ə) belə buyurdu: Hər kəs Muminun surəsini oxusa, Allah onun ömrünü səadət və xoşbəxtliklə sona çatdırar. Əgər bir kəs bu surəni oxumağı davam etdirsə, Allahın göndərdikləri və Peyğəmbərlərlə birlikdə Əəlada olacaqdır.

2-Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Mələklər bu surəni oxuyan kəsə, Qiyamət günündə ruh və reyhanla, və göz aydınlığına səbəb olan şeyləri bəşarət verərlər.

Həlakətdən nicat tapmaq üçün (ancaq zərur işlərdə) 140 dəfə oxuyun. Əgər onu gecə yazıb ipək parçada başına qoysa, (fasiqlik) həvəsi qəlbindən gedər, və şərabı tərk edər.

Rəvayətlərin birində yazılıb ki, Əbdullah Məsud günlərin birində xəstə yanına gedib, bu ayəni *"Əfəhəsibtum ənnəma xələqnakum əbəsən və ənnəkum iləyna laturcəun. Fətəallahul*

*məlikul həqqu la ilahə illa huvə rəbbul ərşil Kərim. Vəmən yədu məəllahi ilahən axirə la burhanə ləhu bihi fəinnəma hisabuhu ində rəbbihi innəhu la yuflihul kafirun. Və qul rəbbiğfir vərhəm və əntə xəyrur-rahimin."* (Muminin 115-118) onun qulağına oxudu  və tezliklə şifa tapdı. Bu xəbəri Allahın Rəsulunun hüzuruna çatdırdılar. Həzrət Əbdullaha dedi: xəstənin qulağına nə oxudun? o dedi: Filan ayəni (Muminun-115-118). Həzrət buyurdu: Bəli, doğrudur, canım əlində olan Allaha and olsun. Əgər bu ayəni sidq ürəkdən və yəqinliklə dağa oxunsa, dağ yerindən qopar.

Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql olunub ki, hər kəs muminun surəsini cümə günündə oxuya, və bu işi davam etdirə, onun mənzili Firdovs Əlada olar. Sonra yenə də buyurdu: Bu surənin əvvəli və sonu Behiştin qiymətli cəvahiratlarındandır.

## ***“Nur” surəsi***

1-İbn Məskandan rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Namus və malınızı Nur surəsini oxumaqla qoruyun. Həmçinin öz xanımlarınızı onunla qoruyun, çünki, bir kəs bu surəni hər gün yaxud hər gecə oxumağa davam etdirsə, ölənə qədər öz ailəsindən heç bir kəs iffətsizliyə (əxlaqsızlığa) düçar olmaz, Dünyadan gedəndə yetmiş min Mələk onu qəbrinə qədər müşayiət edər, hamısı onun üçün dua edib bağışlanmaq tələb edərlər, sonra onu qəbrə qoyarlar. (Yusif surəsinin 12-ci ayəsinə müraciət edin).

2-Allahun Rəsulu (s.ə.v.v) buyurdu: Allah Nur surəsini oxuyan kəsə keçmişdəki və gələcəkdəki möminlərin hamısının əcri qədər həsənə (savab) verər.

Hakim Əbu Əbdullah öz səhihində Ayişədən nəql edir ki, Nəbiyyi-Əkrəm (s.ə.v.v) belə buyurdu: Xanımlarınızı evlərdə bekar saxlamayın, bəlkə toxuculuğu və Nur surəsini onlara öyrədin.

Hər kəs Nur sursini yazıb yatanda onu başına altına qoysa, həmin gecə möhtəlim (cunub) olmaz.

Əgər Nur surəsini yazıb yuyub onun suyunu gözünüzə sürtsəniz, qaranlıq və zəifliyi aradan gedər.

*"Əllahu nurus-səmavati vələrzi məsəlu nurihi kəmişqati fiha misbahunil misbahu fizucacətin-əzzucacətu kəənnəha kəvkəbun durriyyun yuqədu min şəcərətin mübarəkətin zeytunətin la şərqiyyətin vəla ğərbiyyətin yəkadu zəytuha yuziu vələv ləm təmsəshu narun. Nurun əla nurin yəhdillahu linurihi mən yəşau. Və yəzribullahul əmsalə linnasi, vəllahu bikulli şəyin Əlim"* (Nur –35)

## ***“Furqan” surəsi***

1-İshaq ibn Əmmardan rəvayət olunub ki, Musa ibn Cəfər (ə) ona belə buyurdu: Ey Əmmarın oğlu! *"Təbarəkəl-ləzi nəzzələl Furqanə əla əbdihi"* ni tərk etmə. Çünki bir kəs bu surəni hər gecə oxusa, Allah heç vaxt onu əzab etməz, və ondan çox hesab çəkməz. Onun yeri Firdovs əlada olacaqdır.

Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, hər kəs bu surəni oxusa, Allah-taala Qiyamətdə onu mömin, müvəhhid və yenidən diriləcəyiini təsdiq edən halda Behiştə aparar.

Hər kəs bu surəni gecə yaxud gündüz oxusa, onun ailəsi heç vaxt əxlaqsızlığa yönəlməz. Öləndən sonra yetmiş min onu müşayiət edər, və onların hamısı onun üçün dua edib bağışlanmaq tələb edərlər, sonra ona qəbrə qoyarlar.

Bir kəs gündəlik namazlarında şam namazın qılandan sonra *"İza vəqəətil vaqiə "* surəsini, sübh namazını qıl-andan sonra "Yasin" surəsini, Zöhr namazını qılandan "Nəbə" surəsini, və əsr namazını qılandan sonra "Fəth" surəsini oxusa, Həcəti qəbul olar,

Təngnəfəsi (astma yaxud alergiya) müalicə etmək üçün bu ayəni oxuyun:

*"Bismillahir-rəhmanir-rəhim. Təbarəkəlləzi in şaə cəələ ləkə xəyrən min zalikə cənnatin təcri min təhtihəl ənharu və yəcəl ləkə qusurən."* (Furqan-10).

## ***"Şuəra" surəsi***

**(ta-sin mim)**

Allahın Peyğəmbəri (s.ə.v.v) buyurdu: Bir kəs Şuəra surəsini oxusa, onun əcri on həsənə miqdarında olacaq, hər bir həsənə Həzrət Nuhu, Hudu, Şüeybi, Salehi, və İbrahimi təsdiq və təkzib edənlərin, və Həzrət İsanı təkzib edənlərin, və Həzrət Məhəmmədi (s.ə.v.v) təsdiq edənlərin sayı qədərdir.

Əbi Bəsirdən rəvayət olunub ki, imam Cəfər Sadiq belə (ə) belə buyurdu: Hər kəs bu üç [ta-sin]-ni (Şuəra, Nəml, Qəsəs) cümə axşamı oxusa, Allahın dostlarından və övliyalarından olar. Dünyada heç vaxt çətinlik çəkməz. Beheşt nemətlərindən o qədər ona verərlər ki, çox razı qalar. Allah Beheşt hurilərindən yüz hurini onunla evləndirər.

İbn Abbas deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Allah mənə Tövratın əvəzinə yeddi böyük surəni nazil etdi. Onlar ibarətdir: Bəqərə-Ali İmran-Nisa-Maidə-ənam-Əraf Ənfaldan, Taha və Təvasin (Şuəra, Nəml, Qəsəs) sursini Zəburun əvəzinə mənə nazil etdi, və sair….

Dərdə olan ağ-qara ləkələri müalicə etmək üçün bu ayələri ləkələrin üzərinə yazın:

*"Və in min şəyin illa indəna xəzinuhu vəma nunəzzinhu illa biqədərin məlum" (Hicr-21) "Qalə həl yəsməunəkum iz tədunə əv yənfəunəkum əv yəzurrun."* (Şuəra73).

## ***“Nəml” surəsi***

***(ta-sin)***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs ta-sin Süleymanı oxusa, Həzrət Süleymanı, Hudu, Şüeybi, Salehi, İbrahimi təsdiq və təkzib edənlərin sayı qədər həsənat əcr alar. Qəbirdən çıxanda *"la ilahə illəllah"* deyər.

Hər kəs bu surəni ozxusa, heç vaxt onu aldatmazlar.

Bir kəslə dostluq etmək istəyirsənsə, və necəki, bir saat belə onsuz şadlanmırsansa, aşağıdakı ayəni yeməli şeyə piləyib ona yedizdir. *"Bismillahir-rəhmanir-rəhim. Əlla təlu ələyyə vətuni musliminə."* (Nəml-31) *"Ləvla ən rəbətna əla qəlbiha litəkunə minəl muminin."* (Qəsəs-10).

## ***“Qəsəs” surəsi***

***(Musa və Firon)***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Qəsəs surəsini oxusa, Həzrəti Musanı (ə) təsdiq və təkzib edənlərin sayı qədər ona həsənə verilər. Yer və səmada ona şəhadət verməyən bir mələk qalmaz. Onlar deyərlər ki, doğrusu o deyərdi Allahın zatından başqa bütün mövcudat məhv olacaqdır.

Hər dərdi olan bu surəni yazıb özündə saxlasa, Allahın izni ilə şifa tapar.

## ***“Ənkəbut” surəsi***

Əbi Bəsirdən rəvayət olunub ki, imam Cəfər Sadiq (ə) belə buyurdu: Hər kəs mübarək Ramazan ayının iyirmi üçüncü gecəsi Ənkəbut və Rum surəsini oxusa, Allaha and olsun Beheşt əhlindən olacaqdır. Heç vaxt bir kəsi bu hökmdən istisna etmərik. Bu anda Allahın mənə bir günah yazacağından

qorxmuram. Həqiqətən Allah yanındabu iki surə uca məqama malikdir.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bu surəni oxuyan kəsə yerdə və səmada pərvərdigarına təsbih deməyə məşğul olan mələklərdən on dəfə çox əcr verilər. Bu surəni oxuduğu gecə və gündüz əgər ondan bir savab iş əldən çıxsa, yenədə ona veriləcək.

Haris həmədani deyir: Əmirəlmöminin (ə) buyurdu: Hər kəs şəfəq batanda bu ayəni *"Fəsubhanəllahi hinə tumsunə və hinə tusbihunə, vələhul həmdu fissəmavati vəl ərzi və əşiyyən, və hinə tuzhurun."* (Rum-17-180) üç dəfə oxusa, o gecə xeyir işlər əlindən çıxmaz, və bütün pisliklər ondan uzaqlaşar. Hər kəs sübh vaxtı deyilən ayəni üç dəfə oxusa, həmin gün o heç bir şey itirməz, və bütün şərr işlər ondan uzaqlaşar.

Allahın Rəsulundan (s ə v v) rəvayət olunub ki, hər kəs sübh və şam vaxtı bu ayəni oxusa, həmin gün yaxud həmin gecə vaxtında qıla bilmədiyi ibadətlərin yerini doldurar.

Həmçinin bu ayəni gündəlik vacibi namazlardan sonra oxumaqla yağışın damcıları ağacların yarpaqları, yer üzündəki torpağın sayı qədər, ona həsənat yazılar.

Ayə: *"Fəsubhanəllahi hinə tumsunə və hinə tusbihun. Və ləhul həmdu fissəmavati vələrzi və əşiyyən və hinə tuzhirun. Yuxricul həyyə minəl məyyiti və yuxricul məyyitə minəl həyyi və yuhyil ərzə bəədə məvtiha və kazalikə tuxrəcun."* (Rum-17-18-19).

## ***"Loğman" surəsi***

1-İmam Baqir (ə) buyurdu: Bir kəs hər gecə Loğman surəsini oxusa, Allah-taala o gecə onu sübhə qədər iblisin və onun qoşununun şərrindən qorumaq üçün mələklər göndərər.

Əgər bu surəni gündüz oxusa, həmin gün şəfəq batana qədər mələklər onu şeytanların şərrindən qoruyar.

2-Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bir kəs Loğman surəsini oxusa, Qiyamətdə Həzrət Loğman onunla dost olar. Ona yaxşılığa əməl etmiş və pisliklərdən qorunmuş kəsin savabından on dörd dəfə çox savab verilər.

Xəvassul Quran kitabında yazılıb ki, hər kəs Loğman surəsini yazıb hakimin mənzilində qoysa, həmin il hakimiyyətdən endirilər. Bir kəs bu surəni yazıb özündə saxlasa, şəqiqədən (gicgahın ağrısından) və qızdırmadan sağalar.

İbn Abbasdan nəql olunub ki, hər kəsin qulaq ağrısı vardırsa;

1-Aşağıdakı ayəni oxumağı davam etdirsin.

*"Fəmən yəstəmi ilanə yəcid ləhu şibahən rəsədən."* (Cin-9) və ondan soanra desin:

2-Bir şəxs imam Məhəmməd Baqirin (ə) hüzurunda qulağının ağır eşitməsindən şikayət etdi: İmam ona buyurdu: Əlini qulağına çək və bu ayələri oxu: *"Ləv ənzəlna hazəl Quranə əla cəbəlin lərə əytəhu xaşiən mutəsəddiən min xəsiyətillah, və tilkəl əmsalu nəzribuha linnasi ləəlləhum yətəfəkkərun."*

*"Huvəllahulləzi la ilahə illa huvə alimul-ğəybi vəşşəhadəti, huvər-rəhmanir-rəhim. Huvəllahulləzi la ilahə illa huvəl məlikul quddusus-səlamul muminul muhəy minul əzizul cəbbarul mutəkəbbiru, Subhanəllahi, əmma yuşrikunə. Huvəllahul xaliqul bariul musəvviru ləhul əsmaul husna. Yusəbbihu ləhu mafissəmavati vələrzi və huvəl əzizul həkim."* (Həsir-21-24)

3-Qulağına tut və aşağıdakı ayəni üç dəfə oxu:

*"Minha xələqnakum və fiha nundukum və minha nuxricikum tarrət ən uxra."* (Taha-55)

4-Bu ayəni özündə saxlasın.

"Və iza Quriəl Quranu fəstəmiun ləhu və ənsitu ləəlləkum turhəmun." (Əraf-204) "Kəənnə ləm yəsməəha kəənnə fiuzunəyhi vəqrən, fəbəşirhu biəzabin əlim." (Loğman-7).

## ***“Səcdə” surəsi***

1-Hüseyn ibn əbim Ələndən rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs həftədə bir dəfə səcdə surəsini oxusa, Allah onun nameyi əməlini sağ əlinə verər, və elədikləri işlərə görə çətin hesab çəkilməz. O Allahın Rəsulu (s.ə.v.v)və övladları ilə bir yerdə olacaqdır.

2-Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: "Əlif-lam-mim, tənzil" (Səcdə surəsi). və "Təbarəkəlləzi" (Furqan surəsi) surəsini oxuyan şəxs elə bil ki, Qədr gecəsini əhya saxlamışdır. Leys ibn Zübeyr Cabirdən, rəvayət edir ki, o deyirdi: Allahın Rəsulu (s.ə.v.v) gecə-lər bu iki surəni oxumamış yatmazdı. Leys deyir: Bu rəvayəti tavusa dedim: Sonra o dedi: Bu iki surə Quranın bütün surələrindən qiyamətlisidir, və hər kəs bu iki surəni oxusa, altımış həsənə onun üçün yazılar, onun altımış günahı məhv edilər, məqamı altımış dərəcə yuxarı qaldırılar.

## ***“Əhzab” surəsi***

1-Əbdullah ibn Sənandan rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs Əhzab surəsini çox oxusa, Allahın Rəsulun (s.ə.v.v) və həyat yoldaşlarının pənahında olacaq. Sonra Həzrət buyurdu: Əhzab surəsi Qüreyş qəbiləsinin kişilərindən qadınlarının, və başqalırının rüsvayçılıqlarını aradan qaldırdı.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Hər kəs Əhzab surəsini oxusa, onu (Əhzab surəsi) ailəsinə və himayəsində olanlara öyrətsə, Allah onu qəbrin əzab-əziyyətindən əfv edər.

3-Əbdullah ibn Muğəyrə deyir: Həzrət Musa ibn Cəfər (ə)-dan eşitdim ki, belə buyurdu: Hər kəs sübh və şam namazınının təqibatında (ardınca) yerindən qalxmışdan və yaxud bir kəslə danışmamış qabaq bu ayəni *"İnnəllahə və məlikətuhu yusəllunə ələnnəbiyyi ya əyyəhəlləzinə amənu səllu ələyhi və səllimu təslima." (*Əhzab-56) oxusun və sonra desi: *"Əllahummə səlli əla Muhəmmədinin-nəbiyy və zurriyətih."* Allah onun yüz hacətini verər. Onun yetmişini dünyada otuzunu isə axirətdə ona əta edər və *"Səlli əla Muhəmmədin və ali Muhəmməd fil mursəlin. Əllahummə əəti Muhəmmədən (və ali Muhəmməd ) əlvəsilə vəşşərəf, vəlfəzilə, vəddərəcətul kəbirə, Əllahumə inni aməntu bimuhəmmədin (s) Vələm ərah fəla tər həmni, yəvməl Qiyaməti röyətəhu. Vərzuqni söhbəthu və təvəfənni əla millətihi. Vəsqini min hovzihi muşribən rəviyyən, Saiğən Həkiən, laəəzənə bədəhu əbədən, İnnəkə əla kulli şəyin qədir. Əllahummə kəma amənte bimuhəmmədin (s) Vələm ərahu fəərrifni filcinan vəchəhu. Əllahummə bəlliğ ruhu ənni təhiyyətən kəsirətən və səlamən."* Nəticədə bir kəs hər gün sübh və şam vaxtı Peyğəmbərə (s.ə.v.v.) üç dəfə salavat göndərsə, bütün xəta və günahları məhv olar, şadlığı davam edər, duaları müstəcab olub, arzularına çatar, ruzisi çoxalar, düşmənə qələbə çalmağa kömək edər, xeyir və yaxşılıq səbəbləri qaydasına düşər və bərin Behiştdə Peyğəmbərlə (s.ə.v.v.) birlikdə olar.

Əgər evdə qalmış subay bir qız üçün Əhzab surəsini yazıb balaca (qiymətli əşyalar) sandıqcasına qoyub onun ağzını bağlayıb, o qız yaşayan evdə gizlətsəniz , onun üçün ər tapılar.

## ***"Səbə" surəsi***

(Davudun Übəyyin müshəfindəki surəsi).

1-Ömər ibn Əzniyədən nəql olunub ki, İmam Sadiq (ə) bu iki surənin (Səbə və Həmd) haqqında ki, onların ikisidə həmd kələməsi ilə başlayır buyurdu:

Hər kəs gecə bu surəni oxusa, O bütün gecəni Allahın amanında olacaqdır. Əgər bu surəni gündüz oxusa, həmin günü çətinlik və əziyyət çəkməyəcəkdir. Dünyada və axirətdə qəlbindən keçməyən və gümanına gəlməyən qədər ona xeyir-bərəkət əta olunar.

2-Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v.) rəvayət nəql eæir ki,Həzrət belə buyurdu:

Səbə surəsini oxuyan kəslə Qiyamətdə onunla dost olmayan Rəsul və Peyğəmbər qalmayacaqdır.

## *“Fatir” surəsi*

### *(Məlaikə)*

Übeyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Hər kəs Məlaikə surəsini (Fatir) surəsini, oxusa Qiyamət günündə Behiştin qapılarında üçü onu çağırar ki, bu üç qapının hansı birisindən istəyirsən daxil ol.

Çoxlu dua kitablarında yazılıb ki, hər kəs yatan zaman bu ayəni *"İnnəllahə yəmsukum-səmavati vəl ərzə ən təzulən, vələin zaləta in əmsəkəhuma min əhədin min bəədihi, İnnəhu kanə həlimən ğəfura."* (Fatir-14). oxusa, binanın onun üzərinə tökülməsindən amanda qalar.

Çoxlu kitablarda o cümlədən Şeyx İbrahim Kəfhəminin Misbah kitabında qeyd olunub ki, bu surənin 41-ci ayəsini sona kimi oxuyandan (İnnallahə yəmsuku) sonra bunu *"Səlli əla Muhəmmədin və ali Muhəmməd və əmsik ənnəssui innəkə əla Kulli şəyin qədir."* əlavə etsə, onun evi Allahın amanında qalıb uçmaz.

## *“Yasin” surəsi*

1-Əbi Bəsirdən rəvayət olunub ki, Həzrət Sadiq (ə) belə buyurdu: Həqiqətdə hər bir şeyin qəlbi vardır. Quranın qəlbi isə Yasin surəsidir. Hər kəs bu surəni gündüz oxusa, həmin gün şam vaxtına qədər qorunmuş və bəhrə aparmışlardan olar.

Bu surəni gecə yatmazdan qabaq oxuyan kəs qovulmuş şeytanın şərrindən qorunmaq üçün Allah min mələyi göndərər. Əgər o həmin gün vəfat etsə, Allah onu Behiştə daxil edər. Qüsl verilən zaman otuz min mələk onun ətrafında dövrə vurar və ona bağışlanmaq tələb edib, onu istiğfar etməklə qəbrin kənarına qədər müşayiət edərlər. Onu qəbirə qoyanda mələklərin bir dəstəsi onun yanında qalıb, Allaha ibadət edər və onun savabını o şəxsə hədiyyə edərlər. Onun qəbrini göz işlədikcə genişlən-dirərlər, və onu qəbrin sıxıntısından amanda saxlayarlar. Həmişə onun qəbrindən Ənam səmaya qədər nur saçar. Nəhayət Allah onu qəbrindən çıxarar. Allah onu məşhur edəndə (qaldıranda) Mələklər onunla birlikdə olub, onu bədrəqə edər onunla söhbət edib, üzünə təbəssüm edərlər. Axırda onu sirat körpüsndən və mizan-tərəzidən keçirərlər. Onu elə bir məqama və mənzilətə çatdırarlar ki, Allahın müqərrəb mələklərindən başqa heç bir məxluq nail ola bilməz. O Peyğəmbərlərlə birlikdə orada Allahın yanında dayanarlar. Qəm çəkənlərlə qəmlənməz, qüssə çəkənlərlə qüssələnməz, ağlayanlarla, ağlamaz. O, zaman Allah təbarək taala deyər: Ey mənim bəndəm hər kimə istəyirsən şəfaət et. Çünki hamısının şəfaətini qəbul edəcəyəm. Hacət istə, çünki hər nəyi istəsən sənə verəcəyəm. Nəhayət o öz hacətini Allahdan istəyəcək və qəbul olunacaq, şəfaət etsə, qəbul olunacaq. Onun hesabını başqaları kimi çəkməzlər, orada başqaları kimi saxlanılmayacaq. Zəlil və xar olmuşlar kimi xar olmayacaq. Ondan baş vermiş pis əməllərin və günahların cəzasına giriftar olamayacaq, onu bəraət qazandırıb, azadlığını ona verərlər, sonra Allahın dərgahından başı uca çıxarlar. Bütün camaat təcübblə deyərlər. "Sübhənəllah" bu bəndənin hətta bir günahı

belə yoxdur, və onu Həzrət Məhəmməd (s.ə.v.v) həmdəmlərindən olacaqdır.

2-Cabir ibn Cəfidən rəvayət olunub ki, imam Baqir (ə) belə buyurdu: Hər kəs ömründə bir dəfə Yasin surəsini oxusa, Allah bu dünyada yaratdıqlarının və o biri dünyadakıların və səmada olan şeylərin hamısının hər birisinin sayı qədər, iki min həsənə onun nameyi əməlində yazacaqdır, və həmin qədər də günahlarından keçəcəkdir. O heç vaxt kasıblıq və ziyan çəkməyib, borclu və evsiz-eşiksiz qalmaz, bədbəxtlik, dəlilik görməz, vasvaslığa, iradəsizliyə, və müxtəlif zərər verici xora xəstəliklərə mübtəla olmaz. Allah-taala ölümün çətinliyini onun üçün asanlaşdırar, və özü onu qəbz ruh edər. O elə bir şəxslərdəndir ki, Allah onun yaxşı yaşamasını öz öhdəsinə almış, ölüm anlarında onun xoşhal olmasına zamin durmuş, axirətdə də onu sevindirəcəyinə zəsanət vermişdir. Sonra Allah göyün və yerin mələklərinə xitab edib buyurar: Mən bu bəndədən razıyam, elə isə onun üçün bağışlanmaq tələb edin.

Übəyy ibn Kəb [Məsumların (ə) buyurduğlarına əsaslanaraq] deyir: Hər kəs Allaha xatir Yasin surəsini oxusa, Allah ona Quranı on iki dəfə oxumuş kəsin əcrini verər. Xəstənin yanında Yasin surəsini oxusa, onun hər bir hərfinə on mələk nazil olar ki, qarşısında cərgə ilə dayanıb onun üçün bağışlanmaq tələb edərlər, və onu qəbz ruh edəndə yanına gələrlər. Onun cənazəsini dəfn etmək üçün hazırlayıb (Qüsl-kəfən edib) ona namaz qılıb dəfn mərsasimində iştirak edərlər. Hər xəstə onu (Yasin surəsini) oxusa, yaxud onun yanında bu surə oxunsa, rizvan (Behiştin xəzinədarı, bir qabda Behiştdən gətirdiyi suyu ona içirdər. O nə qədər xəstə yatırsa, onu içər və doyub vəfat edər. Doyan halda qaldırılar, daha peyğəmbərlərin hovuzlarına ehtiyacı olmaz, nəhayət Behiştə daxil olub sirab olar.

Əbu Bəkr dən (s.ə.v.v) nəql edir ki, Həzrət buyurdu: Yasin surəsi Tovratda "moməh" oxunur. Dedilər; Moməh nədir? Buyurdu: Onun sahibini dünya və axirət xeyri əhatə edər. Bu

surə səbəbi nəticəsində o dünyadan bəlasına dözər, və bu surə axirət qorxusu dəf edər. Ona müdafiə və Qaziyə də deyərlər, çünki sahibindən (onu oxuyan) hər cür uzaqlaşdırar. Hər bir hacətini (istəyini) qəbul etdirər. Hər onu oxusa, onun üçün iyirmi Həccin savabı yazılar. Hər kəs onun oxunuşuna qulaq assa, onun üçün min dinar Allah yolunda verən şəxsin savabı yazılar. Bir kəs onu (Yasin surəsini) yazıb onun suyunu içsə, onunla min dərman, min nur, min yəqin, min bərəkət, min rəhmət onun qarnına daxil olar, və hər cür xəstəlik dən (s.ə.v.v) nəql edir ki, Həzrət belə buyurdu: Əlbəttə hər bir şeyin qəlbi vardır, Quranın qəlbi isə Yasin surəsidir. Yenədə Ənas İslam Peyğəmbərindən (s.ə.v.v) nəql edir ki, Həzrət buyurdu: Bir kəs qəbiristana daxil olsa, və orada Yasin surəsini oxusa, Allah-taala həmin gün onların (qəbiristan əhlinin ) əvbını azaldar, və onu oxuyan üçün oradakı ölülərin sayı qədər həsənat yazılar. Əbu Bəsir imam Sadiqdən (ə) rəvayət edib ki, Həzrət belə buyurdu: Əlbəttə hər bir şeyin qəlbi vardır, və Quranın qəlbi isə Yasin surəsidir. Beləliklə hər kəs bu surəni gündüz oxusa, həmin gün axşama qədər hafizlərdən olar. Hər kəs onu gecə yatmazdan əvvəl oxusa, Allah onu çirkin şeytanın afətlərindən qorumaq üçün min mələyi məmur edər. Əgər yatdığı vaxt vəfat etsə, Allah onu Behiştə daxil edər. Otuz min mələk ona qüsl veriləndə hazır olarlar, onun üçün bağışlanmaq istəyər, və onu qəbrinə qoyub, qəbrində Allaha ibadət edər, və savabını ona verərlər. Qəbri göz işlədikcə genişlənər, sıxıntısından amanda qalar, həmişə onun qəbrindən səmaya kimi nur saçar. Nəhayət Allah onu qəbrindən çıxardar (qaldırar). Necəki o qəbrindən çıxdı Mələklər həmişə onun yanında olub, onu müşayiət edərlər. Onunla söhbət edib, üzünə təbəssüm edər, və onu hər bir xeyrə müædə verərlər.

İmam Sadiq (ə) buyurdu: Allahın Rəsulu (s.ə.v.v) üçün Quranda on iki ad qeyd olunub ki, onun beşi bu surətdə yazılıb: Məhəmməd Əhməd-Əbdullah, Yasin-Nun.

İnsanın asan can verməsinə kömək edən amil yeddi şeydən ibarətdir. Onlardan biri Yasin surəsidir.

Bəyənilmiş işlərdən biri də odur ki, Şəban ayının on beşi axşamı üç dəfə mübarək Yasin surəsini oxuyasan, onun birini yaşamaq, birini isə sağlamlıq məqsədilə oxusun, hər kəs bu ayəni özündə saxlasa, heç vaxt birinə möhtac olmayıb zalımın əlində giriftar olmaz.

*"Hum və əzvacuhum fizilalin ələl əraiki muttəkiun"* (Yasin56) Çahar şənbə (üçüncü gün) günündən başlayıb on beş gün müddətində hər gün 818 dəfə bu ayəni oxusun, muradının hasil olması üçün təsirlidir. *"Səlamun qəvlən min rəbbin rəhim."* (Yasin-58).

Bu ayəni oxumağı davam etdirmək 1000 Quran xətmi kimidir. *"Vəmtazul yəvmə əyyuhəl mucrimun."* (Yasin-59).

Fəqirliyi (yoxsulluğu) aradan qaldırmaq üçün hər sübh bu ayəni oxuyun: *"Və mən nuəmmirhu nunəkkisihu filxəlqi əfala yəqilun"* (Yasin-68).

Vəfat etmiş şəxsin kəfəninə bu ayəni yazsanız, o gor əzabından nicat tapar. *"Fəla yəstətiunə təvsiyətən vəla ila əhlihim yərciun. Və nufixə fissuri fəizahum minəl əcdasi ila rəbbihim yənsilun. Qalu ya vəyləna mən bəəsəna min mərqədina haza mavəədər-rəhmanu və sədəqəl mursəlun. İn kanət illa səyhətən vahidətən fəizahum cəmiun lədəyna muhzərun."* (Yasin-50-53).

Hər kəs hacət niyyəti ilə aşağıdakı ayəni yeddi dəfə oxusa, hacəti qəbul olunar. *"Ləş-şəmsu yənbəği ləha ən tudrikəl qəmərə vələlləylu Sabiqin-nəhari və kullun fi fələkin yəsbəhun."* (Yasin-40).

Aşağıdakı ayəni üç gecə və hər gecədə otuz dəfə Peyğəmbəri yuxuda görər. *"Və xələqna ləhum min mislihi ma yərkəbun"* (Yasin-42).

Mal mənal (dükan kimi) dövlət qazanmaq istəyirsə, pəncşənbə (dördüncü) günü iki rükət namaz qılıb sonra Yasin

surəsini oxusun, bu əməli üç gün təkrar etsin. Çox təcrübə olunub.

## ***“Saffat” surəsi***

Həsən ibn Übəyyil Əladan nəql olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs cümə günləri Saffat surəsini oxusa, həmişə bütün xətalardan amanda qalar, bu dünyada hər cür giriftarçılıqdan və müsibətdən qorunmuş olar, Ruzinin bolluğundan tamamilə faydalanar. Allah onu qovulmuş Şeytanın və yaxud zülmkarın şərrindən giriftar etməz.

Əgər həmin gün və yaxud gecə vəfat etsə, Allah onu şəhidlərlə qaldırar, şəhid öldürər, onlarla birlikdə məqam və dərəcədə Behiştə daxil edər.

Übəyy ibn Kəb deyir: Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bir kəs Saffat surəsini oxusa, Allah ona on həsənə əta edər, onu bütün cinlərdən şeytanlardan və şirkdən uzaq edər, və iki qoruyucu mələk Qiyamət günündə onun Peyğəmbərlərə iman gətidiyinə şəhadət verərlər.

Hər kəs bu surəni yazıb yusa, və o su ilə qüsl etsə, ağrıları sağalar.

Əgər gözdə çiçək xəstəliyi olsa, aşağıdakı ayəni bir qədər pak buğdaya yaxud duza oxusun və suya töksün, inşaallah çiçəyi (xəstəliyi) sağalar. *"Fəinnəma hiyə zəcrətun vahidətun"* (Saffat-19) *"Fəkəşəfna ənkə citaəkə fəbəsərukəl yəvmə hədid."* (Qaf-22) *"Əvla ləkə fəəvla əyəhsəbul insanu ən yutrəkə sudən. Ələm yəku nutfətən min məniyyin yumna."* (Qiyamət-35-37) sudan gözünə sürtsün, sonra oxusun. *"Və yursilun-səmaiqə fəyusibu biha mən yəşau vəhum yucadilunə fillahi və huvə şədidul mihal."* (Rədd-13).

## “Sad” surəsi

Cyübəyr Əzrəmidən nəql olunub ki, imam Məhəmməd Baqir (ə) buyurdu: Hər kəs cümə axşamı Sad surəsini oxusa, dünya və axirət xeyrindən o qədər ona verilər ki, Mürsəl Peyğəmbərlərdən və müqərrəb mələklərdən başqa heç bir insana verilməyib. Allah onu və ailəsindən hər kəsi istəsə, hətta ona xidmət etmiş qulluqçusu, onun əhli-əyalından olmamağına baxmayaraq, onları şəfaət etməyə icazəsi vardırsa, Behiştə daxil edər.

Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, həzrət belə buyurdu: Hər kəs Sad sursini oxusa, Allah Davud (ə) üçün ram etdiyi dağlar ağırlığında ona həsənat verər. Onu kiçik və böyük günah etməkdən saxlayar.

Su quyusu qazan zaman bu ayəni çox oxusa, quyunun suyu artar. *"Urkuz biriclikə haza muğtəsəlun baridun və şərabun."* (Sad-42).

Sad və Bələd: (surələri). Parkisun (sifətdə olan xəstəlik, ağzın və çənənin əyilməsi) üçün bu ayələri yaxıb suya salsın, sonra o su ilə üzünü yusun. *"Fəsəxxərna ləhur-rihə təcri biəmrihi bənnain və cəvvasin. Və axərinə Muqərrəbinə filəsfad. Haza ətauna fəmunun əv əmsik biğəyri hisab:"* (Bələd-8-10).

## “Zumər” surəsi

Harun ibn Xaricdən nəql olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs Zumər surəsini oxusa, və kəməmələrini aram və aydın tələffüz etsə, Allah ona dünyada və axirətdə abır, başıucalıq əta edər. Onu qohum-əqrabasının sərvətinə eytiyaclı etməyib, əziz edər. Hər pis insan onu görsə, gözü onu tutub, böyük şəxsiyyət hesab edər. Allah Cəhənnəm odunu onun cisminə haram edər, Behiştdə onun üçün min şəhər tikərlər ki, hər bir şəhərdə min bina, və binada yüz hurisi olar. (Allahu

əkbər). Bunlardan əlavə orada onun üçün iki axar su çeşməsi, vardır, ki, hər birisi zülal kimi yerdən qaynayır, və iki çeşməsi də vardır ki, yaşıl və xorrəmlikdən qaraya çalır. Pərdə arxasındakı hurilər, pərdələnmiş otaqlarda arxasındakı hurilər, pərdələnmiş otaqlarda əyləşiblər. Hər meyvəsi iki cür müxtəlif növlü meyvəlikdən ibarət bağları vardır. ***(La hovla vələ quvvətə illa billah).***

Übəyy ibn Kəb Allahın Rəsulundan (s.ə.v.v) nəql edir ki, Həzrət belə buyurdu: Hər kəs Zumər surəsini oxusa, onun ümidi qırılmayıb, qorxanların (Allahdan qorxan kəslərin) savabını ona əta edərlər.

Ayişə deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) Bəni İsrail və Zumər surəsini oxumamış yatmazdı.

Hər kəs onu yazıb öz qoluna bağlasa, xaliqin nəzərində sevimli və həmdə xalq ona kömək edərlər.

## ***“Mömin” surəsi***

Əbis Səbah Kənanidən nəql olunub ki, imam Baqir (ə) belə buyurdu: Bir kəs hər gecə "ha-mim" Mömin surəsini oxusa, Allah onun keçmiş günahlarının (cavanlıqda və qocalıqda) hamısını bağışlayar, təqva kələməsini və Allahpərəstliyi onun həmdəmi edər. Axirətin dünyasından daha yaxşı qərar verər.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bir kəs Behişt boğlarında gəzmək istəyirsə, əvvəli "Ha-mim "-lə başlayan surələri oxusun. Ənəs ibn Malik Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Hər bir şeyin cövhəri vardır, və Quranın cövhəri isə (ha-mim) surələridir. (ha-mimlə başlayan surələr.). İbn Məsud Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət buyurdu: Hər zaman "ha-mim" surələrini oxuyub, diqqət etdim, elə bilki, xorrəm bağlarda qərar tapdım. Übəyy ibn Kəb deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs ham-mim Mömin surəsini oxusa, bütün möminlərin və

Peyğəmbərlərin ruhu ona namaz qılarlar, və onun üçün bağışlanmaq tələb edərlər. Əbu Bəsir Həzrət Sadiqdən (ə) nəql edib ki, o Həzrət belə buyurdu: Ha-mimlə başlanan surələr Quranın reyhanıdırlar, belə isə bu surələri oxuyub, qorumaqla Allaha sitayiş etməklə, ona şükr edin. Bir Allah bəndəsi kimi yerindən qalxıb ha-mimlə başlanan surələri oxusa, onun ağzından müşk iy xaric olar. Allah onu oxuyana, qonşularına, dostlarına, rəhm edib, bağışlayar. Hər kəs ona dostluğunu izhar edib ona yaxın olsa, Qiyamət günündə ərş, kürsi, Allahın müqərrəb mləkləri onun üçün bağışlanmaq istəyirlər.

Ənəs ibn Malik Allahın Rəsulundan (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Ha-mim-lər Quranın zinətidir. İbn Əbbas deyir: Hər bir şey özəyi (içi) vardır, Quranın özəyi ha-mim (ha-mimlə başlayan surələr) surələrdir.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Ha-mimlər yeddi ədəddir, və həmçinin Cəhənnəmin qapıları da yeddi ədəddir. (Cəhənnəm, Hutəmə, Ləzi, Səid, Səqər, Haviyə, Cəhənnəm). Qiyamət günündə bu surələr gəlib hər qapının qarşısında dayanar, və onları oxuyan kəsi Cəhənnəmə aparmpğa qoymaz.

Yaralılar şifa tapmaq üçün bu surəni yazıb özündə saxlasa, Allah Cəlilur-rəhmənin izni ilə şifa tapar.

## ***“Fussilət” surəsi***

Zərih Məharibdən nəql olunub ki, Həzrət Sadiq (ə) belə buyurdu: Hər kəs ha-mim Səcdə surəsini oxusa, Qiyamət günündə elə göz baxdıqca görünən bir nura sahib olub, şad və xoşhal olacaq. Bu dünya da elə gözəl bir həyat tərzi keçirər ki, görənlər onun arzusunda olarlar.

Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Hər kəs ha-mim Səcdə surəsini oxusa, onun hər hərfinin sayı qədər ona həsanat veriləcəkdir.

Fussilət surəsini yazıb, yağış suyu ilə yuyub, onun suyu ilə sürmə düzəldib, gözünə çəksə, göz ağrısı üçün faydalı olar.

## ***“Şura” sursi***

Seyf ibn Öməyrədən nəql olunub ki, imam Sadiq (ə) belə buyurdu: Hər kəs ha-mim-əyn-sin-qaf, surəsini (Şura surəsini) oxumağa davam etdirsə, Allah Qiyamət günündə onu qor üzlü kimi, (yaxud on dörd gecəlik ay kimi Allahın dərgahında dayanar, və Allah ona xitab edər ki, ey mənim bəndəm, sən bu surəni oxumağı davam etdirdin, və onun saıvabının nə qədər olduğunu bilmirdin. və savabının nə qədər olduğunu bilsəydin, heç vaxt onu oxumaqdan yorulmazdın. İndi isə səni bu surənin dəyərindən xəbərdar edəcəyəm. O zaman onu Behiştə daxil etməyin fərmanını verər. Onun üçün Behiştdə qapıları, bürcləri, və pillərinin hamısı qırmızı yaqutdan, hazırlanmış bir saray vardır. Onun (evin) içərisi, eşikdən eşiyi isə daxildən görünər. Onun üçün o sarayda (Behiştin Huri qız kənizləri) min nəfər xidmətçi qadın və min nəfər təzə ayaq açmış uşaqlar vardır ki, Allah Quranda vəsf etdikləri kimi həmişə o qəsrdə bir haldadırlar.

Übəyy ibn Kəb Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) nəql edib ki, Həzrət belə buyurdu: Hər kəs ha-mim-əyn-sin-qaf (Şura) surəsini oxusa, Mələklər onlara salam göndərmş və onlar üçün bağışlanmaq və rəhmət tələb edən, şəxslərdəndirlər.

Hər kəs onu yuyub yesə, az ssusuz olar. Əgər bu surəni yazıb gecə yatan zaman balışının altına qoysa, yaxşı yuxular görər.

## ***“Zuxfur” surəsi***

İmam Baqir (ə) buyurdu: Hər kəs Zuxfur surəsini çox oxusa, o, Allahı qarşısında qalxacağı günə kimi qəbir-də Allah onun cəsədini həşaratlardan, yırtıcılardan və qəbrin sıxıntısından qoruyacaqdır. O Qiyaməki dayanacağı yerdə hazır olacaq və

ozaman Zuxruf surəsi gəlib Allahın əmri ilə onu Behiştə daxil edəcək.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Zuxruf surəsini oxusa, Qiyamətdə onlara belə deyiləcək kəslərlə birlikdə olacaqdır. Ey mənim bəndələrim, bu gün qəmlənib, özünüzü qorxutmayın, siz hesab çəkilməmiş Behiştə daxil olun.

Hər kəs bu surəni özündə saxlasa, hər şərdən və afətdən qorunmuş olar. Yatan zaman hər kəs bu surəni başının altına qoysa, yaxşı yuxular görəcək.

Hər kəs aşağıdakı ayəni yazıb, yağış suyu ilə yusa, və acı dilli qadına yedizdirsə, Allahın izni ilə şirin dilli olar, və həmçinin bu surənin özünü də.

Ayə: *"La xəvfun ələykumul yəvmə vəla əntum təhzənun. Udxulul Cənnətə əntum və əzvacukum tuhbərun."* (Zuxruf 68-70).

## ***<u>“Duxan” surəsi</u>***

İmam Baqir (ə) buyurdu: Hər kəs Duxan surəsini vacibi və yaxud nafilə (müstəhəb) namazlarında oxusa, Allah onu Qiyamət günündə amanda qalmışlar zümrəsində qaldırarlar, öz ərşinin kölgəsində ona yer verər, hesabını asan çəkər, və onun əməl naməsini sağ əlinə verər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs cümə axşamı Duxan surəsini oxusa, o, bağışlanacaqdır. Əbu Hurəyrə Allahın Rəsulundan (s.ə.v.v) nəql edir ki, Həzrət buyurdu: Hər kəs gecə Duxan surəsini oxusa, yetmiş min dəfə oxusa, yetmiş min mələk onun üçün bağışlanmaq tələb edən halda sübhü açar. Yenədə Əbu Huriyrə Nəbiyyi-Əkrəmdən (s.ə.v.v) rəvayət edib ki, o Həzrət belə buyurdu: Hər kəs cümə axşamı Duxan surəsini oxusa, bağışlanmış halda sübhü açar. Əbu İmamə Allahın Rəsulundan (s.ə.v.v) nəql edir ki, Həzrət belə buyurdu: Hər kəs cümə günü Duxan surəsini oxusa, Allah Behiştdə onun üçün bir ev tikəcəkdir.

Hər kəs bu surəni yazıb özündə saxlasa, camaatın nəzərində heybətli olar. Hər kəs onu yazıb, yuyub suyunu içsə, söz gəzdirənin şərrindən amanda qalar.

İmam Cəfər Sadiqdən (ə) nəql olunub ki, hər kəs əhəmiyyətli, və çətin işlərdən ötrü bu surəni yetmiş dəfə oxusa, hacəti rəva olar. Həmçinin hər kəs bu surəni yazıb özündə saxlasa, xalq onu sevər.

Duxan surəsini yazıb, balaca uşağa bağlasan, cinlərdən və ziyanvericilərdən amanda qalar.

## ***“Casiyə” surəsi***

İmam Sadiq (ə) buyurdu: Casiyə surəsinin oxuyan kəsin savabı bundan ibarətdir ki, o heç vaxt Cəhənnəm atəşini (odunu) görməz, onun gurultulu nərəsini eşitməz və Məhmmədlə (s.ə.v.v) bir yerdə olar.

Həzrəti-Rəsul (s.ə.v.v) buyurdu: Hər kəs ha-mim Casiyə surəsini oxusa, Allah hesab və Qiyamət günü onun övrətini örtər, və onun qorxmasını aradan aparar.

Hər kəs bu surəni yazıb özündə saxlasa, qorxduğu bütün şeylərdən amanda qalar. Həmçinin bu surəni yazıb başının altında qoysa, cinlərin şərrindən qorunar.

## ***“Əhqaf” surəsi***

İmam Sadiq (ə) buyurdu: Bir kəs hər gecə və yaxud həftədə bir dəfə Əhqaf surəsini oxusa, Allah onu bu dünyada qorxu və iztiraba düçar etməz, Qiyamət gününün qorxusundan da amanda qalar, inşəllah.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Əhqaf surəsini oxusa, dünyada olan qumların sayı qədər ona həsanat veriləcək, onun on pis işini (günahını) məhv edib, ona on dərəcə veriləcək.

## ***“Muhəmməd” surəsi***

İmam Sadiq (ə) buyurdu: Hər kəs əlləzinə kəfəfu (Muhəmməd) surəsini oxusa, heç vaxt şəkk etməz. Onun qəlbində heç vaxt dininə aid bir şəkk-şübhə yol tapmaz. Allah heç vaxt onu yoxsulluqla, və zalım padşahdan qorxmaqla giriftar etməz. O, həmişə şəkdən və küfrüdən amandadır. Necə ki, o vəfat etdi, Allah qəbrində min mələyi onun qəbrində namaz qılmağa hazır edər və savabını onun üçün hədiyyə edərlər. Qəbirdən qaldırılanda onu Allah əzzə və cəllənin hüzuruna qədər müşayiət edərlər. İmam dayanacağında onu saxlayarlar. O Allahın və Rəsulu Məhəmmədin (s.ə.v.v) amanında (lütfü nəzərində) olacaqdır.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Muhəmməd (s.ə.v.v) surəsini oxusa, ona Behişt arxlarındna içir-tmək Allah üçün vacibdir. Əbu Bəsir imam Sadiqdən (ə) nəql edib ki, o Həzrət belə buyurdu: Hər kəs Muhəmməd (s.ə.v.v) surəsini oxusa, heç vaxt dinində şəkk olmaz, O, həmişə şirkdən və küfrüdən qorunacaq, və o halda dünyada köçəcək. Vəfatından sonra Allah min mələyi məmur edəcək ki, qəbrində namaz qılıb, savabını ona bağışlasınlar. Allaın dərgahına əmin yerə aparılana qədər onunla birlikdədirlər. O Allahın və Peyğəmbəri Məhəmmədin (s.ə.v.v) amanında olacaq. Yenə də imam Sadiq (ə) buyurdu: Hər kəs bizim və düşmənlərimizin halından xəbərdar olmaq istəyirsə, Muhəmməd (s.ə.v.v) surəsini oxuması gərəkdir. Çünki bu surəni dünyada bir ayə bizim və bir ayə düşmənlərimizin haqqında olduğunu görəcəkdir. Düşmənə zəfər (qələbə) çalmaq niyyəti ilə və həmçinin qorumamaq üçün bu surəni oxusun.

## ***“Fəth” surəsi***

İmam Sadiq (ə) buyurdu: Malınızı həyat yoldaşlarınızı, və qullarınızı Fəth surəsini oxumaqla məhv olmaqdan qoruyun, və sığorta edin. Çünki hər vaxt onu oxuyan bu surəni çox oxuyan kəslərdən olsa, Qiyamət günündə Allah tərəfindən carçı bir dəstəyə elə nida edər ki, bütün camaat eşidər, o deyər: Sən mənim xüsusi bəndələrimdən olmusan, onu mənim ləyaqətli bəndə-lərimə qovuşdurun, onu həmişəlik olan Behiştə daxil edin, əl dəyməmiş və Behişt kafuruna qarışdırılmış dadlı şərbətlərlə onu sirab edin.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Fəth surəsini oxusa, mənimlə Məkkənin fəthində iştirak etmiş, kəs kimidir. Başqa bir rəvayətdə gəlib ki, O, Həzrət Məhəmmədlə (s.ə.v.v) ağacın altında beyət etmiş kəs kimdir. Ömər ibn Xəttab deyir: Səfərlərin birində Peyğəmbər-Əkrəmlə (s.ə.v.v) birlikdə idik, Həzrət buyurdu: Dünən gecə mənə elə bir surə (İnna fətəha.. axıra kimi) nazil oldu ki, dünyada və onun içindəkilərdən daha yaxşıdır. Bu rəvayəti Buxari öz səhihində (kitabında) qeyd edib. Qutadə Ənəsdən nəql edir ki, Hüdeybiyyə müharibəsindən qayıtdığımız vaxt, Həcc əməlini yerinə yetirməyimizin qarşısını aldılar. Bu hadisədən bizim hamımız çox qəmgin və narahat idik ki, gözlənilmədən Allah bunu nazil etdi. *"İnna fətəhna ləkə fəthən mubinən."* Allahın Peyğmbəri (s.ə.v.v) buyurdu: Mənə elə bir ayə nazil oldu ki, nəzərimdə bütün dünyadan üstündür.

Cismi (can) ağrılar üçün bu ayələri yazıb onu yuyub, suyunu için, və yaxud bunları özündə saxlayın. *"İnna fətəhna ləkə fəthən mubinən. Liyəğfirə ləkəllahu ma təqəddəmə min zənbikə vəma təəxxərə və yutimmə nemətəhu ələykə və yəhduyəkə siratən mustəqimən. Və yənsurəkəl-lahu nəsrən əziəzən."* (Fəth-1-3).

Şənbə günündən başlayıb, hər gün beş dəfə bu surəni oxusun, və cümə günü bunu on bir dəfə oxusun, və hər dəfə oxuyub qurtardıqdan sonra *"İza caə nəsrullah"*-ı bir dəfə

oxusun. Axırıncı dəfəni oxuyub, Allahdan öz hacətini istəsin. (Çox təcrübə olunub).

*"Ya mufəttihu yəssir. Ya mufərricu səhhil.Ya mutəmmimu təmmim. Birəhmətikə ya ərhəmər-rahimin."*

(Ömrünüzdə bir dəfə bu xətmi (surəni) yerinə yetirin).

Ya qüsl edin qırx bir gün hər gün qırx bir dəfə oxusun. Birinci, ikinci, üçüncü, otuzuncu, qırx və qırx birinci günləri oruc tutsun. Qırx birinci gündə isə işriyyat ilə iftar edib (yemək yeyib), sədəqə versin.

Yaxud Şənbə günündən başlayıb birinci gün bir dəfə, Çərşənbə axşamı günündən başlayıb birinci gün bir dəfə, ikinci gün iki dəfə, üçüncü gün üç dəfə qırx birinci günə kimi davam edib, ikinci, üçüncü, otuzuncu, və qırx birinci günləri oruc tutub, sədəqə verməyi unutmasın.

Fəth surəsinin əvvəlindən *"İnna fətəhna"*dan başlayıb yeddinci ayəyə *"Əzizən Həkimən"*-ə kimi zəfəran suyu ilə bir qızın paltarına yazsan, ona ər tapılar.

## ***“Hucurat” surəsi***

İmam Sadiq (ə) buyurdu: Hucurat surəsini hər gecə yaxud, hər gün oxuyan kəs, Məhəmmədin (s.ə.v.v) zəvvarından olacaqdır.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Hucurat surəsini oxusa, Allahı itaət edənlərin, və yaxud onu itaət etməyənlərin sayı qədər ona, on yaxud onu itaət etməyənlərin sayı qədər ona, on həsənə veriləcək.

Hər kəs (sər) əsəb xəstəliyinə düçar olsa, Hucurat surəsini yazıb özündə saxlasa, lənətlənmiş Şeytan oradan qaçar.

## ***“Qaf” surəsi***

***(Basiqat)***

İmam Məhəmməd Baqir (ə) buyurdu: Hər kəs Qaf surəsini vacibi və müstəhəbbi namazlarında oxumağı davam etdirsə, Allah onun ruhisini bol edər, Əməlnaməsini sağ əlinə verib, hesabını asan çəkər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Qaf surəsini oxusa, Allah onun üçün ölümün çətinliyini asanlaşdırar.

Rizq və ruzinin bol olmasına xatir üç gün üzünü qibləyə tutub bu surəni oxusun çox təsiri vardır (təcrübə olunub).

Qorxu və hürkünü aradan aparmaq üçün bu surəni yazıb, yağış suyu ilə yuyub, içsin.

Rəvayət olunub ki, hər gün evdə yaxud müqəddəs bir məqbərədə Qaf surəsi oxusa, o evin ya məqbərinin sahibi həmişə dövlətli, izzətli, və xoşbəxt olar, o zillətdən qorunar. Təcrübə olunumlardandır.

Dövlətli olmaq və işlərin düyünlərinin açılması üçün bu ayəni 350 dəfə oxusun ki, təcrübə olunub.

*"Qul innəl fəzlə biyədillahi yutihi mən yəşau Vəllahu zulfəzlil əzim."* (Ali-İmran-73)

Bu ayəni gündə on beş dəfə oxusun, əziz olub, ruzisi bol və cah və cəlal (məqam və mənsəb) sahibi olar.

*"Ya əllahul məhmud fi kulli fialihi"*

Sərvətli olmaq üçün iki rükət hacət namazını, bu niyyətlə ki, qadir Allah onun yaşayışını tənzimləyib ruzini bol edər, və elə bir nura bağlıdır ki, qiyamətə qədər işıqlanıb, qəbrini nurlandırar.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Zariyat surəsini oxusa, dünyada sən hər bir küləyin sayı qədər ona həsənə veriləcək.

Hər gün Zariyat və İnşirah surəsini oxuyan kəsin işlərinin sonu xeyrə qovuşar, özünün və ailəsinin ruzisi çoxalar. (təcrübə olunub).

## ***“Tur” surəsi***

İmam Sadiq (ə) və imam Baqir (ə) buyurdular: Hər kəs Tur surəsini oxusa, Allah ona dünya və axirət xeyrini əta edər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Tur surəsini oxusa, Allah onu öz əzabından amanda saxlayar, və Behiştində ona nemət verər. Cübəyr ibn Mətəmdən rəvayət olunub o deyir ki, Allahın Rəsulundan (s.ə.v.v) gün batan çağı Tur surəsini oxuduğunu eşitdim.

Əgər məhbus (zindanda) Tur surəsini daim oxusa, həbsdən azad olar.

## *“Nəcm” surəsi*

İmam Sadiq (ə) buyurdu: Hər kəs və gündüz Nəcm surəsini oxumağı davam etdirən kəs, xalq arasında əziz olub abırla yaşayar, və günahları bağışlanar.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Nəcm surəsini oxusa, mənə iman gətirən və məni inkar edən kəslərin sayı qədər həsənə veriləcək.

Bu surəni hər kəs gecə və gündüz oxuyan kəsin yaşayışı bəyənilmiş olar. Hər hacətin qəbul olmasına xatir, bir məclisdə bu surəni iyirmi bir dəfə oxusa, inşallah hacəti qəbul olunar.

## *“Qəmər” surəsi*

İmam Sadiq (ə) buyurdu: Hər kəs *"İqtərəbətis-saət"* (Qəmər) surəsini oxusa, Allah Qiyamət günü onu Behişt dəvələrindən birinə minmiş halda məşhərə daxil edər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: *"İqtərəbətis-saət"* (Qəmər) surəsini hər gün oxumağı davam etdirən kəsin sifəti Qiyamət günündə on dörd gecəlik ay kimi olan halda qaldırılar. Bir kəs onu gecələr oxuya çox yaxşıdır və Qiyamət günündə onun üzü başqalırının üzündən işıqlı və nurlu olan halda gələcəkdir.

Hər kəs cümə günü Zöhr namazının vaxtında bu surəni yazıb əmmaməsinin altına qoysa, (yaxud özündə saxlasa) xalq arasında əziz və hörmətli olar.

## *“ər-Rəhman” surəsi*

### *(Alai)*

İmam Sadiq (ə) buyurdu: Namazlarınızda "ər-Rəhman" surəsini oxumağı tərk etməyin. Çünki qərar tapmaz. Qiyamət günü Allah onu ən gözəl və xoş iyli adamlar sifətində gətirər, və elə bir yerdə dayanar ki, Allaha nisbət ondan yaxında heç kəs dayanmaz. O zaman Allah ona xitab edər: Səni oxuyanlar kimlərdir, və namazda həmişə səni tilavət edərdilər? Sonra o deyər: Filan və filan. Beləliklə onların çöhrəsi ağ və nurlu olar, və onlara (onu oxuyanlara) deyər, hər kimi istəyirsiniz şəfaət edin. Onlar da bacardıqları qədər şəfaət edərlər, və bir kəs nəzərdən kənarda qalmaz. Sonda Allah buyurar, Behiştə daxil olun, və onun hansı yerində istəyirsiniz özünüzə mənzil seçiniz.

2-İmam Sadiq (ə) buyurdu: Hər kəs "ər-Rəhman" surəsini oxusa, və hər dəfə *"Fəbiəyyi alai rəbbikuma tukəzziban"* ayəsini oxuyandan sonra, "*La bişəyin min alaikə rəbbi ukəzzib"* cümləsini (yəni *"Ey pərvərdigar, mən Sənin nemətlərinin heç birini təkzib etmirəm"*) gecə yaxud gündüz oxuyub dünyadan köçsə, şəhid kimi şəhid kimi ölmüşdür.

3-Nəbiyyi-Əkrəm (s.ə.v.v.) buyurdu:Hər kəs ər-Rəhman surəsini oxusa, Allah onun zəifliyinə və gücsüzlüyünə görə ona rəhm edər. Allahın ona verdiyi nemətlərin şükrünü yerinə yetirmişdir. Həzrət Musa ibn Cəfər (ə) hörmətli atalarından, onlar da peyğəmbərdən (s.ə.v.v.) rəvayət edib ki, O həzrət belə buyurdu: Hər bir şey üçün gəlin vardırsa, Quranın da gəlini ər-Rəhman surəsidir.

Həmmad ibn Osman deyir ki, Həzrət Sdiq (ə) belə buyurdu: Bütün kişi və qadınlara cümə günündə Ərrəhman surəsini oxumaq lazımdır. Belə isə hər zaman bu surəni oxuyanda, *"Fəbiəyyi alai rəbbikuma tukəzziban"* ayəsini oxudu, *"La bişəyin min alaikə ya rəbbi ukəzzib"* cümləsini desin. O Həzrət yenədə buyurdu: Bir kəs cümə axşamı ər-Rəhman surəsini oxusa və hər dəfə *"Fəbiəyyi alai rəbbikuma tukəzziban"* ayəsini oxuyandan sonra *"La bişəyin min alaikə ya rəbbi ukəzzibu"* cümləsini desə, Allah onun üçün bir mələk müvəkkəl edər ki, əgər o bu surəni gecənin əvvəlində oxuyubsa, sübhə kimi onu qoruyarlar. Əgər o bu surəni sübh vaxtı oxuyubsa, bir mələyin gecəyə qədər onu qorumağını buyurar.

Doğuşun asan olmasına xatir bu ayəni yazıb hamilə qadının belinə bağlasınlar, və doğuşdan sonra isə onu açsınlar. (təcrübə olunub). *"Sənəfruğu ləkum əyyuhəs-səqəlan. Fəbiəyyi alai rəbbikuma tukəzziban"* (ər-Rəhman-31-32). Hacətlərin qəbul olunmasına və dərəcələrin yüksəyə qalxmasına xatir həftə ərzində bu yeddi surəni hər gündə dörd dəfə nə az və nə çox oxusa, mətləblərinə nail olar, İnşaallah. Şənbə günü Fəth surəsini, yekşənbə günü Yasin surəsini, düşənbə günü Vaqiə surəsini şənbə günü Qul uhiyə (Cin) surəsini pəncəşənbə günü, Təbarək (Furqan surəsini) cümə günü Əlif-lam-mim səcdə surəsini oxusun.

## ***“Vaqiə” surəsi***

İmam Sadiq (ə) buyurdu: Hər cümə axşamı Vaqiə surəsini oxuyan kəsi Allah sevər, və həmçinin onun məhəbbətini xalqında yaşadığı müddətdə bədbəxtlik yoxsulluq görməz, dünyada ona bir ziyan dəyməz. O Əmirəl-mömininə (ə) nisbət bir xususiyyəti vardır ki, başqaları onda şərik deyillər.

İmam Sadiq (ə) buyurdu: Hər kəsin Behiştə və onun necəliyini bilməyə marağı vardırsa, Vaqiə surəsini oxusun. Və

hər bir kəsin Cəhənnəm odunun necəliyini bilmək istəyirsə, Loğman surəsini oxumağı gərəkdir.
İmam Məhəmməd Baqir (ə) buyurdu: Hər kəs gecə yatmazdan əvvəl Vaqiə surəsini oxuyan kəs, çöhrəsi on dörd gecəlik ay kimi nur saçan halda Allahı dərk edər.
Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Vaqiə surəsini oxuyan bir kəs qəflət əhlindən olmaz. Məsruqdan rəvayət olunub ki, o belə deyir: Keçmişdəkilərdən, Behişt əhlindən, Cəhənnəm əhlindən, dünya və axirətdən bir xəbər öyrənmək istəyən kəs Vaqiə surəsini oxusun. Rəvayət olunub ki, Osman ibn Əfan, Əbdüllah ibn Məsudun halını yoxlamaq üçün onun yanına gəldi. Lakin Əbdullah ibn Məsud həmin xəstəliklə dünyadan köçdü. Ölümündən qabaq Osman ona deyir: Nədən şikayətin var? O (Əbdullah dedi: Günahlarımdan. Osman dedi: Nə istəyirsən? Əbdullah dedi: Həkim məni xəstələndirdi. Osman dedi: Beytülmaqdan payının verilməsini əmr verməyimmi? Əbdullah dedi: Ehtiyaclı olduğum gün məni ondan məhrum etdin, və mənim ona bu gün ehtiyacım olmayan halda onu mənə vermək istəyirsən. Osman dedi: Onda qoy qızlarına qalsın. Əbdullah dedi: Onların da mal və bəxşeşə ehtiyacı yoxdur. Çünki mən Vaqiə surəsini daim (həmişə) oxumağı onlara göstəriş vermişəm, və özüm Peyğəmbərdən (s ə v v) eşitmişəm ki, o Həzrət buyurdu: Vaqiə surəsini hər gecə oxuyan kəs heç vaxt əqir və ehtiyaclı (heç bir dərdə) olmaz. (təcrübə olunmuş xətm) qırx gecə, və hər gecə Vaqiə surəsini bir dəfə, Muzzəmmil surəsini bir dəfə, Ləyl surəsini bir dəfə, İnşirah surəsini bir dəfə oxusun. Bu surələri oxuyandan sonra aşağıdakı duanı oxusun. Bu xətm borcu ödəmək və hacətin tez qəbul olunması üçün təcrübə olunu.
*"Ya rəziqəs-sailin. Ya rahiməl-məsakin. Ya vəliyyəl-mömininin. Ya ğiyasəl mustəğisin. Ya ərhəmər-rahimin. Səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəkfini həlalikə ən həramik. Və bita ətikə ən məsiyətik. Vəbifəzlikə əmmən sivakə ya ilahəl aləmin. Və səllahu əla Muhəmmədin vəalihi əcməsin."*

Aşağıda qeyd etdiyimiz xətm, ruzinin bol, və məişətin yaxşılaşmasında (Ömrünüzdə bir dəfə hökmən bu xətmi yerinə yetirin çox böyük təsiri olacaqdır.) (çox təcrübə olunub) Şənbə gecəsindən başlayıb, və hər gecə üç dəfə oxusun, lakin istisna olaraq cümə axşamı səkkiz dəfə oxusun. Bu dəfə bu surəni oxumazdan əvvəl aşağıdakı duanı oxusun.
*"Allahummərzuqna rəzqən həlalən təyyibən min ğəyrikə. İstəcib dəəvətuna min ğəyri rəddi, və Əuzu minəl fəzihətəynil fəqru vəddəyni. Vədfi ənni hazəyni bihəqqil imaməynil həsən vəl hüsəyni ələyhiməssəlam. Birəhmətikə ya ərhəmərrahimin."*
Gündəlik namazlarda, şam namazından sonra Vaqiə surəsini, İşa namazından sonra Təbarəkəl-ləzi surəsini bir dəfə, sübh namazından sonra Yasin surəsini, Zöhr namazından sonra Əmmə yətəsaəlunu (nəbəə) surəsini, əsr namazından sonra inna fətəhna (Fəth) surəsini, oxusa, hacəti qəbul olunar.

## *"Hədid" surəsi*

İmam Sadiq (ə) buyurdu: Hər kəs vacibi namazlarında hədid surəsini oxumağı davam etdirsə, Allah onu yaşadığı müddətdə heç əzab etməz, özünün və ailəsinin canı heç bir xəstəlik görməz.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs hədid surəsini oxusa, Allaha və Peyğəmbərə iman gətirmiş şəxslərdən olar. Ərbaz ibn Sariyə deyir: Peyğəmbər yatmazdan əvvəl müsəbbəhatı (Hədid-Həşr-Səf-Cümə-Təğabun-Səbbih ismə rəbbikəl əla surələrini) oxuyardı. Əmr ibn Şümr, Cabir ibn Yəzid Cəfidən o da, Həzrət imam Məhəmməd Baqirdən (ə) rəvayət edib ki, o Həzrət belə buyurdu: Yatmazdan əvvəl müsəbbihatı oxuyan kəs Həzrət Qaimi (əc) dərk etməmiş ölməz. Və əgər ölsə, Allahın Rəsulunun (s.ə.v.v) qonşuluğunda olacaqdır. (sonrakı hədislərə müraciə edin).

Dəstəmaz aldıqdan sonra cümə günündə yeddi dəfə Hədid surəsini oxusun və sonda bu duanı desin. *"Allahummə inni*

*əsəlukə biizzətikə ya əziz və biqüdrətikə ya qədir. və bihukumətikə ya həkim. Və birəhmətikə ya rəhman, Və bimənnikə ya mənnan, ən təhfəzəna bilimani qaimən qaidən rakiən, və sacidən, və nadimən, və yəqzətən və həyyən, və məyyitən. və əla kulli hali. Əuzu billahi min şərri nəfsi. və min kulli zi şərrin. və min şərri şəyatinil cinni və linsi və min şərri kulli dabbətin əntə axuzu bina məyyitəha inn rəbbi əla siratin mustəqim. və səllallahu əla muhəmmədin və alihi əcməin."*

## ***“Mucadilə” surəsi***

***(Əzzihah, qəd səmiə)***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Mucadilə surəsini oxuyan bir kəs Qiyamət günündə hizbullah ünvanında qələmə alarlar.

Sələbidən nəql olunub ki, Davud Peyğəmbər (s) öz münacatlarında deyərdi: Kimlər sənin partiyandır? Nida gəldi: Gözlərini naməhrəmlərdən yumanlar, xalqı əziyyət etməyənlər, haram mal yeməyənlər, və Allahdan başqasından qəlblərini pak edənlər, bunlar mənim partiyamdandırlar, və ərşin xidmətçiləridirlər.

Bu surəni oxuyan şəxsə bir kəs qalib gələ bilməz, onunla mubahisə edə bilməz, və xalqın gözündə etibarlı və inanılmış şəxslərdən olar.

Düşmənə qələbə çalmaqdan ötrü,  bir ovuc torpağa bunu üç dəfə oxuyub, düşmənə tərəf atsa, düşmən məğlub olar. Əgər bu surəni oxusalar ağrı sakitləşər.

Allahın Rəsulu (s.ə.v.v) Bir kəs yatan zaman otuz ayədən ibarət (Mucadilə və Mülk) olan surələri oxusa, o şəxs üçün otuz xeyirxahlıq yazılar, və otuz pislik onun əməllərindən məhv olunar, və onun üçün otuz dərəcə qaldırılar. Allah-taala onu oxuyan yanına mələklərin arasından mələk göndərər ki, qollarını açıb onu əhatə edərək yuxudan oyanana qədər hər bir xətərdən qoruyarlar.

## ***“Həşr” surəsi***

1-Həzrət Sadiq (ə) buyurdu: Gecələr Rəhman və Həşr surəsini oxuyan kəsin evinə sübhə qədər gözətçilik etmək üçün əlində siyirmə qılıncı olan bir mələk göndərər.

2-Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Həşr surəsini oxyuyan kəsə, Behişt, Cəhənnəm, ərş, kürsü, hucub, göyün yeddi təbəqəsi, yerin yeddi qatı, hava, küləklər, quşlar, ağaclar, dağlar, günəş, ay, mələklər, salam göndərər, və onun üçün bağışlanmaq tələb edərlər. Əgər o həmin gün və yaxud gecə ölsə, şəhid kimi dünyadan getmişdir.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Allahın əzəmətli adları Həşr surəsinin altı sonuncu ayəsindədir. Və həmçinin Həzrət buyurdu: Hər kəs Həşr surəsinin sonuncu ayələrini gecə yaxud gündüz oxusa, və həmin gün və yaxud gecə ölsə, Allah-taala onu Behiştə aparar.

İmam Cəfər Sadiqdən (ə) nəql olunub ki, hər kəs bu surəni çətinliklərin aradan qaldırılmasına və hacətlərinin qəbul olunmasına xatir qırx gün və hər gündə bir dəfə oxusa, hacəti tezliklə verilər, və duaları qəbul olunar,

Peyğəmbər Əkrəm (s.ə.v.v) Əli (ə) buyurdu: Ya Əli: Hər gecə Həşr surəsini oxu ki, dünya və axirət şərri səndən dəf olar.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Cəbraildən Allahın əzəmətli adları barədə soruşdum. O dedi: Həşr surəsi-nin sonunu oxu. İkinci və üçüncü dəfə Allahın əzəmətli adları haqqında soruşdum, o yenə də həmin sözü dedi.

Məqəl ibn Yəsar bir hədisdə deyir: Hər kəs sübh desə: *"Əuzu billahi əssəmil əlim minəl-şəytanir-rəcim."*, və Həşr surəsinin sonuncu ayələrini (ləv ənzəlna hazəl Quranə….. 21-24) oxusa, Allah taala bütün bəlalardan qorunmaq üçün yetmiş min mələyi ona müvəkkəl edər, və onlar gecəyə qədər onun sələvat göndərərlər. Əgər o həmin gün ölsə, şəhid kimi ölmüşdür, və Qiyamətdə möminlərin hamısı ona şəfaətçi

olarlar. Bu surənin sonuncu ayələri hər bir əlacsız dərdə dərmandır.

Bu surəni xalis niyyətlə xəstəyə oxusanız inşallah şifa bağışlayar.

Deyirlər ki, bu ayəni çahar şənbə günü yetmiş dəfə oxusa, elm və qələm əhlinə qələbə çalar, bağlı qapılar açılar, və hacətləri qəbul olunar.

*"Huvəllahul-ləzi la ilahə illa zuvə, alimul ğəybi vəşşəhadəti, huvər-rəhmanur-rəhim."* (Həşr-22) və həmçinin mühüm işlərə xatir bu ayəni səksən dəfə oxusa, çox faydalı olar.

## ***“Mumtəhənə” surəsi***

***(əl-imtihan, əlməddə)***

Əli ibnil Hüseyn (ə) buyurdu: Bir kəs gündəlik vacibi və müstəbbi namazlarınızda Mumtəhənə surəsini oxusa, Allah onun qəlbini imanla imtahana çəkər və gözlərini nurlu edər. Fəqirlik, dəlilik ona və övladlarına yol tapmaz.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Qiyamət günündə Mumətəhənə surəsini oxuyan kəs üçün, mömin kişi və möminə qadınlar şəfaətçi olacaqlar.

Hər cür xəstəlik üçün, üç gün dalba-dal bunu (Mumtəhənə surəsini) yazsın və hər gün birini yusun, sonra onu içmək üçün dərdi olana versin, ki inşaallah o dərddən sağalar.

Asmanı (təngənəfəsi) müalicə etmək üçün bu ayələri oxusun və xəstəyə yedizdirsin: *"Və in fatəkum şəyun min əzvacikum iləl kuffari. fəaqibtum, fəatul-ləzinə zəhəbət əzvacuhum mislə maənfəqqu vəttəqullahəl-ləzi əntum bihi möminun."* (Mumtəhən-11) *"Vəli-kulli vichətun huvə muvəlliha fəstəbiqul xəyrat."* (Bəqərə-147).

## ***“Səf” surəsi***

***(İsanın (ə) həvariyyunu)***

İmam Məhəmməd Baqir (ə) buyurdu: Hər kəs gündəlik vacibi və müstəhəbbi namazlarında Səff surəsini daim oxusa, Allah onu mələklərin və Mürsəl Peyğəmbərin sırasında yazar, inşallah.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs İsanın (ə) (Səff) surəsini oxusa, nə qədər ki Həzrət İsa (ə) dünyadadır ona salavat və salam göndərib onun üçün bağışlanmaq tələb edər. Bundan əlavə o Qiyamətdə də Həzrət İsanın (ə) dostu olar. (Musəlmanların əqidəsinə görə İsa (ə) ölməmişdir).

## ***“Cümə” surəsi***

İmam Sadiq (ə) buyurdu: Bizim davamçılarımızdan sayılan mömin şəxsin vacibatlarından biri də budur ki, cümə surəsini, ikinci rükətində isə səbbihismə rəbbikəl əəla surəsini oxusun. Cümə gününün zöhr namazının birinci rükətində cümə surəsini, ikinci rükətində isə münafiqun surəsini oxusun. Beləliklə əgər belə edərsə, elə bil ki, Allahın Rəsulunun (s.ə.v.v) əməlini yerinə yetirmiş və Allah dərgahında onun savabı, dəyəri Behiştdir.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Cümə surəsini oxuyan şəxsə, müsəlman şəhərlərində iştirak edən və yaxud iştirak etməyən kəslərin sayı qədər on həsənə yazılar.

Hər kəs sübh və şam Cümə surəsini oxusa, lənətlənmiş Şeytan rəcimin vəsvəsəsindən aman qalar.

## ***“Munafiqun” surəsi***

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Munafiqun surəsini oxuyan şəxs nifaq və iki üzlülükdən uzaq olar. (qabaqkı hədislərə müraciə olunsun.)

## *“Təğabun” surəsi*

İmam Məhəmməd Baqir (ə) buyurdu: Bir kəs özünün gündəlik vacibi namazlarında Təğabun surəsini oxusa, Qiyamət günü bu surə özü şəhadəti keçən bir şəxsin yanında ədalətli bir daxil edənə qədər ondan ayrılmaz.

İmam Məhəmməd Baqir (ə) buyurdu: Hər kəs müsəbbəhatın (Hədid surəsi haqqında yazılanlara müraciə edilsin) hamısını oxusa, oxumamışdan qabaq Həzrət Qaimi (ə) (imam Zamanı) dərk etməmiş ölməz. Əgər ölsə belə Allahın Rəsulunun (s.ə.v.v) pənahında və qonşuluğunda olacaqdır.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Tağabun surəsini oxusa, qəflətən ölməkdən xilas olar.

Hər kəs bu surələri (Munafiqun və Təğabun) oxuyub, (zalım) hakimin yanına getsə, onun şərrindən amanda qalar.

## *“Təlaq” və “Təhrim” surəsi*

İmam Sadiq (ə) buyurdu: Hər kəs özünün gündlik vacibi namazlarında Təlaq və Təhrim surəsini oxusa, əgər o Qiyamət günündə qorxan və qəmli olan kəslərdən olsa, Allah onu öz pənahında saxlayar, onu Cəhənnəm odundan əfv olunar və, onun zərər vericilərindən amanda qalar. Allah bu iki surəni oxuduğuna və onları qoruduğuna görə onu Behiştə aparar, çünki bu iki surə Peyğəmbərə (s.ə.v.v) məxsusdur.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Təlaq surəsini oxusa, Allahın Rəsulunun (s.ə.v.v) milləti kimi dünyadan köçmüşdür.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: *"Ya əyyuhən Nəbiyyi limə tuhərrimu ma əhəlləllahu ləkə."* Allah Təhrim surəsini oxuyan şəxsə nəsihətli tövbə əta edər.

Məhəbbətli olmaq və borcları ödəmək üçün bu ayəni iyirmi bir dəfə oxu.

*"Və mən yəttəqillahə yəcəl ləhu məxrəcən. Və yərzuqhu min həysu layəhtəsibu və mən yətəvəkkəl ələllahi fəhuvə həsbuhu. İnnəllahə baliğu əmrihi. Qəd cəələllahu likulli şəyin qədrən."* (Təlaq-3)

Yuxarıdakı ayəni (yaxud surəni) (Təlaq-3) rizq və ruzinin bol olmasına xatir üç dəfə oxuyun.

Pəncşənbə günü qüsul edib, dəstəmaz alıb, xəlvət yerdə iki rükət hacət namazı qılsın yüz dəfə salvat göndərdikdən sonra Təlaq surəsinin 3-cü ayəsini *"Və mən yəttəqillahə yəcəl ləhu məxrəcən. Likulli şəyin qədrən"* yüz əlli doqquz dəfə üzünü qibləyə tutub oxusun. Bu namazı qırx gün dalbadal qılsın, və hər namazdan sonra yüz dəfə salavat göndərməklə, Allaha yalvarmaqla Allahdan öz hacətini tələb etsin, inşaallah qəbul olunar. Sonuncu namazında yəni qırxıncı gün bu ayəni yüz yetmiş doqquz dəfə desin. Bu ayə qırx gün ərzində 380-dəfə oxumalıdır.

Giriftarçılığı aradan qaldırmaq üçün bir həftə, hər gecə işa namazından sonra aşağıdakı deyilən keyfiy-yətdə oxusun iki rükət namaz qılsın, Hər bir rükətdə bir dəfə həmdi, *"Və mən yəttillahə..... likulli şəyin qədrən."* (Təlaq) ayəsini isə iyirmi beş dəfə oxusun.

Yuxarıda deyilən ayəni (Təlaq-3) belə xətm etsəniz, yaşayışın yaxşılaşması üçün faydalıdır. Ayın əvvəlində pəncənşənbə günündən 359 dəfə oxusun, bir kəslə danışmayıb xətmi oxuyub qurtardıqdan sonra desin *"Ya fəttah. Ya rəzzaq. Ya vasi."*

Hər gün bu ayəni (Təlaq-3) *"Vəmən yəttəqillahə likulli şəyin qədrən"* üç dəfə oxusa, əvvəlində və sonunda salavağ göndərsə,

ruzisinin artmasına bağlı kilidlərin açılmasına səbəb olar. (təcrübə olunub).

Hər kəs bu surəni ilan sancmışa yaxud əsəb xəstəliyinə düçar olmuşa oxusa, şifa tapar.

Yuxulamayan bir kəs bu surəni hər gün bir dəfə oxusun. Hər kəs məhəbbət niyyəti ilə yaxud borcu ödəmək üçün bu surəni iyirmi bir dəfə oxusa, çox təsir olar, ruzinin bol olmasına xatir onu üç dəfə oxusun.

## ***“Mulk” surəsi***

### *(Əlmunciyə, Əlvağiyyət)*

İmam Sadiq (ə) buyurdu: Hər kəs *"Təbarəkəl-ləzi biyədihil Mulku"*-nu özününün vacibi namazlarını qılmazdan əvvəl oxusa, Allah amanında Behiştdə daxil olar inşaallah.

Allahın Rəsulu (s.ə.v.v) buyurub: Təbarək (Mulk) surəsini oxuyan şəxs qədr gecəsini oyaq qalıb əhya saxlayan kəs kimidir. İbn Əbbas deyir: Allahın Rəsulu (s.ə.v.v) buyurdu: *"Təbarəl-ləzi biyədihil Mulku"*-un (Mulk surəsinin) hər bir möminin qəlbində olmasını istəyirəm. Əbi Hurəyrədən rəvayət olunub ki, Nəbiyyi-Əkrəm (s.ə.v.v) belə buyurdu: Otuz ayəsi insana şəfaət etməyən surə, həqiqətdə Allahın kitabından deyildir. Beləliklə Qiyamət günündə onu Cəhənnəm odundan çıxarıb, Behiştə daxil edən surə təbarəkdir (Mulk surəsi). İbn Məsuddan rəvayət olunub ki, olü qəbrə qoyulan vaxtda, ayaq tərəfindən əzab mələyi gəlib, və sonra ona deyilər: Sizin ona əliniz çatmaz, çünki o Mulk surəsini oxuyurdu.Sonra onun baş tərəfindən gələr, onun dili deyər: Sizin ona əliniz çatmaz, çünki o mənimlə Mulk surəsini oxuyardı. O vaxt (ibn Məsud) dedi: O surə qəbr əzabından ona mane olar. Bu surə Tövratda Mülk surəsi adı ilə tanınır. Bir kəsin gecə onu oxuması daha yaxşıdır. Sidir Seyrəfi rəvayət edib ki, imam Muhəmməd Baqir (ə) buyurdu: Mulk surəsi Mumaniə (mane olan) surəsidir, çünki, o qəbr əzabına mane olur. Tövratda da Mulk surəsi adı ilə

yazılıb. Bir kəs onu gecələr oxumağı daha yaxşıdır, və onun üçün qəbr əzabından mane olacaqdır. O qəflətdə olanlardan yazılmaz, və mən (imam Məhəmməd Baqir (ə) işa namazından sonra onun nafiləsində oturan halda bu surəni oxuyaram. Əlbəttə bir kəs yaşadığı müddətdə gecə və gündüz onu oxusa, qəbirdə nəkir və nakir onun ayaq tərəfindən gələn zaman, ayaqları onlara deyər: Siz məndən yuxarı əl tapa bilməzsiniz. Çünki, bu bəndə mənim vasitəmlə qalxıb, Mulk surəsini oxumuşdur. Sonra onlar onun qarın tərəfindən gələrlər. Ölmüş qarın onlara deyər: Məndən yuxarı sizin üçün yol yoxdur, çünki bu bəndə məni Mülk surəsi üçün bir qab kimi qərar vermişdir. Onlar dil tərəfindən gələn zaman, onalara deyər, sizin ona əliniz çatmaz, çünki həqiqətən bu bəndə gecə və gündüz Mulk surəsini oxumuşdur.

## *“Qələm” surəsi*

### *(Nun vəlqələm)*

İmam Sadiq (ə) buyurdu: Hər kəs Nun vəl-qələm surəsini özünün vacibi və müstəhəbbi namazlarında oxusa, əzəmətli Allah onu həmişə çətinlik və yoxsulluğa düşməkdən qoruyar, dünyadan köçəndən sonra qəbr sıxıntısından və onun əzabından ona pənah verər.

Rəsulu-Əkrəm (s.ə.v.v) buyurdu: Nun vəl-qələm surəsini oxuyan ksə, Allah xoşəxlaq adamların savabını əta edər.

Günlərin birində Həzrət Məhəmməd Mustəfa (s.ə.v.v) Bəqi qəbiristanlığından ötüb keçəndə, belə buyurdu: Allaha and olsun, bu qəbiristan əhlinin çoxu göz yarasından ölmüşdür.

Göz yarasının sağalmasından ötrü bu ayəni yazıb özünüzdə saxlayın və həmçinin evinizdə də asın.

*"Və in yəkadulləzinə kəfəru ləyuziqunəkə biəbsarihim ləmma səmiuz-zikrə və yəqulunə innəhu ləməcnun. Vəma huvə illa zikrun lilaləmin."* (Qələm-52). Çox təsiri vardır. (qələmi götürün və indi bu ayəni yazıb, cibinizə qoyun). Həzrəti

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Göz ağrısı, dəvəni qazana, kişini isə (adamı) gora salar.

## ***“Haqqə” surəsi***

İmam Baqir (ə) buyurdu: əl-Haqqə surəsini çox oxuyun. Çünki onu vacibi və müstəhəbbi namazlarda oxumaq, Allaha və Rəsuluna iman nişanələrindəndir. Ondan əlavə bu surə Əmirəl-möminin (ə) və düşməni Muaviyə barəsində nazil olmuşdur. Onu oxuyan Allahın hesab gününü görən vaxta qədər dinsiz olmaz. (Haqqə vacibut-Təhqiq etibarı ilə Qiyamət adlarındandır.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs əl-Həqqə surəsini oxusa, Allah onun hesabını asan tutacaqdır.

Hər kim bu surənin əvvəlindən on bir ayə oxusa, Qiyamət günündə bu surə bir nur olar və onu başdan ayağa bürüyər uşaq dünyaya təzə dünyaya göz açdıqda bu surəni yuyub ona versəniz çox hafizəli olar, və Şeytanın şərr-indən amanda qalar.

Bu surəni yazıb və suyunu uşağa içirsəniz, həmin saatdan o bəlalardan və Şeytandan qorunar.

Hər kəsin şiddətli qızdırması olsa, Ləyl surəsini yazıb, yuyub, suyunu içsə, şəfa tapar.

## ***“Məaric” surəsi***

***(Səələ Sailun)***

İmam Sadiq (ə) buyurdu: Səələ Sailun surəsini çox oxuyun. Çünki hər kəs onu çox oxusa, Allah Qiyamətdə onun etdiyi günahdan soruşmaz, və Behişə ona Nəbiyyi-Əkrəm (s ə v v) və əhli beyti ilə birlikdə yer verər, inşaallah.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Səələ Sailun surəsini oxusa, Allah ona əhdə və əmanətə riayət edənlərin və həmçinin namazlarını qoruyanların savabını əta edər.

Übəyy ibn Kəb Allahın Rəsulundan (s.ə.v.v) rəvayət edir: Hər kəs Məaric surəsini oxusa, Allah namaz qılan-ların, Həcc edənlərin, oruc tutanların, zəkat verənlərin və əmanətə riayət edən kəslərin savabını onun əməl dəftərində yazar.

Əgər bir kəs gecə bu surəni oxusa, heç vaxt möhtəlim (cunub, cənabətli) olmaz.

İmam Sadiq (ə) buyurdu: Hər kəsin Allaha və onun kitabına imanı vardırsa, bu surəni oxumağı tərk etməsin.

Hər kəs gecə və gündüz bu surəni oxumağı davam etdirsə, hər cür hacəti olsa, qəbul olar.

## ***“Nuh” (ə) surəsi***

İmam Sadiq (ə) buyurdu: Hər kəsin Allaha imanı varsa, və onun kitabını oxuyarsa, *"İnna ərsəlna Nuhən ila qəvmihi"* (Nuh) surəsini oxumağı tərk etməsin. Bir bəndə onu xalis niyyətlə və haqq üçün, vacib və yaxud müstəhəbbi namazında oxusa, Allah onu Qiyamətdə saleh və ləyaqətli bəndələrlə birlikdə məskunlaşdırar, və Behiştə üç bağ ona kəramət edər. Bunlardan əlavə Behiştdəki mənzilində iki yüz bakirə huriyyəni və dörd min ər görmüş huriyyəni onunla evləndirərlər inşaallah.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Nuh (ə) surəsini oxusa, Nuhun (ə) dəvətini qəbul etmiş möminlərdən olacaqdır. Orada buyurur: *"Rəbbiğfirli vəli validəyyə və limən dəxələ bəytiyə muminən və lilmumininə vəl muminati."* (Nuh-28).

Hər kəs sübh və axşamlar Nuh surəsini oxusa, hər hacəti olmuş olsa, qəbul olar, inşaallah.

## ***“Cin” surəsi***

İmam Sadiq (ə) buyurdu: "Qul uhiyə iləyyə" (Cin) surəsini çox oxusa, ömrü boyu göz yarasına, sehr-caduya, cinlərin hiyləsinə düçar olmaz, və Muhəmmədlə (s.ə.v.v) birlikdə olar.

Onlar deyərlər: İlahi! Mən bu məqamımın dəyişilməsini istəmirəm.

Allahın Rəsulu (s ə v v) buyurdu: Hər kəs Cin surəsini oxusa, Allah Peyğəmbəri (s.ə.v.v) təsdiq və yaxud təkzib edən hər cin və şeytanların sayı qədər, və bəndə alıb (qul) azad etməyin savabını ona əta edər.

Hər kəs bu surəni yazıb, yuyub suyunu içsə, hər nə eşitsə öyrənər, və hər kimlə (elmi) münazirə etsə, ona qalib gələr. Əgər borclu bu surəni borcunu ödəmək niyyəti ilə oxusa, borcunu ödəyər. Əgər həbsdə olan bu surəni oxusa, tezliklə həbsdən azad olar.

Hər yerdə bu surə oxunsa, cinlər aradan qaçıb uzaqlaşarlar.

## ***“Muzzəmmil” surəsi***

İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün işa namazında yaxud gecə yarısı Muzzəmmil surəsini oxusa, gecə və gündüz Müzzəmmil surəsi onun üçün şəhadət verərər, və Allah onu bəyənilmiş yaşayışla diri saxlayar, pak ölümlə öldürər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Muzzəmmil surəsini oxusa, dünya və axirətin çətinlikləri onun üzərindən götürülər.

Bütün hacətləri qəbul olunmasına xatir aşağıdakı xətmi oxuyun.

On bir gün sübh namazından sonra bu surəni on bir dəfə oxuyub qurtardıqdan sonra, bu duanı da on bir dəfə oxuyun. *"Ya Musəbbibu səbbib. Ya mufəttihu fəttih. Ya mufərricu fərric. Ya mudəbbiru yəssir. Ya muyəssiru yəssir. Ya mutəmmimu təmmim. Birəhmətikə ya ərhəmərrahimin."*

Şeyx Bəhayi deyir: Hacətimin qəbul olunmasına xatir bu xətmi oxudum elə birinci günü ona nail oldum.

Əgər ərlə arvad arasında ixtilaf ortaya çıxsa, mübarək Muzəmmil surəsini üç dəfə düzəldilmiş şərbətə oxuyun onların ikisinə də içirtsəniz, bir-birini sevib, mehriban olarlar.

Hər kəs Muzzəmmil surəsini yazıb özündə saxlasa, hər yerə getsə, qələbəyə nail olar.

Hər kəs bu surəni oxusa, işləri asanlaşar. Hər kəs bir şeyi itirmiş olsa, on gün və hər gündə Muzzəmmil surəsini bir dəfə oxusa, Allahın köməkliyi ilə itirdiyi tapılar.

Əgər bir kəsin övladı yoxdursa, ər və arvad hər ikisi oruc tutsunlar, və iftar vaxtı qüsl etsinlər, sonra mübarək Muzzəmmil surəsini suya oxuyub o sudan içsinlər, inşaallah övlad sahibi olarlar.

Əgər bir kəsin bədənində ağrısı olsa, Muzzəmmil surəsini acı badama (yağına) oxuyub, xəstənin bədəninə sürtsələr sağalar.

Əgər bir kəsin ruzisi azdırsa, qırx gün və hər gündə Muzzəmmil surəsini bir dəfə oxusa, ruzisi çoxalar.

Əgər bir kəsin sehrləmiş olsalar, bazar günü (yek şənbə) bu surəni yazıb sehrlənmiş adama yedizdirsəniz, sehri dəf olar.

## ***“Muddəssir” surəsi***

İmam Baqir (ə) buyurdu: Bir kəs vacibi namazlarında Muddəssir surəsini oxusa, Allahın haqqı vardır ki, onu, Rəsulu (s.ə.v.v) ilə qonşu etsin, onun dərəcəsində ki, o olacaqdır. Dünyada yaşadığı müddətdə heç vaxt bədbəxtlik ona üz verməz, inşəllaah.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Müddəssir surəsini oxusa, Məhəmmədi (s.ə.v.v) (məni) Məkkədə təsdiq və təkzib edənlərin sayı qədər on həsənə ona verilər.

Bu surəni oxumağı davam etdirmək hər hacəti qəbul etdirər. Əgər Qari (Quran oxuyan) Qurnı əzbər etməkdən ötrü oxusa, Quranı əzbər edər.

## *“Qiyamət” surəsi*

İmam Baqir (ə) buyurdu: Bir kəs "La uqsimu" (Qiyamət) surəsini oxumağı davam etdirib, ona əməl etsə, Allah onu qəbirdən Rəsulu (s.ə.v.v) ilə çox gözəl çöhrədə qaldırar. Ona müædə və muştuluq verər, üzünə təbəssüm edib axırda onu sirat körpüsündən və mizan tərəzidən keçirər.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Qiyamət surəsini oxusa, Qiyamətdə mən və Cəbrail (ə) onun üçün şəhadət verərik ki, həqiqətən o Qiyamət gününə iman gətirmişdir. Çöhrəsi başqasının sifətindən çox gözəl olan halda gələr.

Bu surəni oxumaq qəlbin qüvvətlənməsinə səbəb olar.

Həzrət Sadiq (ə) buyurdu: Qiyamət surəsini oxumaq qəlbi kövrəldər, insanı iffətli olmağa cəlb edib onu günahdan qoruyar. Hər kəs onu oxusa, padşahdan qorxmaz. Gecə və gündüz bəlalardan qorunar.

İmam Baqir (ə) buyurdu: Hər bir şeyin baharı vardır, Quranın baharı isə mübarək Ramazan ayıdır.

Yeni il təhvil olanda bəlalardan qorunmaq, və salamatlıq üçün bu yeddi salamı müşk zəfəranla çini kasaya yazıb, yağış suyu ilə içsin.

1-Bismillahir-rəhmanir-rəhim. Səlamun əla Nuhin filaləmin. (Əssaffat-79)

2-Səlamun qəvlən min rəbbin rəhim (Yasin-58)

3-Səlamun əla Musa və Harun (Əssaffat –109)

4-Səlamun əla Musa və Harun (Əssaffat-120)

5-Səlamun əla ali Yasin. (Əssaffat-130)

6-Səlamun ələykum tibtum fədxuluha xalidin.(Zumər-73).

7-Səlamun hiyə hətta mətləil fəcr. (Qədr-5).

## *“Mursəlat” surəsi*

İmam Sadiq (ə) buyurdu: Hər kəs "Əlmursəlati urfən" surəsini oxusa, Allah onunla Peyğəmbəri Muhəmməd (s.ə.v.v) arasında tanışlıq yaradar.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Mursəlat surəsini oxusa, onun müşriklərdən olmadığı yazılar.

Hər kəs bu surəni oxusa, insanların və cinlərin şərrindən amanda qalar.

Hər kəs bu surəni düşməni dəf etmək üçün oxusa, ona qalib gələr.

## *“ Nəbə”surəsi*

### *(Əmmə Yətəsaəlun)*

İmam Baqir (ə) buyurdu: Hər kəs "Əmmə yətəsaəlun" surəsini oxusa, və onu hər gün oxumağı davam etdirsə, bir il keçməz ki, Allahın evinin ziyarətinə nail olar,  inşaallah.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: "Əmmə yətəsaəlun" surəsini oxuyan kəsi Allah Qiyamət günündə sərin şərab-larla sirab edər.

Hər kəs bu surəni yazıb özündə saxlasa yuxusu azalar, Hafizəsi çox olar. Həmçinin bu surəni oxuyub əzbər edən kəsi qüvvətli edər.

## *“Naziat surəsi”*

İmam Sadiq (ə) buyurdu: Naziat surəsini oxuyan bir kəs sirab olmamış ölməz, Qiyamətdə sirab olmamış, qaldırılmaz, və sirab olmamış Behiştə daxil olmaz.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Naziat surəsini oxusa, Qiyamət günündə dayandırılacağı və hesabı olunacağı, müddət vacibi namazın vaxtı qədər olacaqdır, axırda isə Behiştə daxil olacaqdır.

İbn Əbbas Allahın Rəsulundan (s.ə.v.v) nəql edir ki, hər kəs Naziat surəsini oxusa, ömrününün əvvəlindən sonuna qədər vacibi namazda məşğul olmuş adam kimidir.

## ***“Əbəsə” surəsi***

***(əs-Səfər, Əma)***

İmam Sadiq (ə) buyurdu: Hər kəs "Əbəsə və Təvəla" və "İzəş-şəmsu kuvvirət" surəsini oxusa xəyanət olunmaqdan himayəsində olar. Həmçinin onun sayəsində kəramətə layiq olar, və Behiştdə məskunlaşar. Bu iş Allahın nəzərində çoxda çətin deyildir.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Əbəsə surəsini oxusa, Qiyamət günündə üzü gülər və xoşhal halda gələr.

Hər kəs bu surəni yazıb özündə saxlasa, səfərdə çoxlu xeyirlər görər və hacəti qəbul olunar.

Üç gün və hər gündə yeddi dəfə surəni qurumuş çeşməyə oxusan, onun suyu çoxalar. Əgər bir şeyin qoyduğun yerini unutmusansa, bu surəni oxumaqla, Allah yadına salar.

## ***“Kuvvirət” surəsi***

***(Təkvir)***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: "İzəşşəmsu Kuvvirət" surəsini oxuyan bir kəsin, Allah-taala əməl dəftərini açan zaman rüsvay olmaqdan qoruyar. Əbdullah ibn Ömər deyir: Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Qiyamət günündə hər kəs mənə baxmaq istəyirsə, "İzəşşəmsu Kuvvirət" surəsini oxusun. Əbubəkr də rəvayət edir ki, Məhəmmədə (s.ə.v.v) söylədim Ya Rəsuləllah nə tez qocaldın? Buyurdu: Hud, Vaqiə, Murəsəlat, Əmmə yətəsaəlun, və İzəşşəmsu kuvvirət surələri məni qocaldıb tüklərimi ağartdı. Amma Ənəs ibn Malikdən nəql olunub ki, ondan belə soruşdular. Görəsən Nəbiyyi-Əkrəm

(s.ə.v.v) tükünə rəng qoyurdu? O dedi: Qocalıq və tükün ağarması Peyğəmbərin şəninə layiq deyil. Sonra deyildi: Ey Əba Həmzə görəsən qocalıq yaxşı deyil? Sizin hamınız qocalığı və tükün ağrımasını sevmirsiniz.

Rəvayət olunub ki, Həzrət Əli (ə) Nəbiyyi-Əkrəmə (s.ə.v.v) qüsl verəndə neçə ədəd ağ tünk o hərzətin saqqalında gördü. Yağış yağanda yüz dəfə onu oxusan hər hacəti qəbul olunması üçün çox təsirlidir.

## ***“İnfitar” surəsi***

***(İnfətərət)***

İmam Sadiq (ə) buyurdu: Bir kəs bu iki *"İzəs-səmaunfətərət"* və *"İza-səmaunşəqqət"* surəsini oxusa, və bunları vacibi və müstəhəbbi namazlarında dil əzbəri etsə, Allah onu istədiyinə çatdırar və heç bir şey onunla Allah arasında mane yarada bilməz. O həmişə Allahın kəramətlərinə baxar və Allah ona rəhmət nəzəri salar, sonda onun hesabını xalqdan ayırar.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs damlanın sayı qədər yüz həsənə ona əta edib, Qiyamət günündə onun işlərini islah edər.

Həzrət Sadiqdən (ə) nəql olunub ki, hər kəs bu surəni işləri ləng olanda yetmiş dəfə oxusa, işləri qaydasına düşər.

Əgər həbsdə olan bu surəni yetmiş dəfə oxusa, azad olar.

## ***“Mutəffifin” surəsi***

***(Tərfif və İnşiqaq)***

İmam Sadiq (ə) buyurdu: Hər kəs özünün vacibi namazlarında *"Vəylun lilmutəffifin"* surəsini oxusa, Allah onu Qiyamətdə Cəhənnəm odundan amanda saxlayar, elə bir tərzdə ki, nə od onu görə bilər, və nədə ki, o odu görə bilər, və

Cəhənnəmin üstündəki körpüdən keçməz, hesabı elə də çətin çəkilməz.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Mutəffifin surəsini oxuyan kəsi Allah rəhiq məxtumdan (qapağı bağlı qablardan) sirab edər.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs inşəqqət surəsini oxusa, Allah əməl dəftərinin arxa tərəfindən verilməsindən onu qoruyar.

## ***“Buruc” surəsi***

İmam Sadiq (ə) buyurdu: Hər kəs *"Vəssəmai zatil buruc"* surəsini buna xatir ki, o Peyğəmbərlər surəsidir. Məhşərdə və hesab üçün dayandırılanda Peyğəmbərlərlə, göndərilmişlərlə, ləyaqətli insanlarla birlikdə olacaqdır.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Buruc surəsini oxuyan kəsə, Allah bütün cümə və ərəfə günlərinin sayı qədər ona on həsənə əta edər.

Hər kəs bu surəni yatanda oxusa, yuxudan oyanana kimi qorunar. Mənzildən çıxan zaman bu surəni oxuyub mənzilə tərəf pilə ki, mənzil, onu oxuyan və bütün bəlalardan qorusun.

## ***“Tariq” surəsi***

İmam Sadiq (ə) buyurdu: Bir kəsin vacibi namazlarda oxuduğu "Əssəma vəttariq" surəsi olsa, Qiyamət günündə Allah yanında məqam və mənsəb sahibi olub, Behiştdə Peyğəmbərlərin (ə) və dostlarının həmdəmlərindən olacaqdır.

Allahın Rəsulu (s.ə.v.v): ət-Tariq surəsini oxuyan kəsə Allah səmadakı ulduzların sayı qədər on həsənə bağışlayar.

Hər kəs bu surə oxunmuş suyu yaranın üzərinə töksə, inşaallah şifa tapar.

Möhtəlim olmamaq (cunub) üçün yatan aşağıdakı ayəni oxusun: *"Yəxrucu min bəynissulbi vəttaraib. İnnəhu əla rəcihi ləqadir."* (Tariq
7-8).

Möhtəlim olmamaq üçün yatanda bu surəni oxusun.

İmam Sadiq (ə) buyurdu: Əgər yatanda Tariq surəsini oxusalar, möhtəlim olmaqdan amanda qarlarlar.

Hacətlərin qəbul olunmasına, və yüksək dərəcələrə nail olmaqdan ötrü bu yeddi surəni həftənin günlərində hər gündə dörd dəfə oxusa mətləbinə çatar, inşaallah.

Şənbə günü Fəth surəsini, yekşənbə (bazar) günü Yasin surəsini, duşənbə, (birinci) günü Vaqiə surəsini, seşənbə (ikinci) günü Ərrəhman surəsini, çahar şənbə (üçüncü) günü Qul uhiyə (Cin) surəsini, pənc şənbə (dördüncü) günü Təbarək (Mülk) surəsini cümə (beşinci) günü isə əlif-lam-mim Səcdə surəsini oxusun.

Həzrət Əmirəl-möminin Əli (ə) buyurdu: Hər kəs Qurandan hansı surəsindən olursa-olsun yüz dəfə oxuyub, sonra Ya Allah desə, əgər daşa belə oxusa Allah o daşı yarar. («Səfinətul bihar» 1-səh-446)

## *“Əla” surəsi*

İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacibi namazlarında *"Səbbih-ismə rəbbikəl Əla"* surəsini oxusa, Qiyamət günüdə ona deyərlər: Behiştin hər hansı qapılarının birindən Allahın köməyi ilə daxil ol.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Əəla surəsini oxusa, Allah Həzrət İbrahimə (ə), Musaya (ə) və Məhəmmədə (s.ə.v.v) nazil etdiyi hər bir hərfin sayı qədər ona həsənə əta edər. Əli İbn Əbitalibdən (ə) nəql olunub ki, Allahın Peyğəmbəri (s.ə.v.v) bu surəni sevərdi. Həzrət buyurdu: İlk dəfə *"Subhanə rəbbiyəl Əla"* sözünü deyən Həzrət Mikail olub.

İbn Əbbasdan rəvayət olunub ki, o belə dedi: İslam Peyğəmbəri (s.ə.v.v) *"Səbbihismə rəbbikəl Əla"*-nı oxuyanda buyurardı: *"Subhanə rəbbiyəl Əla."* Həmçinin Həzrət Əlidən (ə) ibn Əmrdən, ibn Zubeyrdən də rəvayət olunub ki, Həzrət Peyğəmbər belə edərdi. Cuvəbir Zəhhakdan rəvayət rəvayət edib ki, o belə deyirdi: Hər kəs Əla surəsini oxusa, elə isə bunu etsin, yəni *"Subhanə rəbbiyəl Əla"* desin.

Əbi Bəsir imam Sadiqdən (ə) rəvayət edib. Hər kəs vacibi və müstəhəbbi namazlarında *"Səbbih ismə rəbbikəl Əla"* surəsini oxusa, ona deyilər ki, Qiyamətdə Behiştin hər hansı qapısından istəyirsən daxil ol.

Əyyaşi öz sənədinə əsasən Əbi Xəmisədən o da Əlidən (ə) rəvayət edib dedi: Mən iyirmi gecə Əlinin (ə) arxasında namaz qıldım. O Həzrət *"Səbbihismə rəbbikəl Əla"* surəsindən başqa surəni oxumazdı. Əgər bu surədə nə qədər fəzilət olduğunu bilsəydilər, hər bir kişi gündə onu iyirmi dəfə oxuyardı. Əlbəttə hər kəs onu oxusa elə blki, Musa (ə) və İbrahimin (ə) səhifələrini oxumuş və öz əhdinə vəfa etmişdir (Öz övladını qurbanlıq etməkdə) Əqəbə ibn Amir Cəhənidən rəvayət olunub, o belə dedi: *"Fəsəbbih bismi rəbbikəl əzim"* ayəsi nazil olanda Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Onu rukuda oxuyun. Elə ki *"Səbbih ismə rəbbikəl Əla"* ayəsi nazil oldu, Həzrət buyurdu: Onu səcdədə oxuyun.

## ***“Ğaşiyə” surəsi***

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün gündəlik beş vacibi və müstəhəbbi namazlarında "Həl ətakə hədisul ğaşiyə" surəsini həmişə oxusa Allah onu iki aləmdə öz rəhməti ilə başdan ayağa qədər örtər, və Qiyamət günündə onun cəhənnəm odundan və əzabından azad olmasına fərman verər. (rəhm edər)

2-Nəbiyyi-Əkrəm (s.ə.v.v.) buyurdu: Hər kəs Ğaşiyə surəsini oxusa, Allah onun hesabını asan tutar.

-Əgər bu surəni yeməli bir şeyə oxusa, ona zərəri dəyməz.

## *“Fəcr” surəsi*

1-İmam Sadiq (ə) buyurdu: Fəcr surəsini özünüzün vacibi və müstəhəbbi namazlarınızda oxuyun, çünki bu surə Hüseyn ibn Əliyə (ə) məxsusdur. (onunla bağlıdır.) Hər kəs onu (Fəcr surəsini) oxusa, Qiyamətdə Hüseynlə (ə) və onun qonşuluğunda həmin dərəcədə Behiştdə məskunlaşacaqdır ki, Həzrət Hüseyn (ə) məskunlaşdırılmışdır. Həqiqətən Allah əziz və həkimdir.

Allahın Rəsulu (ə) buyurdu: Bir kəs bu surəni Zilhiccə ayının birinci gecəsində oxusa, Allah onu bağışlayar. Hər kəs sair günlərdə onu oxusa, Qiyamət günündə onu oxusa, Qiyamət günündə onun üçün bir nur olacaqdır.

Hər kəs bu surəni on bir dəfə oxuyub öz halalı ilə cinsi əlaqədə olsa, Allah ona elə bir övlad əta edər ki, gözünün işıqlanmaına səbəb olar.

## *“Bələd” surəsi*

İmam Sadiq (ə) buyurdu: Bir kəs gündəlik namazlarında *"La uqsimu bihazil bələd* surəsini oxusa, bu dünyada ləyaqətli və tanınımış olar. Axirət dünyasında isə Allah yanında məqam sahibi olub, orada Peyğəmbərlərlə, şəhidlərlə, və bəyənilmişlərlə həmdəm olacaqdır.

Allahın Rəsulu (s.ə.v.v) buyurur: Bir kəs Bələd surəsini oxusa, Allah onu Qiyamət gününün qəzəbindən amanda saxlayar.

Hər vaxt Bələd surəsini yazıb təzə dünyaya gəlmiş oğlan yaxud qız uşağına bağlasan hər eyb və çatışmamazlıqdan amanda qalar, inşaallah.

## *“Şəms” surəsi*

***(Salehin dəvəsi)***

İmam Sadiq (ə) buyurdu: Bir kəs gecə yaxud gündüz) Vəşşəms, Vəlləyl, Vəzzuha, və ələm nəşrəh surələrini oxusa, heç bir şey onun ətrafına toplaşmaz, madam ki, onun xeyrinə şəhadət verərlər. Hətta onun tükü, dərisi, qanı, damarları, əsəb sisiemi, sümükləri, və bədəninin hamısı, və onun üzərində saxlayan yer də onun xeyrinə şəhadət verərlər. Allah-taala buyurar: *"Bəndəmin xeyrinə verdiyiniz şəhadəti qəbul etdim və ona əsasən hökm verdim, onunla mənim Behiştimə tərəf gedin və hansı yeri bəyənirsə oranı seçin. Bu mənim tərəfimdən minnətsiz bəlkədə məhəbbət və ehsan kimi bir hədiyyədir və bunu ona verin. Beləliklə mənim bəndəmə halal olsun halal olsun. "*

Peyğəmbər-Əkrəm (s.ə.v.v) buyurdu: Bir kəs Şəms surəsini oxusa, elə bilki, günəş və ay saçmış bütün şeylər qədər sədəqə vermişdir.

Üç gün günəş çıxan zaman (üçüncü dördüncü, beşinci günlər) alnını səcdəyə qoyub, üç dəfə bu surəni oxusun. "Fəəlhəməha" kələməsinə çatanda hacətini ürəyindən keçirsin.

Düşməni dəf etməkdən ötrü də belə etsin.

## ***“Ləyl” surəsi***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Allah Ləyl surəsini oxuyan kəsə o qədər nemət əta edər ki, o razı qalar, və onu yoxsulluqdan çıxardıb varlılığı onun üçün asanlaşdırar .

Cabir ibn Həmzədən nəql olunub ki, Allahın Rəsulu (s.ə.v.v) Zöhr və əsr Vəlləyli iza yəqlia və onun kimi [Şəms, Zuha, Ələm Nəşrəh] surələri oxuyardı.

Hər kəs Ləyl və Şəms surəsinin hər birisini yeddi dəfə üç gecə dalbadal oxusa, və sonra otuz dəfə bu duanı *"Vəla həvlə vəla quvvətə illa billahil əliyyil əzim,"* inşaallah hacəti qəbul olunar. (Çox təcrübə olunub.)

Qırx gecə və hər gecədə qırx dəfə Ləyl surəsini oxusun. *"Və ma liəhədin indəhu min nemətin tucza."* ayəsinə çatanda onu üç dəfə oxusun, və sonra surəni sonuna qədər oxusun. Bu minval ilə oxumağın qələbələrə və çoxlu mal əldə etməyə güclü təsiri vardır.

Hacətinin qəbul olunmasına xatir yatan zaman bu surəni yeddi dəfə oxusun.

Bu surəni oxuyub davam etdirməklə həbsxanadan azad olmasına təsir edər.

Hər kəsin qızdırması olsa, Ləyl surəsini yazıb suyunu ona içirtsəniz şifa tapar.

Kəfhəmi «Bələdul-əmin» kitabında və Şeyxlər (alimlər) öz kitablarında yazıblar ki, əgər bir kəsin qarşısına müşkül çıxsa, və ondan yaxa qurtara bilməsə, pak bədənlə pak yatağa girsin, (lakin həyat yoldaşı ilə birlikdə yatmasın) yeddi dəfə də Ləyl surəsini oxusun. Ondan sonra yalvara-yalvara Allahdan belə istəsin.

*"Allahumməcəl li min əmri fərəcin və məxrəcən."*

Birinci ya, üçüncü ya beşinci, ya da yeddinci gecə də bir şəxs onun yuxusuna gəlib onun müşkülünün həllində ona kömək edəcəkdir. Allahu ələm.

## ***“Zuha” surəsi***

Əqəbə ibn Amirdən nəql olunub ki, o belə dedi: Allahın Rəsulu (s.ə.v.v) Zuha namazını Şəms və Zuha surələri ilə qılmağımızı bizə əmr etdi.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Bir kəs Zuha surəsini oxusa, Allah onlardan razı olmuş şəxslərdən olar, və Həzrət Məhəmmədin (s.ə.v.v) öhdəsindir ki, onu şəfaət etsin, və hər bir yetim uşağın və sailin (camaata əl açan) sayı qədər ona on həsənə veriləcək.

Deyirlər ki, hər zaman qayib olanı (hüzurunda olmayanı) huzuruna gətirmək istəyirsənsə, Zuha surəsini on bir dəfə oxusan hüzuruna gələr.

Hər kəs qırx gecə özüdə mübarək gecələrdə (cümə axşamı kimi), təharətlə (pak) üzü qibləyə durub fasiləsiz və başqası ilə danışmadan hər hansı niyyəti üçün oxusa, hacəti qəbul ounar.

## ***“İnşirah” surəsi***

***(Ələm nəşrəh)***

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Bir kəs Ələm nəşrəh surəsini oxusa, Allah ona o Həzrəti (s.ə.v.v) qəmgin görüb, sonra o Həzrətin çöhrəsindən və qəlbindən qəm və qüssəni aparan şəxsin əcrini əta edər.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs bu surəni oxusa, mənimlə görüşmüş şəxsin muzdunu alar, və onu şəfaət etmək mənim öhdəmədir.

Çoxlu xeyir və bərəkət görmək üçün hər gün Zariyat, və İnşirah, Təlaq, və Muzzəmmil surələrini oxusun.

Hər bir mühüm mətləbin hasil olması üçün aşağıdakı xətmə üç gün əməl etsin:

Hər gün yeddi dəfə həmdi (surəni) oxuyub, yeddi yüz dəfə salavat göndərib, səksən dəfə İnşirah surəsini oxusun, sonra min bir dəfə Tovhid surəsini və yenidən yeddi dəfə Həmd surəsini və yenidən yeddi dəfə həmd surəsini oxuyub, min dəfə salavat göndərsin hacəti qəbul olunar.

Pullu və qüdrətli olmaqdan ötrü səfər ayının axırıncı çaharşənbə (üçüncü gün) günü İnşirah, Tin, Tovhid surələrinin hər birini yeddi dəfə oxusun. (təcrübə olunub)

Bir məclisdə hacətinin qəbul olunması üçün bu surəni qırx bir dəfə oxu.

Deyirlər ki, doğuşun asan olması üçün İnşirah surəsini yazıb, onu yuyub, suyunu hamilə qadına içirtsəniz, doğuşu asan və tez qurtarar. Bu surənin suyu sidik kisənin daşı üçün də faydalıdır.

Yeddi yaşına çatmamış və süd dişləri tökülməmiş qız uşağı sapı yeddi qat edib Ələm nəşrəh surəsini ona oxusun hər dəfə Kaf hərfini oxudu bir düyün vursun, yeddi düyün tamam olandan sonra yeddi dəfə İnşirah surəsini oxusun, və sonra su çiçəyi olan kəsin gözünün qabağında ass, su çiçəyi sağalar.

"Bəhrul-Mənabe" kitabında yazıb ki, sinə və mədə ağrısı üçün İnşirah sursini oxuyub ağrıyan yerə üfürün.

## ***“Tin” surəsi***

Nəbiyyi-Əkrəm (s.ə.v.v.) buyurdu: Hər kəs Tin surəsini oxusa, Allah ona iki xisləti (xüsusiyyəti) əta edər; 1-Afiyət, (sağlamlıq) 2-Nə qədər ki dünydadır yəqini olar, və hər vaxt dünyadan köçdü, Allah bu surəni oxuyanların sayı qədər və bir oruc tutmağın savabının əcrini ona əta edər.

2-İmam Sadiq (ə) buyurdu: Bir kəs vacibi və müstəhəbbi namazlarında Tin surəsini oxusa, Behiştin hansı yerini bəyənsə, ona verərlər, inşaallah.

Bu surə hər hansı xörəyə oxunsa, onda şifa olar.

## ***“Ələq” surəsi***

İmam Sadiq (ə) buyurdu: Hər kəs *"İqrə bismi rəbbikə"* surəsini gecə yaxud gündüz oxusa, və həmin gecə yaxud gündüz dünyadan köçsə, şəhid kimi köçmüşdür. Allah qəbirdən onu şəhid kimi qaldırar, şəhid kimi dirildər, və peyğəmbərin rəhbərliyi altında öz qılıncı ilə Allah yolunda cihad etmiş kəs kimi olar.

Hər kəs dəniz səfərinə çıxanda bu surəni oxusa, dənizdə qərq olmaz.

## “Qədr” surəsi

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs *"İnna ənzəlnahu fi ləylətil qədr"* surəsini ucadan avazla oxusa, Allah yolunda qılınc vurmuş kəs kimi olar. Əgər bir kəs onu yavaş oxusa, Allah yolunda öz qanına bulaşmış mücahid kimi olar. Bir kəs bu surəni on dəfə oxusa, Allah onun əməl dəftərindən min günahını silər.

İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacib namazlarının birində "İnna ənzəlna" surəsini oxusa, haqq munadi nida edərək deyər ki, ey mənim bəndəm Allah sənin keçmiş günahlarını bağışladı, əməlini yenidən başla.

Ruzinin çoxalması üçün hər gün sübh namazından sonra on dəfə İnna ənzəlna surəsini oxusa, Allahın qüdrətini müşahidə edər. (Minhacul-arifin).

Hər kəs bu surəni oxusa, elə bilki, mübarək ramazan ayının hamısını oruc tutmuş və Qədr gecələrini də əhya saxlamışdır.

Hər kim bu surəni evə daxil və evdən xaric olan zaman oxusa, Şeytan ondan uşaqlaşıb, ona zərər yetirə bilməz.

Hər kim bu surəni əzbərləsə və onu daim oxusa, elə bil ki, bütün elmləri əzbər etmişdir.

Hər kəs bu surəni sübh namazından sonra, günorta vaxtı, və əsr namazından sonra, on dəfə oxusa, əməlləri yazan mələklərdən minini otuz ilə qədər zəhmətə salar.

Hər kimi dan yeri sökülləndə (günəş çıxmamış) yeddi dəfə Qədr surəsini oxusa, yetmiş sıra mələklər onayetmiş salavat göndərər və yetmiş dəfə ona rəhm edərlər.

Allah-taala min mələyi xəlq edər ki, otuz altı min il bu surəni oxuyana savab yazsınlar. Əgər belə etsə; yəni gündə

yetmiş altı dəfə bu surəni oxusun. Sübh namazından qabaq yeddi dəfə, sübh namazından sonra, on dəfə günorta vaxtı nafilə namazlarını qılmazdan əvvəl on dəfə, Zöhr namazının nafilələrini qılandan sonra iyirmi dəfə, əsr namazından sonra yeddi dəfə, İşa namazından sonra yeddi dəfə və yatan zaman on bir dəfə oxusun.

Hər bir mömin şəxs dəstəmaz alanda bu surəni oxusa, günahları silinər anadan təzə doğulduğu gün kimi olar.

Yatan zaman Qədr surəsini on bir dəfə oxusa, Allah-taala on bir mələyi onu sübhə qədər Şeytanın şərrindən qorumaq üçün göndərər.

Hər hansı hacətin qəbul olunmasına xatir hər gün bu surəni üç yüz altımış dəfə oxusa, hər bir hacəti qəbul olar. Bu surəni deyilən qədər oxusan, fəqirliyi, ehtiyaclılığı aradan qaldırmaq, və rizq-ruzinin çoxalması, qüdrətli olmaq üçün təcrübə olunmuşdur.

## ***“Bəyyinə” surəsi***

***(Ləm yəkun, əl-Bəriyyə)***

1-İmam Baqir (ə) buyurdu: Bir kəs "Ləm yəkun" surəsini oxusa, şirkdən uzaq olub, onu Məhəmmədin (s.ə.v.v) dininə daxil edərlər. Böyük Allah onu Qiyamətdə mömin simasında qəbirdən qalıdırar və onun hesabını asan çəkər.

2-Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kəs Ləm yəkun surəsini vətəndə və yaxud səfərdə oxusa, Qiyamət günündə Xəyrul-bəriyyə ilə birlikdə olacaqdır. Əbiddərdadan rəvayət olunub ki, Nəbiyyi-Əkrəm (s.ə.v.v) belə buyurdu: Əgər insanlar Ləm yəkun surəsinin necə təsirli və faydalı olduğunu bilsəydilər, ailə işlərini və mal toplamağı tətil edib, onu öyrənərdilər. Xəzaə qəbiləsindən olan bir kişi dedi: Xəzaə qəbiləsindən olan bir kişi dedi: Ya Rəsullah (s.ə.v.v) onun oxumağın nə əcri vardır? Həzrət buyurdu: Allah-taalaya qarşı qəlbində şəkk olan adam və münafiq heç vaxt onu oxumaz.

Allaha and olsun ki, Mələklər Allah səmaları və yerləri yaradan gündən onu oxuyurlar, və onu oxumaqdan yorulmurlar. Allah bu surəni gecə oxuyan və üçün mələkləri seçər ki, onu dinində və dünyasında qoruyub, onun üçün bağışlanmaq və rəhmət tələb edərlər.

Beləliklə əgər bu surəni bir kəs gündüzlər oxusa, Allah ona, günəş saçmış və gecənin qaranlığı on pərdə çəkilmiş mövcudatın sayı qədər savab əta edər. Sonra Qeys Əylan qəbilsindən olan bir kişi dedi: Ya Rəsullah: Atam anam sizə fəda olsun, bu hədisi çox izah edin. Həzrət buyurdu: "Əmmə yətəsaəlun". "Qaf vəl Quranil Məcid" "Əssəmai zatil buruc" "Əssəmai vəttariq" surələrini öyrənin. Əgər siz onları öyrənib və öyrətmətdə nə qədər əcr və savab olduğunu bilsəydiniz, yəqin ki, hər biri  işdən əl çəkib onları öyrənərdiniz, və onları öyrətməklə Allaha yaxınlaşmaq səbəbinə nail olardınız. Allah şirkdən başqa, hər bir günahı bu surələrin oxunması səbəbilə bağışlayar. Bilin Mülk və padşahlıq o Allahın əlindədir ki, Qiyamət günündə bu surələrin sahiblərindən mücadilə edib, onların günahlarını bağışlayar.

## ***“ Zilzal ” surəsi***

**(Zəlzələt)**

İmam Sadiq (ə) buyurdu: "İza zulzilətil ərzu" surəsini oxumaqdan yorulmayın, çünki bir kəs nafilə (müsətəhəb) namazlarında bu surəni oxusa, Allah onu heç vaxt zəlzələ, ildırım vurması və bunun kimi dünya bəlaları ilə həlak etməz. Necəki o dünyadan köçdü və Behiştə getmək əmrini alsa, o zaman Allah-taala onun fərmanını verib buyurar: Ey mənim bəndəm Behiştimi sənə Mubah etdim, indi heç bir maneə olmadan onun hər hansı yerində istəyirsən özünə mənzil seç.

Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Bir kəs bu surəni (Zilzal) oxusa, elə bil ki, Bəqərə surəsini oxumuşdur, və ona həmin

surəni oxumağın əcrini verərlər, (yəni Quranın dördə birini oxumağın).

Nəbiyyi-Əkrəm (s.ə.v.v) əshabələrindən bir kişiyə xiğab edərək buyurdu: Evlənmisən? Dedi: Yox, çünki evlənmək üçün əlimdə bir şeyim yoxdur. Həzrət buyurdu: "Qul huvəllahu əhəd" surəsini bilirsənmi? Dedi: Bəli, Həzrət yenə buyurdu: Bu surə Quranın dörddə biridir. Həzrət sonra buyurdu:

"Qul ya əyyuhəl kafirun" surəsini bilirsənmi?

O kişi dedi: Bəli.

Həzrət buyurdu: Bu surədə Quranın dörddə biridir. Sonra buyurdu:

"İza zulzilət" surəsini bilirsənmi?

O kişi dedi: Bəli.

Həzrət yenə buyurdu: Bu surə də Quranın dörddə biridir. Həzrət sözünün davamında buyurdu: Evlən, evlən, evlən. (Bu surələri həyat yoldaşın üçün məhriyyə ünvanında qərar ver.).

## ***“Adiyat” surəsi***

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs Adiyat surəsini oxusa, və onu oxumağı davam etdirsə, Allah Qiyamətdə onu Əmirəl-mömininlə (ə) məşhur edər və bir otaqda o Həzrətin həmdəmlərindən olar.

2-Nəbiyyi-Əkrəm (s.ə.v.v) buyurdu: Hər kəs Adiyat oxusa, ona müzdəlifədə (məşərul-haramda yer adı) oyaq qalmış və Ərəfatda hazır olmuş kəslərin sayı qədər on həsənə verilər.

Hər kəs ağrıdan, aclıqdan, susuzluqdan, və borcdan xilas olmaq istəyirsə, Həzrət Əlinin (ə) adını sayı qədər, yəni yüz on dəfə bu surəni oxusa, çox faydalıdır.

Və həmçinin ruzinin çoxalması üçün yazıb özündə saxlasın.

## ***“Qariə” surəsi***

1-İmam Baqir (ə) buyurdu: Hər kəs Qariə surəsini çox oxusa, Allah-taala onu dünyada Dəccalın fitnəsindən, onun dəvətini qəbul etməkdən, və Qiyamətdə Cəhənnəm çirkinliklərindən yaxud onun yandırıcı istisindən amanda saxlayar.

2-Übəyy ibn Kəbin nəql etdiyi hədisdə yazılıb ki, hər kəs Qariə surəsini oxusa, Allah Qiyamətdə buna xatir onun əməl dəftərini ağır edər.

Hər hansı mühüm mətləb üçün əl-Qariə surəsini yüz səkksən dəfə oxusun, təcrübə olunub. Əgər onun məişəti (güzəranı) ağır keçirsə, bu surəni yazıb özündə saxlasa, ruzisi çoxalar, inşaallah.

Hər hansı zəruri hacətin üçün bu surəni yazıb özündə saxlasın.

## *“Təkasur” surəsi*

1-İmam Sadiq (ə) buyurdu: Hər kəs Təkasur surəsini özünün vacibi namazlarında oxusa, Allah onun üçün yüz şəhidin savabını yazar. Bunlardan əlavə onun vacibi namazında qırx cərgədən ibarət olan mələklər onunla birlikdə namaz qılarlar. (İnşaallah).

2-İmam Sadiq (ə) buyurdu Allah: Rəsulu (s.ə.v.v) belə buyurdu: Hər kəs Təkasur surəsini yatan zaman oxusa, qəbrin fitnəsindən və giriftarçılığından amanda qalar.

3-Übəyy ibn Kəbdən nəql olunmuş rəvayətdə yazılıb ki, hər kəs Təkasur surəsini oxusa, Allah dünyada ona əta etdiyi nemətlərinin hesablamaz, və ona min ayənin (oxumağının) savabını verər.

Rəvayətdə vardır ki, aşağıdakı qayda ilə qılınan iki rükət namazın çoxlu xeyri vardır.

Birinci rükətdə Fatihə surəsi ilə “Ayətəl-kürsü”nü və iki dəfə Tovhid surəsini oxusun. İkinci rükətdə Fatihə surəsini bir dəfə və Təkasur surəsini isə on dəfə oxumaqla namazı

tamamlayıb, onu nəzərində olan vəfat etmiş şəxsə hədiyyə etsin. Sonra belə desin: *"Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəbəs il Qəbri filan."*

İmam Cəfər Sadiq (ə) buyurdu: Təkasur surəsini (xəlvətdə) iyirmi dəfə oxuyun və sonra min dəfə salvat göndərib öz hacətinizi Allahın dərgahından istəyin. Çünki Allah onua qəbul edər (İnşaallah).

Hər kəs bu surəni başı ağrıyan üçün oxusa, Allahın izni ilə ağrısı aradan gedər.

## *“Əsr” surəsi*

1-Həzrət Sadiq (ə) buyurdu: Hər kəs Əsr surəsini müstəhəbbi namazlarında oxusa, Allah Qiyamətdə onu nurlu çöhrəli gülərüzlü və gözləri nurla dolu qəbirdən qaldırar və elə bu halda Behiştə daxil edər.

2-Übəyy ibn Kəbdən nəql olunmuş bir hədisdə yazılıb ki, hər kəs Əsr surəsini oxusa, Allah-taala ona səbr əta edər və Qiyamətdə haqq əshabəsi ilə birlikdə olar.

Əgər Əsr surəsini qızdırması olan bir kəsə oxusan, qızdırmadan sağalar. Hər kəs bu surəni halsız bir kəsə oxusa, əhvalı yaxşılaşar. (İnşaallah).

## *“Huməzə” surəsi*

**(Luməzə)**

İmam Sadiq (ə) buyurdu: Bir kəs Huməzə surəsini özünün vacibi namazlarında oxusa, Allah yoxsulluğu ondan uzaq edər, ruzinin ona yaxınlaşdırar, və pis ölümü ondan dəf edər.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə yazılıb ki, hər kəs Huməzə surəsini oxusa, Allah Həzrət Məhəmməd (s.ə.v.v) və onun dostlarını istehza edənlərin sayı qədər ona on həsənə əta edər.

Hər kim bu surəni ağrıyan gözə oxusa, Allah o ağrıdan ona şifa verər.

Hər kəs Huməzə surəsini müstəhəbbi namazında çox oxusa, ruzisi və malı çoxalar.

## *“Fil” və “Qurəyş” surəsi*

İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacibi namazlarında Fil surəsini oxusa, Qiyamətdə bütün qumlar dağlar, çəmənliklər onun xeyrinə şəhadət verərlər ki, o namaz qılanlardandır. Haqqın carçısı nida edər ki, mənim bəndəmin barəsində düz dediniz onun haqqında verdiyiniz şəhadət qəbul olundu, onu Behiştə daxil edin, və ondan hesab çəkməyin. Çünki o elə bir kəslərdəndir ki, mən onu və əməlini sevirəm.

2-İmam Sadiq (ə) buyurdu: Allah "Li ilafi Qurəyş" surəsini çox oxuyan şəxs, Qiyamət günündə Behişt atına minmiş halda məşhərə daxil edər ki, Cənnətin nurlu süfrələrinin kənarında əyləşsin.

3-Şeyx Səduq (rəh) buyurub: Hər kəs vacibi namazlarının rükətlərində Fil surəsini oxusa, onda gərək İlaf (Qurəyş) surəsini də onunla birlikdə oxusun. Çünki bu iki surə ikisi birlikdə bir surə hesab olunur. Vacibi namazların bir rükətində onların ikisindən birini oxumağa icazə verilmir.

4-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə vardır ki, hər kəs Fil surəsini oxusa, Allah onua dünyada yaşadığı müddətdə məsx olmaqdan (heyvan surətinə dönməkdən) iftira və böhtana mübtəla olmaqdan qoruyar. Yenədə Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə  yazılıb ki, hər kəs İlaf (Qurəyş) surəsini oxusa, Allah ona Kəbə evini təvaf etmiş, və orada etikaf (məsciddə ibadətlə məşğul olan) etmiş şəxslərin sayı qədər on həsənə əta edər. (Nəbiyyi-Əkrəm (s.ə.v.v)) hər kəs Fil surəsini müharibədə oxusa, möhkəm, ciddiyyətli olar, və hər cür iradəsizlikdən uzaq olar.

Çahar şənbə (üçüncü) günü bu surənin hərflərinin sayı qədər (yəni 98 dəfə) Fil surəsini oxuyub düşməninə tərəf üfürsən, əlbəttə o məğlub olar.

Əgər bir kəs soltan və hakimlərin yanına getmək istəyirsə, və onlardan qorxursa, Fil surəsini "Təyrən əbabil"-ə qədər oxusun. "Tərmihim" kələməsini oxumaq istədikdə sol əlinin kiçik barmağından başlayıb sağ əlinin kiçik barmağına qədər "Tərmihim" kələməsini deyib barmaqlarını bir-bir yumsun, və gözü ilə mətləbini görməyincə bir kəslə söhbət etməsin. Mətləbi hasil olandan sonra sağ əlinin kiçik barmağından başlayıb *"bihicarətin min siccil"* cümləsini (on dəfə ) deməklə sol əlinin kiçik barmağına qədər barmaqlarını bir-bir açsın. Sonra surəni qalanını sonuna qədər oxusun, və o zalıma tərəf üfürsün. Allahın izni ilə ucalar. (çox təcrübə olunub).

## ***“Ərəəytə” surəsi***

***(Maun)***

1-İmam Baqir (ə) buyurdu: Bir kəs "Ərəəytəl-ləzi yukəzzibu biddin" (Maun) surəsini vacibi və müsətəhəbbi namazlarında oxusa, Allah onun namaz və orucu qəbul olunmuş kəslərdən hesab edər, və dünyada baş vermiş işlərin (günahları) hesabını ondan çəkməz.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə yazılıb ki, hər kəs Ərəəytə surəsini oxusa, zəkatını vermiş olsa, Allah onu bağışlayar. (Allahın Rəsulundan (s.ə.v.v)

Çoxlu müvəffiqiyyətlər kəsb etmək niyyəti ilə duşənbə gününün gecəsindən (birinci gün axşam) on beş dəfə bu surəni oxusun. Bu surəni hər dəfə oxuyan, bu ayəni desin:

*"Ya əyyuhəlləzinə amənur-kəu vəscudu vəbudu rəbbəkum vəfəlul xəyrə ləalləkum tuflihun"*, və on beş dəfə salavat göndərsin. Oxuyub qurtardıqdan sonra səcdəyə edib öz hacətini Allah-taalanın məhzərində elan etsin.

## ***“Kəvsər” surəsi***

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs vacib və müstəhəbbi namazlarında *"İnna ətəynakəl-Kəvsər"* surəsini oxusa, Allah Qiyamətdə onu Kəvsər hovuzundan sirab edər və o Nəbiyyi-Əkrəmlə (s.ə.v.v) tuba ağacının altında bir məclisdə olar.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə belə yazılıb. Bir kəs Kəvsər surəsini oxusa, Allah onu Behişt çaylarından sirab edər və bəndələrin qurban bayramı günü qurbanlıq etdikləri qurbanların, kitab əhlinin və müşriklərin qurban etdiklərin hər qurbanın sayı qədər, ona savab əta edər.

Deyirlər ki, bir kəsi özündən uzaqlaşdırmaq istəyirsənsə, Kəvsər surəsini doqquz dəfə oxu və ona tərəf üfür, öz ixtiyarı ilə yolunu dəyişib gedəcəkdir.

Varlı və qüdrətli olmaqdan ötrü Qadir və mütəal Allaha onu varlı və sərvət sahibi etsin, niyyəti ilə iki rükət hacət namazı qılıb, çahar şənbə günü (üçüncü gün) qırx dəfə Kəvusər surəsini oxusun.

## ***“Kafirun” surəsi***

### ***(Əlcuhd)***

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacibi namazlarında *"Qul ya əyyuhəl kafiriun"* və *"Qul huvəllahu əhəd"* surələrini oxusa, Allah onu, ata-anasını və onların övladlarının hamısını bağışlayar. Əgər o bədbəxtlərdən olmuş olsa, onun adını onların dəftərindən pozub, xoşbəxtlərin dəftərinə yazar, bu dünyada ona səadət bəxş edib, onu şəhid kimi öldürər, və şəhid kimi məşhur edər.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə yazılıb ki, hər kəs Kafirun surəsini oxusa, Quranın dörddə birini oxumuş şəxs kimi olar, Şeytanın nökərləri ondan uzaq şirkdən pak, böyük divin qorxusundan amanda qalar.

Cümə günü sübh namazından sonra günəş çıxmazdan əvvəl Kafirun surəsini on dəfə oxu və yüz dəfə bu tərzdə salavat göndər *"Əllahummə səlli əla Muhəmmədin ummi və alihi və səlləm"*, hər hacətin olmuş olsa, hasil olar.

## ***“Nəsr” surəsi***

**(Təvdii)**

1-İmam Sadiq (ə) buyurdu: Bir kəs özünün vacibi yaxud müstəhəbbi namazlarında *"İza caə nəsrullahi vəlfəth"* surəsini oxusa, Allah onu düşmənlərinin hamısının əleyhinə vuruşmaqda kömək edər. Allah Qiyamət günündə onun qəbrindən çıxartdığı məşhərə gələr, və o məktub onun Cəhənnəm körpüsündən ötüb keçmək üçün amannamədir. O gün heç bir şey nəzərdən yayınmaz, madam ki, ona xeyir ə yaxşılıqla müædə verər və axırda Behiştə daxil olar, və bu cahan heç vaxt arzu etmədiyi və qəlbindən keçmədiyi xeyr qapılarını onun üzünə açar.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə vardır ki, hər kəs Nəsr surəsini oxusa, Məkkənin fəth olunmasında Allahın Rəsulu (s.ə.v.v) ilə birlikdə iştirak etmişdir. (Allahın Rəsulundan (s.ə.v.v)

## ***“Təbbət” surəsi***

**(Ləhəb, Məsəd)**

1-İmam Sadiq (ə) buyurur: *"Təbbət yəda əbi Ləhəb"* surəsini oxuyan zaman Əbu Ləhəbə nifrin edin. Çünki o Nəbiyyi-

Əkrəmin (s.ə.v.v) Allah tərəfindən gətirdiklərini təkzib edən kəslərdən idi.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə vardır ki, hər kəs Təbbət surəsini oxusa, Allah onu Əbi Ləhəblə bir evdə yerləşdirməyəcəyinə ümidvaram.

Bu surəni bütün ağrılara oxu, inşaallah ağrı sakitləşər.

## *“Tovhid” surəsi*

### *(İxlas)*

1-İmam Baqir (ə) buyurdu: Bir kəs gün ərzində beş dəfə namaz qıla, və onların heç birində *"Qul huvəllahu əhəd"* surəsini oxumasa, ona xitab olunar ki, ey Allahın bəndəsi sən namaz qılanlardan deyilsən.

2-İmam Sadiq (ə) buyurdu: Bir şəxs həftə ərzində *"Qul huvəllahu əhəd"* surəsini oxumasa, və elə həmin halda ölsə Əbi Ləhəbin dinində ölmüşdür.

3-İmam Sadiq (ə) buyurdu: Hər kəsə bir xəstəlik yaxud giriftarçılıq üz versə, onu dəf etmək üçün *"Qul huvəllahu əhəd"* surəsini oxumasa, və elə o hadisənin səbəbi ilə ölsə, o şəxs od əhlindən olacaqdır.

4-İmam Sadiq (ə) buyurdu: Bir kəsin Allaha və Qiyamət gününə imanı vardırsa, özünün vacibi namazların qıldıqdan sonra *"Qul huvəllahu əhəd"* surəsini oxumağı tərk etməsin. Çünki hər kəs namazını qılıb qurtardıqdan sonra onu (Tovhid surəsini) oxusa, Allah dünya və axirətin xeyrini verər, onun atasını, anasını, övladlarının ata-anasının hamısını bağışlayar.

5-İmam Sadiq (ə) buyurdu: Allahın Rəsulu (s.ə.v.v) Səd bin Məazın cənazəsinə namaz qılıb buyurdu: Doxsan min mələk onun cənazəsinə namaz qıldılar, Cəbrail də onların arasında idi.

6-İmam Sadiq (ə) buyurdu: Hər kəs öz yatağında uzanıb, *"Qul huvvəlahu əhəd"* surəsini on bir dəfə oxusa, Allah onu öz evində və qonuşuluğundakı evləri qoruyacağdır.

7-Əmirəl-möminin (ə) buyurdu: Bir kəs *"Qul huvəllahu əhəd"* surəsini sübh namazından sonra on bir dəfə oxusa, həmin gündə günaha aludə olmaz, hərçənd ki, bu əməl Şeytanın istəyinin əksinədir.

8-Musa ibn Cəfər (ə) buyurdu: Hər kəs zalım bir hakimin yanına getməmiş *"Qul huvəllahu əhəd"* surənini oxusa, bu surəni oxumağın xatirinə Allah hər tərəfdən, qarşıdan, arxadan, sağ və sol tərəfdən onu zalımın şərrindən qoruyar. Əgər belə etsə, Allah o zalımdan ona bir yaxşılıq nəsib edər və onun şərrin ondan dəf edər. Həzrət yenədə buyurdu: Hər zaman bir şeydən qorxsan, Quranın hər hansı yerindən istəyirsən, yüz ayə oxu, sonra üç dəfə de: *"Allahummə ikşif ənnil bəla"* yəni: Ey mənim Pərvərdigarım bu bəlanı məndən uzaqlaşdır.

9-Həfs ibn Ğiyasdan rəvayət olunub ki, o dedi: Həzrət Sadiqin (ə) bir kişiyə belə buyurduğunu eşitdim. Dünyada həmişə qalmaq istəyirsənmi? Dedi: Bəli, Həzrət buyurdu: Nə üçün? Dedi: "Qul huvəllah" surəsini daim oxumaq üçün. Həzrət bir az sükut edib sonra buyurdu: Ey həfs bizim dostlarımızdan və şiələrimizdən bir kəs dünyadan köçsə, və Quranı düzgün oxumağı bacarmasa, qəbirdə ona oxumağı o həddə (dərəcəyə) qədər öyrədəcəklər ki, nəhayət Allah onu Behiştdə yuxarı aparar. Çünki Behiştin dərəcələri Quranın ayələrinin sayı ilə olacaqdır. Onu oxuyana deyiləcək oxu və yuxarı (yüksəyə) qalx.

10-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə vardır ki, hər kəs İxlas sursini oxusa, elə bilki, Quranın üçdə birini oxumuşdur. Allaha, Mələklər, səmavai kitablara, Allahın Peyğəməbərlərinə və Qiyamət gününə iman gətirmiş kəslərin sayı qədər ona onə həsənə verilər.

11-İmam Cəfər Sadiq (ə) buyurdu: Hər kəs özünün müstəhəb namazlarında Tovhid Qədr və “Ayətəl-kürsü” ayəsini oxusa, Allah onu insanların ən fəzilətli əməllərinə əməl etməkdə madam ki, bir kəs onun kimi yaxud ondan çox oxumasa, müvəffəq edər.

12-İmam Sadiq (ə) buyurdu: Hər kəs dörd rükət namaz qılsa, və hər bir rükətdə əlli dəfə *"Qul huvəllahu əhəd"* surəsini oxusa, bütün günahları bağışlanmayınca üzünü qiblədən döndərməsin.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər bir şey üçün nur vardırsa, Quranın da nuru Tovhid surəsidir.

Allahın Rəsulu (s.ə.v.v) buyurdu: Hər kim *"Qul huvəllahu əhədi"* oxusa, Allah ona birinci ayəni oxumağın səbəbinə min (rəhmət) nəzəri edər, ikinci ayəni oxumağın səbəbinə onun min xahişini (istədiyi) qəbul edər, və dördüncü ayəni oxumağın səbəbinə onun min hacətini qəbul edər.

İmam Sadiq (ə) buyurdu: Yatan zaman Kafirun və Tovhid surəsini oxusa, Allah onun üçün şirkdən uzaq olmağı yazar.

Hər kəs sübh vaxtı Tovhid, Qədr surəsini və "Ayətəl-kürsü"nü on bir dəfə oxusa, malını ziyanvericilərdən qorumuşdur. Hər bir kəs günəş çıxmazdan əvvəl Tovhid və Qədr surəsini oxusa, həmin gün şeytan nə qədər çalışsa da onu günaha aludə edə bilməz.

Allah bir kəsə təzə paltar əta etsə, dəstəmaz alıb, iki rəkət namazı Həmd, ayətəl kürsü, Qulhuvəllahu əhəd və İnna ənzəlnah oxumaqla qılsın, sonra Allaha onun övrətini (bədənini) örtdüyünə və xalq arasında ona gözəllik bəxş etdiyinə xatir şükr etsin. Sonra isə bu duanı oxusa, *"La həvla vəla quvvətə illa bəllahil əliyyil əzim"*, o paltarda günaha düşməz, bu nəticəsində paltarının sapının sayı qədər mələk onun üçün təqdis, bağışlanmaq və rəhmət tələb edər.

6-Deyirlər ki, cümə axşamı gecəsinin üçdə bir hissəsi keçəndən sonra, dəstəmazlı halda *"Allahus-səməd"* kələməsini zikr etməyin çox böyük təsiri vardır.

7-Cümə axşamı "Allahus-səməd" xətmini qırx bir min dəfə oxusun. (çox təcrübə olunmuşdur). Yoxsulluğun aradan qaldırılması, ruzinin çoxalması və Behişt qapısının açılması üçün hər gün yüz dəfə *"La ilahə illəllahul məlikul həqqul mubin"* zikrini desin.

Deyirlər qüdrətli olmaq üçün (bir kəs ki ona nail olmaqda acizdir) üç cümə axşamında və hər dəfədə iki rəkət namaz qılsın, hər rəkətdə on dəfə mübarək Həmd surəsini və on bir dəfə Tovhid surəsini oxusun. Namazın salamından sonra isə yüz dəfə salavat göndərsin.

Peyğəmbərdən (s.ə.v.v) rəvayət olunub. Həzrət buyurdu: Cəbrail (ə) mənə elə bir dərman öyrətdi ki, onu bilənin təbib və dərmana ehtiyacı olmaz. Həzrət Əli (ə), Əbubəkr, Ömər, Osman, dedilər: Ya Rəsuləllah O nədir? Bizim elə dərmana ehtiyacımız var. Həzrət buyurdu: Bir qədər yağış suyu toplayıb Fatihə, Tovhid, Fələq, Nas, surələrini və "Ayətəl-kürsü"nü ona oxusun və yetmiş dəfə yeddi gün sübh və şam vaxtı o sudan içsin. Məni peyğəmbərliyə seçən Allaha and olsun. Həqiqətən Cəbrail mənə demişdir bir kəs bu sudan içsə, Allah onun bədənindən hər bir dərdi uzaqlaşdırar və ona bütün dərdə və xəstəliklərdən şifa verib sağaldar. Göz, sinə ağrılarını, sidiyin həbsini, və bəlğəmi qurutmaq, bu nüsxə ilə bütün xəstəlikləri sağaltmaq faydalıdır. İmam Məhəmməd Baqirdən (ə) rəvayət olunub ki, iflici, quluncu, mədə bağırsaq havasını müalicə etmək üçün bu dua çox faydalıdır. Həmd, Qul əuzu birəbbil fələq, Qul əuzu birəbbin-nas, Tovhid surələrini müşk zəfəranla bir qaba yazın, davamında isə bu duanı yazın *"Əuzu bivəchillahil əzim və biizzətihilləti la turamu və qudrətihilləti la yəmnəu minhu şəyun min şərri hazəl vəcəi. Və min şərri ma fihi . Və min şərri ma əhzəru minhu."* sonra o qabla su için.

***

## ***<u>"Fələq" və "Nas" surəsi</u>***

***(Muəvvəzətəyn)***

1-İmam Baqir (ə) buyurdu : Hər kəs Vətr namazında *"Qul əuzu birəbbil fələq"* və *"Qul əuzu birəbinnas"* (muəvvəzətəyn)

surələrini "Qul huvəllahu əhəd" surəsi ilə oxusa, o şəxsə belə xitab olunar. Ey Allahın bəndəsi sənə muştuluq veririk Allah sənin vətr namazını qəbul etdi.

2-Übəyy ibn Kəbdən nəql olunmuş hədisdə yazılıb ki hər kəs *"Qul əuzu birəbbil fələq"* və *"Qul əuzu birəbbin-nas"* surələrini oxusa, bilki Allah tərəfindən nazil olmuş bütün kitabları oxumuş kəs kimi olar. Uqbə ibn Amirdən rəvayətdə deyir: Allahın Rəsulu (s.ə.v.v.) belə buyurdu: Mənə misli olmayan ayələr nazil olmuşdur. O ayələr muəvvəzətəyndir. (Bu rəvayəti Müslüm özünün Səhih kitabında da nəql etmişdir). Uqbədən (s.ə.v.v.) belə rəvayət edib. O həzrət buyurdu: Ey Uqbə Quranda ən fəzilətli iki surəni sənə öyrətməyimmi? Dedim: Ya Rəsuləllah bəli öyrədin! Beləliklə o həzrət muəvvəzətəyni mənə öyrətdi, sonra onu sübh namazında oxudu və buyurdu: Onu (muəvvəzətəyni) yatan və ytağından qalxan zaman oxu.

3-Fəzl ibn Yəsar deyir: Əbu Cəfərin (ə) belə buyurduğunu eşitdim: Allahın Rəsulunun (s.ə.v.v.) cismində şiddətli ağrılar tapılmışdı. Cəbrail və Mikail (ə) o həzrətin xidmətinə gəldilər. Cəbrail (ə) o həzrətin baş tərəfində Mikail (ə) isə onun ayaq tərəfində oturdu. Beləliklə Cəbrail (ə) *"Qul əuzu birəbbil fələq"* surəsini Mikail isə "Qul əuzu birəbbin-nas" surəsini oxuyub o həzrəti dua etdilər və Allaha sığındılar.

Pis adət olan vasvaslığı aradan qaldırmaq üçün ərəb ayının on dördündə Nas surəsini bir qaba yazıb onu yuyub, o qabdan su için və onunla dəstəmaz alın. İnşaallah tezliklə vasvaslıqdan nicat tapar.

Deyirlər əgər Həmd və muəvvəzətəyni müqəddəs türbətlə yazıb, qadın və kişiyə içirtsəniz qadın oğlan uşağına hamilə olar. Əsəb xəstəliyini müalicə etmək üçün çoxlu nüsxələrdənbir neçəsini burada qeyd edirəm.

1-Rəvayət olunub ki, Həzrət İmam Rza (ə) bir şəxsin əsəb xəstəliyinin təsirindən bihuş olduğunu gördü. İmam qabda su gətirilməsini tələb etdi. Sonra həzrət Həmd, İxlas, və

Muəvvəzətəyn (fələq və nas) surələrini o suya oxudu və suyu onun başına səpdi, beləliklə də o kişi ayıldı. Əgər bir şəxs əsəb xəstəliyinə düçar olsa, bu surələri (Həmd, İxlas, Fələq, Nas) yazıb özündə saxlasa şəfa tapar.

2-İmam Muhəmməd Baqirdən (ə) nəql olunmuş ayrı bir hədisdə yazılıb ki, xəstənin yanında əyləşib Həmd, Fələq, və Nas surələrinin hər birini on dəfə bihuş olmuş xəstəyə oxusanız, o ayılar.

3-Bu xəstəliyə qarşı ər-Rəhman surəsini kağıza yazaraq, “Ayətəl-kürsü”nü isə onun haşiyəsində yazıb özünüzdə saxlayın.

4-Ləyl surəsini əsəb xəstəliyinin təsirindən bihuş olmuş adamın qulağına oxusanız ayılar.

5-Cin surəsini oxuyub əsəbdən bihuş olmuş şəxsə tərəf üfürsən o ayılar.

6-Bu ayəni oxusan və yaxud yazıb onun suyunu içsən əsəb xəstəliyin sağalar.

Ayə-*"Bismillahir-rəhmanir-rəhim. Fəxələfə min bəədihim xəlfun əzaus-səlatə vəttəbəuş-şəhəvati fəsəvfə yəlqunə ğəyyən."* (Məryəm 59) *"Və səlləllahu əla Muhəmmədin və alihi əcməin."*

Yeddi ədəd mərci böyüklüyündə həb, yeddi ədəd qara dənə və yeddi damcı balı suda yaxud yağda qarışdırın. Sonra isə Həmdi, Muəvvəzətəyni “Ayətəl-kürsü”nü, Hədid surəsinin əvvəlinidən (1-ci ayədən 5-ci ayəyə )"tərcəul umur" -a qədər və Həşr surəsinin (21-ci) "Ləv ənzəlna " ayəsindən həmin surənin sonuna qədər düzəltdiyiniz məcuna oxuyun və sonra onu için. İnşaallah şifa taparsınız.

"Məkarimul-əxlaq" kitabında yazılıb ki, bütün xəstəliklərə və dərdlər xatir bu ayələri bir kağıza yazın və xəstə şəxsin paltarına bağlayın inşaallah şifa tapar.

*"Bilhəqqi ənzəlnahu və bilhəqqi nəzzələ vəma ərsəlnakə illa mubəşşirən və nəzirən."*(əl-İsra-105) *"Və nunəzzilu minəl Qurani ma huvə şifaun və rəhmətun lilmuminin". (əl-İsra-82) "Vəma Muhəmmədun illa rəsulun qəd xələt min qəblihir-*

*rusulu, əfəin matə əv qutilə inqələbtum əla əəqabikum . Vəmən yənqəlib əla əqibəyhi."* (Ali-İmran-144) *"Və amənu bima nuzzilu əla Muhəmmədin və huvəl həqqu min rəbbihim, kəffərə ənhum səyyiatihim və əsləhə baləhum ". (Muhəmməd-2) "Makanə Muhəmmədun əbaəhədin min ricalikum və lakin rəsuləllahi və xatəmən-nəbiyyin."* (əl-Əhzab-40) *"Vəlləzinə məəhu əşiddau ələl kuffari ruhəmau bəynəhum, tərahum rukkəən succədən yəbtəğunə fəzlən minəllahi və rizvanən simahum fivucuhihim min əsəris-sucudi. Zalikə məsəluhum fittəvrati və məsəluhum fil incili kəzərin əxrəcə şətəhu".(əl-Fəth –29) " Və mubəşşirən birəsulin yəti min bəədi ismuhu əhməd. Fələmma caəhum bilbəyyinati qalu haza sihrun mubin"* (əs-Səf-6) .*"Vələv ənnə Quranən suyyirət bihil cibalu əv quttiət bihil ərzu əv kullimə bihil məvta .Bəl lillahi əmru cəmiən"*(ər-Rəd-31). *"Əlməlikul yəvmə lillahil vahidil qəhhar"* (Ğafir-16) Və sonda bunu desin, *"Bismillahi əlməktubi əla sabiqil-ərşi. "*

Bəd nəzəri dəf etmək üçün əllərini üzünün müqabilində tutub, Həmd, Tovhid, və Muəvvəzətəyn surələrini oxusun, və əllərini üzünə çəksin.

Rəvayətdə yazılıb; bir nəfər qızdırmadan İmam Sadiqə (ə) şikayət edib dedi bir aydır ki, qızdırıram. Təbiblərin dediklərinə əməl etdim, ancaq qızdırmam düşmədi. Həzrət buyurdu: Köynəklərinin düymələrini aç, başını köynəyinin içinə daxil edib azan və iqamə de, sonra yeddi dəfə Həmd yeddi dəfə Fələq və yeddi dəfə Nas surəsini oxu. O şəxs dedi: İmamın dediyi kimi etdim elə bil ki, zindandan azad oldum.

Dünya malı kəsb etmək (əldə etmək) üçün bu surələri, (Şəms, Ləyl, Kafirun, Tovhid, Fələq, Nas ) yeddi dəfə oxusun, və sonra desin: *"Allahumməcəl li fərəcən və məxrəcən."*

Hacətlərinizin qəbul olunmasına xatir ömrünüzdə bircə dəfədə olsa bu xətmə əməl edin:

Şənbə günü Fəth surəsini on dəfə oxuyun. Yekşənbə günü (bazar) Yasin surəsini on dörd dəfə, duşənbə günü (birinci gün) Vaqiə surəsini on dörd dəfə se şənbə günü (ikinci gün)

Ərrəhman surəsini on dörd dəfə, çaharşənbə günü (üçüncü gün) Qul uhiyə (Cin) surəsini on dörd dəfə pəncşənbə günü (dördüncü gün) Təbarək (Furqan) surəsini on dörd dəfə, cümə günü Əlif-lam-mim səcdə (Səcdə) surəsini on dörd dəfə oxuyun, və bu surələri oxuyanda onların hər birisini bir məsuma hədiyyə edin. Şübhəsiz ki, hacətiniz qəbul olunacaq., inşəaallah.

Bir şəxs sinə atrısından İmamların (ə) birinə şikayət etdi, Həzrət buyurdu: Qurandan şifa tələb et (al). Çünki Allah Quranda özü buyurur: "Sinədə olanların (dərdlərin) şifası (dərmanı) Qurandır". Məkarim-Əxlaq kitabında yazılıb ki, sinə ağrısı üçün aşağıdakı ayəni oxuyub ona üfürün.

*"Və iz qətəltum nəfsən fəddarətum fiha Vəllahu muxricun ma kuntum təktumun"* (Bəqərə-72).

Şifa ayəsini yazıb deyin: *"Və nunəzzilu minəl Qurani ma huvə şifaun və rəhmətun lilmöminin"* (Əl-İsra-82).

Körpəsinə süd verən qadın bu ayəni yazıb onu yuyub suyunu içsə, südü çoxalar.

*"Summə qəsət Qulubikum min bəədi zalikə fəhiyəl kəlhicarəti əv əşəddu qəsvətən. Və innə minəl hicarəti ləma yətəfəccəru minhul ənhar. Və innə minha ləma yəşşəqqəqu fəyəxrucu minhul mau, və in minha ləma yəhbitu min xəşyətillahi, və məllahu biğafilin əmma təələmun."* (Bəqərə-74).

Böyrək ağrısından və hər cür qəm-qüssədən nicat tapmaq üçün bu ayəni səhər vaxtı yazıb özündə saxlasın.

*"İn yəmsəskəllahu bizurrin fəla kaşifə ləhu illa huvə, və in yəmsəskə bixəyrin fəhuvə əla kulli şəyin qədir. Və huvəl Qahiru fəvqə ibadihi, vəhuvəl həkimul xəbir."* (Ənam 17-18)

İbn Əbbasdan nəql olunub ki, hər kəsin qulağı ağrıyırsa,

1-Aşağıdakı ayəni oxumağı davam etdirsin. *"Fəmən yəstəmiil ənə yəcid ləhu şihabən rəsədən."* (Cin-9). Sonra bunu desin. *"Kəən ləm yəsməha kəənnə fi uzunəyhi vəqrən"* (Loğman-7).

2-Bir şəxs İmam Məhəmməd Baqirin (ə) hüzuruna gəlib qulağının ağır eşitməsindən şikayət etdi. İmam buyurdu ki, əlini qulağına sürtüb bu ayələri oxu. *"Ləv ənzəlna hazəl Quranə əla cəbəlin lərəəytəhu xaşiən mutəsəddiən min xəşyətillah, və tilkəl əmsalu nəzribuha linnasi ləəlləhum yətəfəkkərun. Huvəlla-hulləzi la ilahə illa huvə, alimul ğəybi vəşşəhadəti, huvəllahulləzi la ilahə illa huvə, alimul ğəybi vəşşəhadəti, huvərrəhmanur-rəhim. Huvəllahulləzi la ilahə illa huvəl məlikul quddu sussəlamul mömimul muhəyminul əzizul cəbbarul mutəkəbbiru, Subhanəllahi əmma yuşrikun. Huvəllahul xaliqul bariul musəvviru ləhul əsmaul husna, yusəbbihu ləhu ma fissəmavati vələrzi, vəhuvəl əzizul həkim."* (Həşr-21-24)

3-Qulağını əlinlə tutub aşağıdakı ayəni üç dəfə oxu: *"Minha xələqnakum və fiha nuidukum və minha nuxricukum tarrətən uxra."* (Taha-55).

4-Bu ayəni yazıb özündə saxla. *"Və iza Quriəl Quranu fəstəmiu ləhu və ənsitu ləəlləkum turhəmun."* (Əraf-204) *"Kəən ləm yəsməha kəənnə fi uzunəyhi vəqrən, fəbəşşirhu biəzabin əlim"* (Loğman-7)

Dəful humum kitabında, hakimə qalib gəlmək üçün onun müqabilində (qarşısında) dayanıb de: *"Həsbiyəllahu la ilahə illa huvə ələyhi təvəkkəltu və huvə rəbbul ərşil əzim."* (Həşr-129) və sonra bu ayələri də onun qarşısında oxu: *"Kətəbəllahu ləəğlibənnə ənə və rusuli innəllahə təviyyun əziz."* (Mucadilə-21). yaxud bu ayəni oxu: *"Yunicillahul-ləzinət-təqəv biməfazə-tihim, la yəməssuhumus-suu və lahum yəhzənun"* (Zumər-61).

Xəzanətul əsrar kitabında nəql olunub ki, hər kəs aşağıdakı ayəni ceyran dərisinə yazıb özündə saxlasa, bütün qorxu-hürkülərdən amanda qalar.

*"Ya məşərəl cinni vəlins inistətətum ən tənfuzu, latənfuzunə illa bisultan. Fəbiəyyi alai rəbbikuma şəvazun min narin və nuhasin fəla təntəsiran."* (ər-Rəhman-33-35).

«İddətud-daimi» kitabında imamlardan rəvayət edilib ki, əgər bir şeydən qorxsan Quranın hansı yerindən istəyirsənsə yüz ayə oxu və sonra bu cümləni üç dəfə de: *"İdfə ənnil bəla"*

Bir hədisdə belə nəql olunub. Həzrət Rəsul (s.ə.v.v) bu duanı həzrət Əmirəl-mömininə (ə) öyrədib buyurdu: Müşkülə düşən zaman [Quranın] bu zikrini oxusan, Mütəal Allah oxuduğun kələmələrin bərəkətinin xatirinə sənə o giriftarçılıqdan nicat verər. *"Bismillahir-rəhmanir-rəhim. La həvlə vəla quvvətə illa billahil əliyyil əzim iyyakə nəəbudu və iyyakə nəstəin."*

Mömin "Bəhrun-nəhafe" kitabında yazır, bir kəs müşküllə yaxud giriftarçılıqla qarşılaşsa, vəondan çıxış yolu tapa bilməsə, bu ayəni oxusun nicat tapar. *"Bismillahir-rəhmanir-rəhim. Və ufəvvizu əmri iləllah innəllahə bəsirun bil ibad." (*Ğafir-44) ondan sonra bunu de: "İlahi mağaradakı kişinin hörməti xatirinə ki onun ayaqları ilanın ağzındadır, ruzisi qeybdən gəlir, və o Allahın zikrinə məşğuldur, mən çəng atıb Mustafanın ətəyindən yapışıram ki, hacətim rəva olsun.".

Misbah kitabında yazılıb, hər kəs Tur və İnfitar surəsini oxusa, həbsdən xilas olar inşaallah.

Quran ayələrinin xüsusiyyətləri haqqında belə yazılıb, hər kəs aşağıdakı ayəni vacibi namazları qılandan sonra bir həftə ardıcıl (cümə günü əsr namazından başlamaqla) oxusa, Allah-taala onun işlərini asanlaşdırar və onun borcunu boynundun götürər. *"Əlanə xəffəfəllahu ənkum və əlimə ənnə fikum zəfən. Fəin yəkun minkum miətun sabirətun yəğlibu miətəyni. Vəin yəkun minkum əlfən yəğlibu əlfəyni biiznillahi vəllahu məəssabirin."* (Ənfal-66)

Fənirliyin aradan qaldırması və ruzinin çoxalması və Behişt qapılarının açılması üçün hər gün yüz dəfə *"La ilahə illəllahul məlikul həqqul mubin"* cümləsini desin.

İmam Baqir (ə) buyurdu: Hər bir şeyin baharı vardırsa, Quranın da baharı mübarək Ramazan ayıdır .

Yeni il təhvil olanda salamatlıq xatirinə bu yeddi salamı çini kasaya müşk zəfəranla yazıb , yağış suyu ilə yuyub onu için.

1-Bismillahir-rəhmanir-rəhim. Səlamun əla Nuhin fil aləmin.

2-Səlamun qəvlən min rəbbir-rəhim.

3-Səlamun əla İbrahim.

4-Səlamun əla Musa və Harun.

5-Səlamun əla Ali Yasin.

6-Səlamun ələykum tibtum fədxulu xalidin.

7-Səlamun hiyə hətta mətləil fəcr.

Qaf: Rəvayət olunub ki, Qaf surəsi oxunan evin sahibi dövlətli, izzətli, və xoşbəxt olar, və zillətdən qorunar. Təcrübə olunub.

## ***Quranı oxuyandan sonra oxunan dua***

***Allahummə inni qəd qərətu ma qəzəytu min kitabikəl-ləzi ənzələhu əla nəbiyyikəs-sadiq . Səlləllahu ələyhi və alihi fələkəl həmdu rəbbəna . Allahum-məcəlni mimmən yəhillu həlaləhu və yuhərrimu hərarnəhu və yuminu bimuhkəmihi və mutəşabihihi. Vəcəlhu li ənisən fi qəbri, və ənisən fi həşri. Vəcəlni mimmən yərqa bikulli ayətin qərəəha dərəcətən fi əəla illiyyin birəhmətikə ya ərhəmər-rahimin.***

## *Mündəricat*

***Əl-quranu əhdullahi ila xəlqihi*.............................3**
***Quran oxumağın savabı*.........................................6**
***Quranı* oxumazdan *əvvəl* oxunan dua..................7**
***"Fatihətul-kitab" surəsi* .........................................8**
***"Bəqərə" surəsi*..................................................12**
***"Ali İmran" surəsi*...............................................17**
***"Nisa" surəsi*.......................................................20**
***"Maidə" surəsi*.....................................................21**
***"Ənam" surəsi*.....................................................23**
***"Əraf" surəsi* .......................................................26**
***"Ənfal" və "Tövbə" surələri* ...............................27**
***"Yunus" surəsi*.....................................................29**
***"Hud" surəsi*........................................................29**
***"Yusif" surəsi*.......................................................30**
***"Rəd" surəsi*.........................................................31**
***"İbrahim" və "Hicr" surələri*...............................31**
***"Nəhl" surəsi* .......................................................32**
***"İsra" surəsi*..........................................................33**
***"Kəhf" surəsi* .......................................................34**
***"Məryəm" surəsi*..................................................36**
***"Taha" surəsi*........................................................38**
***"Ənbiya" surəsi* ...................................................40**
***"Həcc" surəsi*.......................................................41**
***"Möminun" surəsi*...............................................41**
***"Nur" surəsi*..........................................................42**
***"Furqan" surəsi*....................................................43**
***"Şuəra" surəsi* .....................................................44**

*“Nəml” surəsi* ........................................................45
*“Qəsəs” surəsi*........................................................45
*“Ənkəbut” surəsi*...................................................45
*“Loğman” surəsi* ...................................................46
*“Səcdə” surəsi*........................................................48
*“Əhzab” surəsi*........................................................48
*“Səbə” surəsi* ..........................................................49
*“Fatir” surəsi*..........................................................50
*“Yasin” surəsi* ........................................................50
*“Saffat” surəsi* ........................................................55
*“Sad” surəsi*............................................................56
*“Zumər” surəsi*........................................................56
*“Mömin” surəsi*.......................................................57
*“Fussilət” surəsi*......................................................58
*“Şura” sursi*............................................................59
*“Zuxfur” surəsi* ......................................................59
*“Duxan” surəsi*........................................................60
*“Casiyə” surəsi* .......................................................61
*“Əhqaf” surəsi*.........................................................61
*“Muhəmməd” surəsi* ...............................................62
*“Fəth” surəsi* ..........................................................62
*“Hucurat” surəsi* .....................................................64
*“Qaf” surəsi*............................................................64
*“Tur” surəsi* ............................................................65
*“Nəcm” surəsi*.........................................................66
*“Qəmər” surəsi*........................................................66
*“ər-Rəhman” surəsi*.................................................67
*(Alai)*......................................................................67
*“Vaqiə” surəsi* .........................................................68

*“Hədid” surəsi* ........................................................70
*“Mucadilə” surəsi*...................................................71
*“Həşr” surəsi* ..........................................................72
*“Mumtəhənə” surəsi* ..............................................73
*“Səf” surəsi*..............................................................73
*“Cümə” surəsi* .........................................................74
*“Munafiqun” surəsi* ...............................................74
*“Təğabun” surəsi*.....................................................75
*“Təlaq” və “Təhrim” surəsi*...................................75
*“Mulk” surəsi* ..........................................................77
*“Qələm” surəsi*.........................................................78
*“Haqqə” surəsi* ........................................................79
*“Məaric” surəsi* .......................................................79
*“Nuh” (ə) surəsi* ......................................................80
*“Cin” surəsi* .............................................................80
*“Muzzəmmil” surəsi*...............................................81
*“Muddəssir” surəsi*.................................................82
*“Qiyamət” surəsi* ....................................................83
*“Mursəlat” surəsi* ...................................................83
*“ Nəbə”surəsi*...........................................................84
*“Naziat surəsi”*........................................................84
*“Əbəsə” surəsi* ........................................................85
*“Kuvvirət” surəsi* ....................................................85
*“İnfitar” surəsi* ........................................................86
*“Mutəffifin” surəsi* .................................................86
*“Buruc” surəsi*.........................................................87
*“Tariq” surəsi*...........................................................87
*“Əla” surəsi* .............................................................88
*“Ğaşiyə” surəsi* .......................................................89

***“Fəcr” surəsi*** *............................................................90*
***“Bələd” surəsi*** *.........................................................90*
***“Şəms” surəsi*** *..........................................................90*
***“Ləyl” surəsi*** *...........................................................91*
***“Zuha” surəsi*** *...........................................................92*
***“İnşirah” surəsi*** *......................................................93*
***“Tin” surəsi*** *.............................................................94*
***“Əlaq” surəsi*** *............................................................94*
***“Qədr” surəsi*** *..........................................................95*
***“Bəyyinə” surəsi*** *.....................................................96*
***“ Zilzal ” surəsi*** *.......................................................97*
***“Adiyat” surəsi*** *.......................................................98*
***“Qariə” surəsi*** *.........................................................98*
***“Təkasur” surəsi*** *.....................................................99*
***“Əsr” surəsi*** *..........................................................100*
***“Huməzə” surəsi*** *....................................................100*
***“Fil” və “Qurəyş” surəsi*** *.....................................101*
***“Ərəəytə” surəsi*** *.....................................................102*
***“Kəvsər” surəsi*** *......................................................103*
***“Kafirun” surəsi*** *.....................................................103*
***“Nəsr” surəsi*** *..........................................................104*
***“Təbbət” surəsi*** *.......................................................104*
***“Tovhid” surəsi*** *.......................................................105*
***“Fələq” və “Nas” surəsi*** *......................................108*
***Quranı oxuyandan sonra oxunan dua*** *..............115*
***Mündəricat*** *...............................................................116*